www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

“Çağdaş Azərbaycan poeziyası” N 04

Məmməd İsmayıl

Yoxun varlığı

(Seçilmiş şeirlər)

Tanınmış Azərbaycan şairinin yeni seçmə şeirlərindən ibarət e-toplu...

2012

YENI YAZARLAR VƏ SƏNƏTÇILƏR QURUMU. E-NƏŞR N 04 (119 - 2012)

www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

Bu elektron nəşr http://www.kitabxana.net - Milli Virtual Kitabxananın "Çağdaş Azərbaycan poeziyası" Kulturoloji-bədii layihəsi çərçivəsində nəşrə hazırlanıb və yayılır.

Elektron Kitab N 04

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 04 (119 - 2012)

Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurum:

Azərbaycan Yazıçılar Birliyi - http://www.azyb.net

Məmməd İsmayıl


Yoxun varlığı

(Seçilmiş şeirlər)

Tanınmış Azərbaycan şairinin yeni seçmə şeirlərindən ibarət e-toplu...

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

YYSQ - Milli Virtual Kitabxana. Bakı – 2012



Məmməd İsmayıl

Yoxun varlığı

(Seçilmiş şeirlər)

HAQDAN GƏLƏN ŞAİRİN

SƏSİ QÜRBƏTDƏN GƏLİR...

www.kitabxana.net - Milli Virtual Kitabxana

HAQDAN GƏLƏN ŞAİRİN SƏSİ QÜRBƏTDƏN GƏLİR...

Tanrı bilər
Dua
Biz
Unutduğun yerdəyəm
Unudulmaq növbəsi...
Tale ile üz üze...
Deyərsiz
Hələ bir kimsənin yoxdu xeberi
Allah unutmur
Sultanım
Başardım
Adım
Vacibdirmi
Eiffel güllesi
Boğaz
İlan
Uğur gözləyirsən...
Ey göyerçin
Uca binaların ehatesinde
Sınaq
Ata şekli
Menzil başında
Qem yeme qaldısa son ümid yeri
Gedersen, mechula yol geder geden
Ne yaxşı ki veten var yaddan çıxdığın yerde
Adı batmış
O, derdini açmaz size
Qem döyen qapılar
Ona nə ad yaraşır
İlahi bir ziddiyət
O da getti
Gözdən çıxarılan...
İnsan...
Boğazdan keçən gəmilər...
Qılınca baxa-baxa
Adaşım, bu tarix təkrar olundu
Unudulanların şairi
Qırxıncı qapıyam sirrim bilinməz

VƏTƏNİN BÜTÜN YOLLARI
AXIRDA QÜRBƏTƏ ÇIXDI

Uzun bir cümlədir vətən torpağı
Şairləri susmayan bir vətən basılmayıb
Bilmezdim bir yağlı tikesen, Vətən
Sap
Verdiş
Laçınım
Xan əsgər...
Qan
Hər sözün doğrusu
Saz
Ay vətən, nə tez unutdun.
Vətənin bütün yolları
İlğım
Alnımdakı çapıq yeri
Hazırlaş o dünyaya
Varın yoxsul ölkəsi
Millət
Çanaqqala içinde...
O mani padmexum...
Sürek
Sarı yarpaq neğmesi
Nar
Qatar vaqonları
Bu, menem...
İlham
O hansı meseldir
Oğuz hələ yuxudadır...
Mən gələndə
Türk
Qədim bir türk çadırı
Yele bir söz söylemişdim...
Orhun
Ağlar
İki sahil yaxası
Adı bəlli-Dardanel
Səndə var olmaq üçün…
Ay bulud
Derd
Getməyə bir yerin ola
Qebir yeri
Bu yol bir qismət yolu
Bu necə qısmət imiş....
Yön ki düşdü qərib elə
Alnındakı qırışlar
Bura haradı

Sevmədi məni dünya...

Ömür...
Göbək bağı
Sən indi hardasan, Məmməd İsmayıl
Bilmirsən hardayıq, Sabir Sarvanım?

TABUT QAPAĞINDAN QEYRI
BÜTÜN QAPILAR QAPALI...

Çölde barmağıma tiken batanda
Allah uzaqlarda deyil
Bütün qapılar qapalı
Sonuc
Sonuncu ümid
Ölüm- yuxu görməkdi
Sən dünyaya gələli
Aman, Tanrım
Ha yandan gelim yanına
Behane
Stalinin öldüyü gün...
Bu dünya dağıldı getdi
Evi dağılmış
Hansı qonşudasa inildeyir ud
Ve...hamsı bu
Bu dünya dağıldı getdi
Getdim, məni apardı dərd
Qalır
Bulud olub sulandım
Gəlirmi
Troya atına bənzəyir ilham
Tebiet talede oxşayıb bize
Bextime düşen gün
Ana toprağı
Körpe hele göydedir
Varmı xeberi
Gece bir qara qönçe
Sirli çevreler
Göz yaşı güllesi
Bir gizilti keçer çiçekden, ottan
Penceremin önünde göz yaşı töker payız
Göy gurşağı
İşdi qayıda bilsən
Buludlar dolmağı başara bildi..

TƏBİƏT TALEDƏ
OXŞAYIB BİZƏ

Yol darıxdığı yerdə
...Sisli payız gecesinə bənzəyir halım
Unudulan limanlar
Günəş
Başımın sağlığı yer...
Durna dimdiyinin ucunda bir dən
Sirr
Yoxdan var edilən...
İçimdə qışlayan dərd
Allah amanında...
Ümid yeri, hardasan
Aləmi bürüyən qar
Zamanın fikir çağı
Saçındakı dən izsə
Ağac
Meşədə hər kəsin bir ağaç var
Tale quşu
Yarpaq düşdü budaqdan ölümün səsi gəldi..
Burda mən qəribəm günəş də qərib...
Özünə çəkilir dəniz suları...
Yarpaqlar töküldümü
Quşlar xəbər verməz mənə
Cığır
Bir yol ola
Tütək olub qəm çalır
Mən yaza bilmədim qələmim aciz
Buraxın meni
Ay qızım meni de bir ağız ağla
Yaş altmışa dayandı
Altmış yaşında bu dəli
Tütəyə dönəcək qamış...
Bir cənazə yol gedir...
Sən mənə bu qışı tərcümə elə
Gələcək
Meni unutmazsan o dünyada da...
Yetmiş il yaşadın axırı da bu...
Bizim aramıza davaydı düşen
Bes bu derd hayandan geldi
Gül

BİR DE SENİ SEVSEM
SENE SEVİLSEM...

Qəm yemə dəli könül
Qadın
Saralan yarpaqlar budaqda qalmaz
Dünyanın en böyük meğlubiyeti
Payızın yelleri behane imiş
Siz gedin...
Ya da bildiyindən çox bilir qadın
Səni
Məni
Sevilmək öyrədirsən
Eşq
Yoxun varlığı
Sevgi
Bir də səni sevsəm, sənə sevilsəm...
Bu dənizin o başında…
Başından bağlanan qayıq
Hele mehebbetim düşüb derbeder
Ömrümden, günümden keçen yaşmısan
Belke
Kesilmez söhbeti yarın, yoldaşın
Qoymayın dünyanı adileşmeye
QAN AXAN ELİNE XINA QOYAN XALQ
BU XALQ ÇEPİK ÇALMAK ÖYRENİR HELE....

Kimi aldadırsan
Bu millət
Bu adam
Sən kimi seçirsən
Bu xalq çəpik çalmaq öyrənir hələ

İLLƏRİN O BAŞINDAN
OXUCU YADDAŞINDAN

Tərəddüdlər
Ağacdələn, döy qapımı
Vətən seçilməz
Hələ yaşamağa dəyər bir az da
Savalanda yatan igid
Bir adam yol gedir bizdən gabagda...
Mən şair deyiləm..
Günah
Bir dəfə
Bu qan yerdə qalan deyil
Ömür sirli—soraqlıdır
Bir də geçməyəcək ələ bu anlar
Döyüş—qələbə
Sənə elə gəlir

Qaçış
Sürgün yeri
Sıx məni
Bu gecə
O hansi nurani gocaydı...
Bir gəbir yeri
Deyiləm
İlq dəfə gördüyüm yuxu
Türkün sevgisi
Saki

Sən türk deyilsən?
Baykal
Getdi
Üstə
İki nəfər
Görəsən...
Qonun əllərimə yorulanda siz
Qönçə bələklərdə gül saxlanırdı
Ömür su kimidir
İlk ümid, son məkan
Muqəddəs kədər
Əbədiyyət yolçusu
Yaman darıxmışam sənincin, ana
Ümitdən asılan qılınclar
Yetim bir haray var...
Bu yolların başında
Bənzəyib
Baxtıma düşən gün
Qərib axşamlar
Payız lövhələri
İlk ev-ilk uçuş
Bahar
Bu yaz idi....
Axşamlar, səhərlər
Ceviz axtarardıq payız gələndə
Təsəlli
Səni bilmirəm...
Bu, mənəm
Gizli məhəbbət
Soyuqdu
Düşünce
Baxma
Gözəldir
Sevirəm səni
Qızların
Bir ildir
Bir nefese
Bu dünya deyilen ne gözel imiş
Apar məni

Nəyinə gərək
Deyil ki
O kim idi...
Təzədən mən sənə gayıdacağam

TANRI BİLƏR

***Ş**irinliyi hardan alır*
bal nə bilsin
Sora bilsən,
Gedib soruş,
arı bilər.
Axşam harda yatdığını
sən bilirsən
Sabah harda oyanarsan
Tanrı bilər.

BİZ

Q*ürbət nəğmələrində*
Təzəmi, əskimiyik.
Bu elin qadərində
Biz elə yaz kimiyik.

Bir gün çıxıb gedərik,
Ayrılıq dağlarından.
Xəbərimiz duyulmaz
Qurbət uzaqlarından.

Çəkib elin gözündən
Bizi yasaqlıyarlar.
Bizi qovub bu gündən
Tarixə saxlıyarlar.
❖

UNUTDUĞUN YERDƏYƏM

*-**B**ahar, hardan gəlirsən?*
-Haqqı bulduğum yerdən.
-Yaz, hayandan gəlirsən?
-Yaşa dolduğum yerdən.
-Güz, hayandan gelirsən?
-Xəzan olduğum yerdən.
-Qış, hayandan gəlirsən?
-Unudulduğum yerdən.

Ötən ömrün yasında,
Quzey yaxasında mən.
Gün bulud arxasında
Gurbət arxasında mən.

Varmı vərən bir soraq
Nerdəyəm mən, nerdəyəm?
Yaddaşına yaxşı bax,
Unutduğun yerdəyəm.

❖

UNUDULMAQ NÖVBƏSİ...

Y*erdə su, göydə bulud,*
Tanrının xəyalları,
Bir şamın yarpağında sınaqdan çıxır yaşam.
Alıb qanadlarına cavabsız sualları
Ürəyimin başına səssiz qonmada axşam.

Yazı könül yarası, qışı üz qarasıdır,
Nə elə ərkim çatar, nə də bir xahişim var.
Ah bilsəydim məzarım dünyanın harasıdır
Və bənim bu dünyada bilsəydim nə işim var?

Haraya axır axsın,
Su sabahkı buluddu.
Bu günkü cada yoldu dünənki axın yeri.
Aldığı nəfəs kimi Vətən məni unutdu,
Kimin yadına düşər batan bulagın yeri?

Unudulmaq növbəsi...
Mənim də gəldi sıram,
Bizi ölümə çəkən zaman arıdı bəlkə.
Onu sevmək var ikən kimdən, nədən gorxuram,
Hər kəsin qəlbindəki sevgi Tanrıdı bəlkə?

O ovçu, dərt sürəkçi...
Varmı bir ümid yeri?
Harayacan aparar ilahi vədlər məni?
Sevməyə nə qaldı ki dünyada ondan qeyri,
Ona tərəf qovmada verdiyi dərtlər məni...
❖

TALE İLE ÜZ-ÜZE

Tale ile üz üze
Tale ile göz göze
Tale ile baş başa
Durup oğulsan yaşa.

Gecenin gece derdi,
Gündüz günü yaşıyır.
O hansi behteverdir
Öz ömrünü yaşıyır.

...Haçan düşdük axına
Önde varmış eh neler...
O çayın qabağına
Gefil düşen dehneler.

Gözümüz bahardadır,
Göz harda,arzu harda.
Çay yatağı hardadır,
Arxa axan su harda?!

Düşüp arxa darıxar
O suyun yeyin ömrü.
Bir bizim ömrümüz var,
Bir de taleyin ömrü.

Geri dönmek gümanın
Qaj-qaj xırdalanar da.
Eşqin,arzun,zamanın
Baş yolundan kenarda

Aşa bilermi dağı
Sozalan arxın ömrü?!
Hardadır çay yatağı,
Hardadır xalqın ömrü?!

Tale ile göz-göze
Tale ile üz-üze,
Tale ile baş-başa
Durub oğulsan yaşa!

❖

DEYERSİZ

B*axarsan ağarar gözün qarası,*
Baxdın ya baxmadın iz qalmaz suda.
Bir ömür- axşamla sabah arası,
Sabah xoş gördükmüş, axşam əlvida.

Ömrüm keçib gedir dar bir boğazdan,
Bu dəniz gözümdə büyüdür qəmı.
Gözdən itəcəyəm, yoxam bir azdan,
Həsrət sularında mənəm o gəmi.

Dəyərsiz, bilmədik ömür sürəli
Vaxtın söz sovunda, çat ha çatında .
Atadan, anadan, yardan irəli

Varmış sevgilisi Vətən adında.

Deyərsiz, dərt sürdü, ömür sürmədi,
Axırda mənzilə yetdi diyərsiz.
O, bu zəmanədən söz götürmədi ,
Başını götürüb getdi diyərsiz.

❖

HELE BİR KİMSENİN YOXDU XEBERİ

Hələ bir kimsənin yoxdu xəbəri
Məni bu yerlərə səsliyən nədir.
Bəlkə də kim bilir gürbət elləri
Gərib məzarların həsrətindədir.

Gəlir damağıma ölümün dadı
Güllə açılacaq, tiyə çıxacaq.
O yerlər dirimə sahib durmadı
Gəlib ölüməmi yiyə çıxacaq.

Qərib gecələrin yuxusu sərvaxt ,
Qürbət gündüzlərə zülüm dolanır.
Anam dolanardı başıma bir vaxt,
İndi ətrafıma ölüm dolanır.

Yox daha içimə bənzəməz çölüm,
Ömrün ağ günləri qaradan çıxar.
Ölməyin zamanı gəldi, gəl, ölüm,
Mən ölüm, gəl məni aradan çıxart.

❖

ALLAH UNUTMUR

Payızda baharın yolunu tutdun,
Çiçəklər bitəcək içindən garın.
Əvvəl arzuladın, sonra unutdun
Çıxar gabağına unutduqların.

Sevilən Tanrıya sevimli bəndə,-
Baxma ki şeytanlar daş atır sənə
Tanrı, istəsən də, istəməsən də
Bir şair taleyi yaşadır sənə.

Hər qönçə gələcəkək eşq ilahəsi,
Hər ovuc torpaq da ağaç yeridi.
Sənin fikirlərin maqnit sahəsi
İlahi vəhlərin saxlac yeridi.

Gözə görükəcək qəlbinə daman,
Son ucda səhəri gətirər gecə.
Səni qürbətlərdə çürüdən zaman
Şeirinin yanından yel olub keçər.

Başından yüksələn dumanmı, çənmi?
Könül ocağının odundan çıxıb.
Bu qürbət deyilən sən istəyənmi
Fikirləş bəlkə də yadından çıxıb.

Soruşma nə olar sonun əvvəli
Daşda su, dildə söz, odunda ocaq.
Sənin şeirlərin—hamilə gəlin,
Gedib oxuyana fikir doğacaq.

Görərsən gül bitir içindən qarın
Baxma ki verdiyin söz sözü tutmur:
Çıxır qabağına unutduqların
İnsan unudanı Allah unutmur.

❖

SULTANIM

Gətirdilər, öz xoşuma gəlmədim,
Əllərinlə nura döndü zülmetim..
Nə vermişdin dəyərini bilmədim,
Səpələdim hara gəldi, sultanım.

Bir qismətin çəhlimindən yürüdüm,
Cavanlığı qocalığa bürüdüm.
Hara getdim süsüm-sürüm sürüdüm
Dərd əlimdən zara gəldi, sultanım.

Mənzil kəsdim, ümidimi kəsmədim,
Vaxtdan küsdüm, dönük baxtdan küsmədim.
Nə göndərdin, şərik çıxdı qismətim,
Hər nə gəldi, kara gəldi, sultanım.

Səndən qeyri üz tutmağa hara var?
Heç addırmaz hər ağ gündə qara var
Nə biləydim yar sözündə yara var,
Yardan bizə yara gəldi, sultanım...

Ömür yolu-zaman içi vargəldi,
Vara, vara dünya bizə dar gəldi.
Arzuların baharına qar gəldi,
"Bizim ki də qara gəldi", sultanım.

Qəbir yeri yaradırsa, yara ver,
Ürək sudur-dincəlməyə ara ver.
Çarə səndə, çar-naçara çarə ver
Ölüm bizə çarə gəldi, sultanım...

❖

BAŞARDIM

Keçib geldim neçə-neçə ölümdən
Yaşamadım, yaşatmağı başardım.
Sözdən qeyri nə gəlirdi əlimdən
Ürəyimi boşaltmağı başardım.

O dünyadan nə verdilər götürdüm

Nəyi vardı bu dünyaya yetirdim.
Bu yollarda nə buldum, nə itirdim
Nə almışdım, nə satmağı başardım.

Batan günəş yatan baxtın qövsümü?!
Ötüb keçdi həsetlərin mövsümü.
Yelə verdim, suya çəkdim nefsimi
Arxasınca daş atmağı başardım.

Ömür keçdi govhagovda, axında.
Nə tez gördüm uzaqlığı yaxında?!
Qılınc idim, dünya adlı bu qında
Yavaş-yavaş pas atmağı başardım.

Görüşünə addım atan deyildim.
Laylasına yuxu yatan deyildim.
Mən onsuz da bu dünyadan deyildim,-
Öz-özümü aldatmağı başardım

❖

ADIM

Adım anılmaz ki, vaxt darlığında
Yazsanız, quruyar qələminiz də.
Amma fikrinizin məzarlığında
Tutun. Gərək olar son qəminizdə..

Olsun yatan baxtım sizə hədiyə
Vaxtı oyadanlar baxtı oyatmır.
Adım cərgənizdən silinib deyə
Bircə əlinizin xınası çatmır..

Vaxtı yox, özünü göstərər saat,
Vaxtı soruşdunmu özünü deyər.
Mənəm dilinizin ucundakı ad,
Bir gün dil yanılıb düzünü deyər.

Nə qalar varlıqdan yoxluğa? Bir heç,
Geriyə qayıdan sonun əvvəli...
Batı zamanında batsa da Kitej[1]
Hələ yer altından zəng səsi gəlir..

Qalacaq gələcək varisə adım,-
Qığılcım qaralan qara daşdadı.
Adımı unudan var isə, adım
Vaxta yanıq verən bir yaddaşdadı.

Məndə başa vursa ömrünü sürgün,
Adlayıb yoxluqdan varlığa keçsəm...
Allahım son versə hicrətə bir gün
Bir gün Mədinədən Məkkəyə köçsəm,

Çıxsa yollarıma Kərbəla,Kufə,

[1] Rus əfsanələrində adı tez-tez xatırlanan şəhər.Hələ də Nijeqorod quberniyasının Semyonov şəhərinin 40 km.uzaqlığındakı Vladimir kəndindəki vadini Kitejin qeyb olduğu yer kimi göstərirlər. Söylənənlərə görə şəhər Batının hücumları zamanı yer altına çəkilmişdir..İndi onun yerində böyük bir göl var.Və hərdənbir bəzi adamlar yer altına çəkilmiş bu şəhərin kilsələrindən gələn zəng səslərini eşidə bilir.

Tanrı kəlamına ilk qatılanlar.
Nə günə düşərdi bir təsadüfə
Adım çəkiləndə dik atılanlar.

Canım da adımın ögey vətəni,
Tükənən günləri bu gün, sabahda.
Mənəm içinizdə suçunuz . Məni,
Unutmaq da çətin, xatırlamaq da…

❖

VACİBDİRMİ

İnsanların içinde
Adice bir insanam
Azacıq zehmetim var,
Bir az da şairliyim.
İstemirem başımı
Qoltuq altda girleyim.
Bir dünyayam,
Pozulubdur bu dünyanın
İqtisadi xeritesi.
Medem vardı bir vaxt daşı eridesi.
Ötüb keçen savaşlardan xatiretek
İndi dava gedir orda.
Üreyim de bir gözele müstemleke
Günahlarım mene leke.
Bir balaca ölkeyem
Bir az mehkumluğum var,
Bir az da hakimliyim.
Meger çoxmu vacibdir
Neçiliyim, kimliyim...
❖

EYFEL QÜLLƏSİ

Eyfel qülləsimi zirvəsi vaxtın
Bir vaxt ki, bir əsir ondan uzaqsan.
Ona aşağıdan yuxarı baxdın,

Bir də yuxarıdan aşağı baxsan.

İnsan zəkasına bəlkə də sondu,
Zirvəsi nur alar gün batımından.
Bəlkə də ikinci bir Vavilondu
İnsanın Allaha canatımından.

Beləmi olurmuş ruh yüksəlməsi
Eh, bu da ağlıma gələn bir hisdi...
Parisdə gizlidi varis kəlməsi
Paris, varisdi..

Ona fransızın gözüylə baxsan
Dalanı, döngəsi dönər misala...
Eyfel qülləsinə çıxma ki, çıxsan
Paris ayağının altında qalar..

Bir gəzən istəyir gəzə min kərə,
Ömrün qürubunda bu nə görüşdü.
Mən elə istərdim gəncliyim görə,
Fürsət, qocalığın əlinə dişdü...

Çağlayan çağlarım çatdımı sona,
Ruhumu yenidən heç nə oyatmaz.
Fikrimi yolundan eyləməz Sena
Həvəsim Eyfelin başına çatmaz.

İstəsəm, dilim də gəlməz pisləyəm
Təbir caizmidi? Təbir caizdi...
Ömrün yönü qışa...Mən Parisdəyəm
Yolda xəzəllərin rəngi payızdı...
❖

BOĞAZ

Zəmanənin əndən çəkdiyi az olmadı,
Amma boğaz olmadı
bir kimsənin önündə.
Baxtı kimi qapqara saçları vardı bir vaxt,
Tökülәni töküldü,
Çallayanı çalladı.
Özü yetirdiyini qarşısında görəndə,
Tanrı da cığalladı...
Bəxtinə,yığvalına
bir kimsənin ağlına belə gətirmədiyi
qəfil bir qəza düşdü.
Hayandan qaçırdısa
gəlib oraya,
İki araya-
dar bir boğaza düşdü.

Bu boğazın toruna qızıl bir balıq kimi
Günəş də batıb çıxar.
Axşam batdığı yeri səhər alladıb çıxar.
Görüşlə ayrılığın tamını dadıb çıxar...

Ganadlansa bu suyun altında balıqları,
Bu suyun aynasında martıları uçsalar.
Və səndən soruşlar hər cür xırdalıqları,
Hər cür ucalıqları və səndən soruşsalar...

...İki dəniz arası bir boğaza düşmələr,
Bir yandan ayrılmalar, bir yandan görüşmələr...
Ayrılığın göz dağı;-
Ağzına su dolalı,
Yaranışdan dünyanın açıq qalan dodağı...

Xəyalın
əl çatıb, ün yetməyən sonsuz üfüqlərində
Yolçu yolda,yol açıq;
Boğazdı ana bətni, ölüm də bir boğazdı,
Çıxa bilirsənsə çıx,
Olum ölüm arası yolun da bir boğazdı...

Ümidi bozbulanlıq sulara yansıyan nur.
Sən ey bizi var edən,-
Dənizləri boğazdan keçməyə vadar edən
Gözləriyin ucuyla bizə də bax nə olur...

Günlərini sayınca ayrılıq gəmiləri,
Gözdən çıxanlarının dalınca baxa-baxa
qəlbi daş olmalısan.
Boğaz boydan ucadır,
İki dünya arası açılan bir bacadır,-
Düşdünmü, əzəl-axır
ya bir yana çıxmalı,
ya çıxdaş olmalısan.

❖

İLAN

Q*ədərin naxışıdı*
Sənin işin dürüsdü.
İlan, hansı yaxşıdı
Yerin altı, ya üstü?

Her gün yer altı qından
Ayrılıb çxmaq necə?
Özün öz qabığınan
Sıyrılıb çıxmaq necə?

Ölümün bir parçası
Ağzında zəhər dişin.
Yoxluq varlıq arası
Hardandı bu gərdişin?

İki arada qaldın
Burnunda qan qoxusu.
İlk dəfə kimi çaldın
Saldın ilan qorxusu?

Sürünüb yastı-yastı
Taleyini çəkirdin.
Yuvanı sumu basdı
Gəlib yuxuma girdin?

Mən də, lənət şeytana
Şirin dilə inandım.
Dünya boyda yalana
Bilə-bilə inandım.

Dişinin altındadı
Ölümün məmləkəti.
Ömrümün qaçıb dadı
Mənə bir zəhər gətir.

Gədərimin qışıdı
Çal məni isti-isti.
Görüm hansı yaxşıdı
Yerin altı, ya üstü?

❖

UĞUR GÖZLƏYİRSƏN...

***U**gözləyirsən, səbir nəhs gəlir,*
Sən avand gedirsən, işin tərs gəlir.

Yol özü qıvrıla-qıvrıla gedir,
Su özü burula-burula gedir.

Çevrədə nə qədər dərə var, dik var,
Dünyanın özündə bir əyilik var.

Biz necə düz deyək bu yola, izə,
Düz yolu düz ilan əyri gedirsə...
❖

EY GÖYƏRÇİN

***E**y göyərçin nə gəzirsən*
pəncərəmin önündə?
Burda qərib quş kimiyəm
mən də sənin günündə.
Dən gəzirsən,
yoxsa, elə gətirmisən dən mənə.

Gəldin, sevgi məktubunu
xatırlatdın sən mənə.
Hayandasa bir sinəni
yarıb çıxan ürəksən.
Ya taleyin qismətinə
uçub gələn mələksən?
Susdurulmaz, söndürülməz,
yatırılmaz duyğusan.
Ya vətənin bir parçası, ya
anamın ruhusan.
Ey göyərçin, nədən belə
narahatsan, narahat?
Nə bilirsən bir alıcı
quş kimidir bu həyat?

❖

UCA BİNALARIN ƏHATƏSİNDƏ...

U*ca binaların əhatəsində*
Darıxar,
karıxar,
yeri dar məscid.
Qulağı göylərin imdad səsində
Leylək boğazını uzadar məscid.

Ömrü uzun imiş sirli yalanın
Allaha inam da o sirdən gəlir.
Elə bil minbərdə ötən mollanın
Səsi səkkizinci əsirdən gəlir...

Gör nəyə bənzəyir o minarələr,
Batmış gəmilərin dor ağacına.
Molla da minbərə çıxıb hər səhər
Səsindən çəkilr dar ağacına.

Fikri də dəyişib ürəyi kimi
Sözü söhbəti də dilində qalıb.
Bulud da Allahın ətəyi kim
Cırılıb mollanın əlində qalıb...

❖

SINAQ

T*anrının yaddaşından-*
Dünyanın o başından
Ana bətni tunelin
Qaynar qaranlığından
Gəlib qürbətə düşmək.
Səni geyən bədənlə
Aynadan sənə baxan sənli və sənsiz sənlə
Kölgən ilə görüşmək!
Qəlbdə-
Ömür adlı qəlibdə
Havasına, suyuna,
Hələ alışmadığın bir dünyada yaşamaq,-
Və... sonra ömrün boyu nişanın itər deyə
Köbəyində ananın
Və gəldiyin dünyanın möhürünü daşımaq,-
Sınaq!

Olum-ölüm-
bir düşün
Bir ömür yol uzanır
Tire aralığında
Bu iki zidd görüşün.
Keçdiyin yollar boyu hərdən izin yoxdusa
Düşmən baxışlarıyla boylanma ayağına.
Xoş günündə özün gəldin, dar günündə
Allah aldı qucağına...
Bələdçin,yol yoldaşın
Tanrıdan və anandan qalan elborcu sevgi.
Ürəyinin içindədi, ürəyindən yaxındı,
Uzaq,uzaq ulduzlardan
biri kimi uzaqdı
Sev ki,
Sevmək-yenidən doğulmaqdı...
Çətini gözlərinə baxmaq, əllərinə toxunmaqdı,
Əllərinə toxundun,
gözlərinə baxdın,
İçindəki şeytanı azadlığa buraxdın!
Gözlərinə baxmaq, əllərinə toxunmaq,-
Sınaq!
Və ömür...
Sınaqdı,-
İki daşın arasında qoymaq keçmişini
İlan kimi qabığını soyunmaq
Öncə dəyişmək,

sonra çəkdirə bilmək
ağrıyan dişini,
Sınaq!

Gözünlə günəşi içinə təpmək
Havayı havayla
Yer şarına döndərmək ciyərlərini,
Ölümü bilə-bilə
bilməmək ölümün vaxtını və yerini
ölmək,
yaddaşını silmək,
və hər şeyi unutmaq...
Getdiyin həyat yolu deyil, ölüm yoludu
Axtarıb tapacağın-ölümdü.
Bu dünya itkilərdi, ha küsək, hayıfsınaq.
Yaşamaq sınaqdı,
ölüm ondan da
sınaq!

❖

ATA ŞƏKLİ

***D**emiryol vağzalı...Qatar ayağı*
Arada sükuta sepelenen qar.
Arxada arxasız cavanlıq çağı
Hardan biləsiydi öndə nələr var...

Ayrılıq...Üreyi sıxılan vaxtmış
Üfüqdə bir qanı qaralan axşam...
Atam yanımdaymış, baxtım oyaqmış.
Baxtım oyaqmış da, mən yatırmışam.

Bu soyuq sətirlər bir şey deyirmi
Səsi sonra çıxdı yağan qarın da...
Bir ana düşünün yaşı iyirmi,
Bir oğul, çox olsa yaşyarımında.

Bəndə görməyəni tale görürmüş,

Arxada nə olub, öndə nələr var.
Buxar nəfəsiylə köğüs ötürürmüş
Bizi ayırmağa tələsən qatar..

Havada donurmuş sözə ehtiyaç
Ata kəlmələri qırıq-qırıqdır:
-Gözümün işığı, gözlərini aç
Bəlkə bu ayrılıq son ayrılıqdır.

Nədir iliyimə işləyən soyuq,-
Ürəyə dammanın başa gəlməsi.
Sübuta-filana ehtiyacı yox,
Hazırca sübutdur "ata" kəliməsi...

Gün ötür, ay geçir, il qalaqlanır,
Gəmirir ömrümü vaxt xımır-xımır..
Gözümü yumarım baxdım bağlanır,
Açıram, onsuz da baxdım açılmır.

Ömrümə yoldaşdır bir ata adı,
Uşaq yaddaşımın qanı soyuqdur...
Xatirə adına bir şey qalmadı
Baxıp ağlamağa şəkli də yoxdur...

...Aradan çıxmağa çalışır zaman,
Havada burgusu burular qarın...
Can candan ayrılır...Bu ayrılıqdan
Tüstüsü başından çıxır qatarın...

Əlində Yusifin kəsik kəndiri
Nəsə düşünürdü vaxt əsə-əsə:
Geri dönəcəkdi yolların biri,
Biri gedəcəkdi gedərgəlməzə.

Baxıb görməyənin xoş o halına
Çəkilməz dərdləri çəkirdi qatar:
Gün çoxdan enmişdi dağlar dalına
Ay sevinirdi ki, göydə bulut var.

O qatar gedirdi dərt çəkə- çəkə
Yatan körpənin də yxusu qardı..
Açsaydı kor olmuş gözünü, bəlkə
İçində bir ata şəkli qalardı...

❖

MƏNZİL BAŞINDA

Qırxıncı illərin qədəmi ağır...
Yerə çınqı düşdü...
Bir dilim alov
Ayları, illəri böldü yarıya.
Savaş gülbitirməz,
çiçək yetirməz,
Sərhəd zolağıtək düşdü araya.

Qara-qorxu doğdu hamilə dünya,
Südəcər pöhrələr yandı, bürüşdü...
Cərgəyə sonuncu gedən əsgərin
Boyu da dörd barmaq aşağı düşdü.

Buradan günəş doğar, ordan ay batar,
Yaxşı ki, zamanın vaxtın sonu yox.
Beləcə sabaha şütüyər qatar,
Amma ki, arada dörd vaqonu yox.

Fit verər...
Zamanın səsəi ucalar,
Gələcək səhərlər çıxar qarşına.
Dörd vaqon qatardan ayrılıb qalar,
Dörd nəsil yetişməz mənzil başına.

Körpə sinəsini verib qabağa
Arxadan həvəslə gələn nəsillər
Qalan vaqonları çəkib sabaha
Uzaq gələcəyə aparmaq istər.

Hardasa axına qoşular axın
Böyüyər səngərdə sıxılan illər.
Çəkər növbəsini neçə dəzgahın
Soyuq dəstəyindən yapışan əllər...

Oyandı dörd ili susan həvəslər
Yenidən çağladı damarda qanlar.
Doldu beşiklərə ilahi səslər,
Heyif, döyüşlərdə qalan cavanlar...

Qırxıncı illərin "yarpaq tökümü"
Hani ağsaqqallar yetmiş yaşında?..

www.kitabxana.net - Milli Virtual Kitabxana

Nənələr oturub yol gözləməzlər,
Nəvə-nəticəni əzizləməzlər,
Qocalar görünməz doqqaz başında...
❖

QƏM YEMƏ, QALDISA
SON ÜMİD YERİ...

***B**aşını qatanda qürbət çağları,*
Gedib son mənzildə unutma ilki..
Susuz çay olmaz ki çay yataqları
Sevgisiz bir ömür ömür deyil ki?!

Vaxt üzə dayanıb baxt unutmasa
Sevən sevdiyini unuda bilər?
Səni bir kimsənin gözü tutmasa
Səni bu dünyada nə tuta bilər?..

Qəm yemə, qaldısa son ümid yeri
Qürbətə qarını töksə də yanvar.
Bilsən ki hardasa sevdiyin biri
Və səni hardasa hələ sevən var...
❖

GEDƏRSƏN, MƏCHULA
YOL GEDƏR GEDƏN

Gedərsən, məchula yol gedər gedən,
Qürbət, bir açılmaz sirdən başlıyar.
Burnunun ucunu göynədən vətən
Yadından çıxdığı yerdən başlıyar.

Gedərsən, vətənin qalar vətəndə,
İçinin içində köz vətən olar.
Dərdinə, sərinə vətənsən sən də,
Qürbətdə sənə də söz vətən olar.

Özü heç, sözünü unutma, vətən,
Hələlik könlünün bir yerinə yaz:
Onu sənin kimi atıb tərk edən,
Səni onun kimi sevən tapılmaz...
❖

NƏ YAXŞI Kİ VƏTƏN VAR
YADDAN ÇIXDIĞIN YERDƏ

Gah daşdan, gah divardan
süzülüb hərdən-hərdən
Göz yaşına göz açan yanıq bəstələr də var.
Acı xatirələrdən başı yastığa düşüb
Ölümünə baş qoyub yatan xəstələr də var.
Bir otağın küncündə
Bağrı yanıq bir gündə başı kəsilən ömrün
su kimi lillənmədə
Pəncərə pərdəsində nəfəsin yelənmədə...
Salam, Məmməd İsamayıl, salam yetim qardaşım
Yaman qarışdı başım. Bağışla harda öldün,
Harda qaldın bilmədim.
Hanı bizi ayıran talə-o əl, o qayçı,
Candan can ayrılarmış, can kimdi, bədən kimdi?
Harda bizi ayırdı qəfil yollar ayrıcı,
Kimdi vətəndə qalan, qürbətə gedən kimdi?
Tutmağa ümid yeri gəzmə-əl var, ətək yox,
Nə irəli, nə geri- keçmiş var, gələcək yox.
Bilirəm sevmədilər sevdiyin qızlar səni
Dağlanmış sinəsində tütəklər sızlar səni...
İçində Nuh Nəbidən qalma beş-on xatirə
Üç-beş yaralı misra, vəya söz qırıntısı,
Kim ala, kim götürə?..
Boynuna götürərmi görən bu suçu qürbət,
Qürbət hara, sən hara qələmin ucu-qürbət...
Mən qeyrətə sığındım, sənsə uzaq qürbətə..
Gəlmədim səni dağadan dağa salan qədərin,
kədərin arxasınca
Ölüm ayaq basınca...
Kiriyirmi köksünün altında qış yarası
Hələ işin harası,
Alası, aparası qəzavü-qədər səni.
Bir vaxt səni sevənlər saldı dərbədər səni.

Qürbət- hörümçək toru!
Sığındığın dörd divar hər gün andırar goru
İçində həsrət qoru
Qoruya bildiyincə vətən hissini qoru!
Vətən- zaman içində yolunu azmış diyar,
Talesiz taleyini şeytanlar yazmış diyar
Uzaq xatirəsiylə yaşamaq keçmişləri,
Bu solaxay işlərin, solaxay gedişləri...
Durumuyla zamanın gözlərindən yaş salan,

Vətən qürbət arası qədəri çaşbaş salan,
Sən ey doğma vətənin ögey evladı, Məmməd
Ağzı yanmış dünyanın ağzının dadı Məmməd.
Bilə-bilə hər şeyin həsrətdə itdiyini
Bəs nədən tora düşdün?
Hayandan qovdularsa fırlanıb ora düşdün
Nə sevər sevdiklərin, nə nifrət etdiklərin..
İzini azdırmada ardınca getdiklərin..
Dərd ortağın ölübmü, hanı suç ortaqları?
Nə özünü özləyən bir gözəl tapılacaq,
Nə sözünü gözləyən oxucu dodaqları..
Aparan aparırısa, getməyən necə getməz,
Nə arvad, nə uşaqlar, nə ananın məzarı
Qürbətdən keçməzsən-
Gücün özünə yətməz..
İt kimi etibarsız vaxtın zatı qırıqdı,
Qürbət də qürbət deyil, bir dəli hayqırıqdı...
Hər yalançı umudun zaman imiş bir udum
Ağ saqqalın, ağ saçın- zamana ehtiyacın
Zaman qoca bir kədər çəkə bildiyin qədər
Misraların zamandan qoparılan parçalar,
Könülləri parçalar.
Harda qılınca gəldin, bir yana varamadın,
Sözün dalınca gəldin, alıb aparamadın..
Qurd kimi quduzlaşar dərd acıxdığı yerdə,
Nə yaxşı ki vətən var yaddan çıxdığın yerdə.
İçimizdə öldürüb biz sənə ağı dedik
Zaman yazın üzünə payızı həsrət çəkər.
Çəkər, ilanı qurşun, şairi qürbət çəkər,
Ölən duyğularına Məkkə torpağı dedik...
Yetməzmi dərd çəkdiyin həyat tərəzisində,
Nə gecəyə ilişdin, nə də sabaha çıxdın.
Vətən –qürbət arası bu ölüm gəzisində
İki arada qalıb hayanda yoxa çıxdın?..
İtik itiyi tapmaz, itirən boyun bükər,
Dama-dama göl olar damlalı qətrələrdən
Evladların don tikər
Səndən onlara qalan
yalan xatirələrdən...
Yadı gör, yaxın dözər, burda baxım, görüm yox,
Bu baxt, yığval mənimsə eyninə almaz səni.
Mənim Tanrıdan qeyri sığınacaq yerim yox,
Tanrı salmasa kimsə yadına salmaz səni...

❖

ADI BATMIŞ

B*ir az payızın sonu,*
Və...sonra bütün qışı.
Ürəyimə toxunur,
Bir ananın qarğışı..

Bu dərdlərin, bu da sən,
Bu da dona qalan qış:
-Niyə cavab vermirsən,
Ayə, ay adı batmış...

Anam, zaman qarıymış,
Qulaqlara qurğuşun.
İki başı varıymış
Bəlkə də bir qarğışın...

Sürüdüm dizin-dizin,
Sonra qanad çıxardım.
Mən çətənə cevizin
İçindən ad çıxardım...

Yer qürbət, mən didərgin,
Qırılan qanadımnan.
Elə batdı ki, bir gün,
Adım çıxdı yadımdan.

Kimə çatar gileyim,-
Əmanətimi qaytar.
Kimim var, kimə deyim
Batan adımı qaytar.

Hanı yadın, yaxının,
Varmı səni duyan səs?
Ya balıqqulağının
İçində uyuyan səs.

Dənizmi olub bu yer,
Əmanətimi səndə?
Səndən istəyirəm, ver,
Batan adımı səndən...
❖

O DƏRDİNİ AÇMAZ SİZƏ

***O**, dərdini açmaz sizə,*
Özünədi hər sualı.
Göy sulara dalıb kimsə,
O da burda fikrə dalıb.

Dalğalara axşam çökər,
Şəfəqlərdən qızıldı sı.
Yaddaşından misra sökər
Dodağının mızıltısı...

Əriməz saçındakı qar,
Yaz gəlsə də gendən keçər..
Əlinə keçməyən nə var,
Gəlib ürəyindən keçər...

Təzə sovuşmuşdu yayı,
Hardan çıxdı bu qocalıq.
Sinəsində parpılayır,
Fikrində tutduğu balıq..

Bir vaxt özünü çəkərdi,
İndi də özü çəkilir.
Azalır gözünün nuru,
Dünyadan gözü çəkilir.

Halı buludlardan betər
O buludlar, buludlar
Özləri kövrəlməsə də
Onu ağlatmağa yetər...

Boşanmağa ümid varmı,
Kədərə kəbin olanda.
Vətəndə dost tapılarmı
Qürbət zərrəbin olanda..

Gördüyü yerlər yad olar,
Nə yapışır, nə əl çəkir.
Vətən yolu abad olar,-
On ildi gözü yol çəkir...

Uzak yolların canına
Piyada düşməyə gedir.
Vətənə getmir, gedəndə
O, yada düşməyə gedir..
❖

QƏM DÖYƏN QAPILAR

***A**na bətni, ya məzar*
Həyatın sərhədləri
Çəkdiyimiz musibət
bir udum hava üçün.

Qalmağa yer gəzirdi
bu dünyanın dərdləri,
Ağaçlar ucalırdı
quşlara yuva üçün...

Gəlib məndə kəsişir
kəsişməyən sərhədlər,
Yer altı da mən idim,
yer üzü də mən oldum.
Gəldim...qarışqa kimi
canıma doldu dərdlər,
Qəm döyən qapıların
birisi də mən oldum...

❖

ONA NƏ AD YARAŞIR

O, *kimdi,və sairə*
Atəşi tükənən muğ :
Çəkdiyin bir dairə,
Və...içindəki boşluq

Dənizə çatmayan çay,
Heykələ dönməyən gil.
Buluddan doğmayan Ay,
Və... Neqatifdəki şəkil .

Ağrılı bir millətin
Yanlış çəkilən dişi.
Yurd dərdini qürbətin
Canına çəkən kişi.

Ya inkar et, ya bəyən
O hədər,bu da hədər.
Özü gedə bilməyən
Yerlərə sözü gedər.

Günə əyilən başı
Boynu bükük bir ümid.
Ona nə ad yaraşır,
Nə ad dedin?
-Tərəddüt.
Dünya ona dört divar,
Qürbət üzünə pərdə.
Nə olduğu yerdə var,
Nə olmadığı yerdə.
❖

İLAHİ BİR ZİDDİYƏT

*...**Y**aşadıb ilahi bir ziddiyəti*
Bir boğaz yaranır iki axından.
Sular axışından usanmaz qəti,
Sahil də bir yerdə dayanmağından.

Tutub ətəyindən "Allah kərim"in

Payız meşəsində qış həyəcanı.
Orda öldürülən ümidlərimin
Hər axşam sulara tökülür qanı.

Gah qürub yerini, gah dan yerini
Öpər gözəlliyin Tanrısı bir şam.
Yığıb ləpələrdən şəfəqlərini
Dağların ardına enər hər axşam...

Niyyətin ölümdən başqa adı yox,
Qəm çəkər qəlbinə daman yolları.
Axtarma, dünyanın qum saatı yox,
Geriyə işləməz zaman yolları...

(Qurbətdə işıq da könülsüz yanır,
Qurbətdə gec yanır, tez əriyir şam.
Qəribin gözünə tez batır günəş,
Qürbətdə həvəsdən tez düşür ahşam.)

Sular ayrılığa qoşan axındı,
Dərdini çəkmədə dərə diklərin.
Bəlkə itirdiyin qazandığındı,
Bəlkə qazandığın itirdiklərin?

Gizlidi çağlayan sularda sirrin,
Başı keçmişinə bağlanan susan.
Sonu yox dördəlli tutduğu yerin,
Unutduğu yerin oğludur insan!

Dəyib qayıtmağa yer gezir sesin
Sözünü dağlara deyib qayıdır.
Hərdən ölə-ölə ölüm həvəsin,
Gedib o dünyaya dəyib qayıdır..

Hələ yol uzaqdı edam yerinə,
Qarşıda çiləli gor var, kəfin var.
Hələ qoyulursan adam yerinə
Hələ yaşanası bir görəvin var.

Vaxtın astarına çevrildi dost da
Yara yox, yaranın yeri göynədir.
Qoca Aristotel mənə Asosda
On ildi ayrılıq dərsi öyrədir.

Hər yolun sonunda bir ayrılıq var,-
Mən də qızlarıma verdim bu dərsi.
Boğazda sular da ters-avand axar,
Onsuz da ölümdü olumun tərsi...

www.kitabxana.net - Milli Virtual Kitabxana

Gündüz-astarına çevrilən gecə
Həyatda boş qalan yeri görünmək,
Girib yaddaşlarda yaşamaq necə
Həsrət sularında sirri görünmek...

www.kitabxana.net - Milli Virtual Kitabxana

Bu sular boğazdan axıb,axacaq,
Axıb xəbər verir su ayrılıqdan.
Bəlkə də qızlarım karlı çıxacaq,
Ölüm ətri gələn bu ayrılıqdan!

Gün batar, sulara çəkər kölgəmi
Heyat bir oyunmuş, rəqib aparır.
Mənim həsrətimə yüklənən gəmi
Canını bir təhər çəkib aparır...

Mən də ki,yolçuyam gedərgələməzə,
Uçan bir qayadan nə qalar dağa?
Ya elə köhnəyəm,ya elə təzə,
Əcəl məzar gəzər məni satmağa.

❖

O DA GETDİ

Y.Kuznetsovun xatirəsinə

...**O** *da getdi bu dünyadan*

Hər şeyini atıb getdi.
Bilsəydi heç buraxmazdı
Dünyanı aldadıb getdi

Tənbəlliyini düzlərə,
Göz nurunu gündüzlərə
Günahlarını bizlərə
Satıb getdi...

...Nə biləydin nəyi duydu,
Haqqın yerdə zühuruydu..
Kim bilir bəlkə də suydu
bəlkə də buluddu getdi.

"Ömürlər yaman qısadı",
Sözünü undub getdi.
Tutmağa bir yeri yoxdu,
Ürəyini tutub getdi...

❖

GÖZDƏN ÇIXARILAN...

Dönüb mayasına qəpik, quruşun,
Dəyərə minəndə sürtülmüş dəmir.
Gülləyə çevrilmək istəmir qurşun,
Ağac, dar ağacı olmaq istəmir.

Adəmdən, Havvadan qalan mirasdan,
Payımıza düşən beş qarış qəbir,
Bəlkə də kim bilir bu etirazdan
Lülə güllәsini geriyə təpir.

Bu dünya Tanrının sirr məktəbidi
Səs çıxmaz dilinə düşən düyündən.
Bəlkə göbək bağı edam ipidi,
Asılıb dünyaya gəldiyin gündən.

Xoşunamı seçir qürbəti qərib,
Boşunamı yağır Allahın qarı;
Baxtına bağlanan bir görünməz ip,
Səni arxasınca çəkib aparır..

Zamanla yarışda hər damla bir an,
İstək mənzilinə gedib çatır su;
Quru bir ağacın keçib canından,
Yaşıl bir yarpağa dönəndə arzu..

Nədən dodaqlarda soyuyur adın
Köhnəlik əlini çəkir sənə də ,
Nədən dəyərini dəyişmir altın,
Bir şeylər yanlışdı bu ənənədə...

Qocalıq yaşanmaz uzaq, yad ölkə,
Quruyub qaxaca dönən bədəndi.
Ömrün uşaqlığı vətəndi bəlkə,
Sonra əlimizdən çıxan vətəndi...

Kim idin?
Sən kimi xatırladırdın,
Hər kəsin axırı bir quru addı.
Əvvəl tikan olub gözə batırdın,
Sonra vətən səni gözdən çıxartdı...

❖

İNSAN...

*...**İ** nsanmı dedin? İnsan*
ruhun yerdə izidir.
Zamanın qapısında
Ömür dilənçisidir.
Biləndəki yarayır
Dünya kirakeşliyə,
"Ey dili qafil" deyib
Dodağını dişliyər.
Zamanın qapısını
Çırpıb çıxar heçliyə...

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

BOĞAZDAN KEÇƏN GƏMİLƏR...

Kim sənin bəxtini gürbətə yazdı,
Vətənmi istədi, vaxtmı dışlayır?
Düşdüyün çıxılmaz bir dar boğazdı,
Bir az o tərəfdən dəniz başlayır...

Suların axarı əymiş sahili,
Bir dəfə əyilən bir də düzəlməz.
Qürbətə səpilən ömrün on ili,
Vətən istəsə də gəriyə gəlməz...

Dünyaya qarışdın dünyayala birsən,
Kim səni yurdundan saldı dərbədər?
O gözəgörünməz kimdi deyirsən,
Qədərmi dəyirsən, bəlkə də qədər...

Çıxsan, çıxammazsan cazibəsindən,
Qədərin saldığı görünməz iz var...
Gecə martıların qərib səsindən
Bilərsən hardasa çay var, dəniz var..

Vətən də eləcə xəyaldı burda,
Nə ad verəcəksən bu seçkinliyə?
Və canından artıq sevdiyin yurda
Ayağın dəymirsə üç-beş günlüyə...

Doğmamı, ögəymi Eğəylə Xəzər,
Varmı bir cavabın bu suala su?
Yelinə uçmağa kölgəni gəzər,
Üfüqlər ardında qartal balası.

Fikrinin ucunda o ev, o daxama,
Sonu görünməyən bir sitəm ilə.
Hər gün boğazına tıxanan loxma

Və hər gün boğazdan keçən gəmilər..

❖

QILINCA BAXA-BAXA

A*tın belində yara,*
dəvənin belində fır
Köhnə bir yarğan dibi
təzə bir məzar yeri.
Cənazə çiyinlərdə
gəzdiyi yeri tapır,
Dünyanın qar yeridir
dünyanın bahar yeri...

Canınla çox öyünmə
cansızın da canı var,
Dərə dərinliyində
duyarsan uçurumu.
Qışa quruyub qalan,
yaza dil açanı var
Kölgəsindən bəllidir
ağacların durumu.

Bir gün ölməyə nə var,
olmaq işin çətini.

Yola çıxanlar bilir
yolçulq nə deməkdir.
Arzu hüzün qaynağı,
əzabdı ana bətni,
Dünya hər şeyi bilib
heç nəyi bilməməkdir...

www.kitabxana.net - Milli Virtual Kitabxana

Misralara çevrilib
içimdən çıxan qiyam
Unutdura da bilər,
xatırlada da məni...
Nömrələri dəyişən
bir vizit kağızıyam
Saxlaya da bilərsən,
cırıb ata da məni.

İzini azdırdımı
yolunu tutduqların,
Quşu uçdu göylərə,
suyu torpağa gedir.
Nə səni tanıyanlar,
nə sən unutduqların,
Vətəndən çıxış yolu
unudulmağa gedir..

Nə ağac altı kölgə,
nə yarpaq üstü işıq..
Yarı-yoldaşı görmək-
dalınca baxa-baxa...
Və məndən keçən vətən-
baxtı qatma-qarışıq,
Kəsilən başı görmək-
qılınca baxa-baxa...

❖

ADAŞIM,
BU TARİX TƏKRAR OLUNDU

Şair Məhəmməd Hadi'yə

A*daşım, bu tarix təkrar olundu*
Hər şeyi deyəcək bu başlıq elə.
Mən də sənin kimi inkar olundum,
Adaşım, gəl mənə yoldaşlıq elə.

İnsanın torpaqda inadı yoldu,

Bir əli yetsə də bir əli yetməz.
Mənim də niyətim ayaq-baş oldu,
Başım ayağımdan irəli getməz.

Dönər misralara alın tərləri
İlhamı olanın qisməti yoxdu.
Çıxar bazarlara ağ dəftərləri,
Yazılan kağızın qiyməti yoxdu.

Quran ayəsidir qədər qisməti
Südü uyudurlar üyüşmək üçün.
Əsrin əvvəlində itən Məmmədi
Əsrın sonlarına dəyişmək üçün.

Bu çarxı fələyə təkər deyərlər,
Səndə itənləri mən də bul, indi.
Gəl, itik itiği tapar deyərlər
Mən itdim, yerimə sən tapıl indi.

❖

UNUDULANLARIN ŞAİRİ

T*stüsü kənara çıxmaz hər odun*
Haqqı bulanların şairiyəm mən.
Bacara bilirsiz məni unudun
Unudulanların şairiyəm mən!

❖

QIRXINCI QAPIYAM SİRRİM BİLİNMƏZ

Q*ırxıncı qapıyam sirrim bilinməz,*
Bir sir ki, nə ahşam, nə sabah bilər.
Mən elə yerdəyəm, yerim bilinməz,
Yerdəyəm,göydəyəm,bir Allah bilər.

www.kitabxana.net - Milli Virtual Kitabxana

Ömür-yaşanası həftələr, aylar,
Ölüm-duyulası son xəbər olur.
İtirir adını dənizdə çaylar
Xəzərə çatdımı Kür, Xəzər olur.

Mən ki,gözləmədim gözə girməni,
Bir gün gözdən çıxar gözə girənlər.
Mən sənə qıymaram, sən itir məni,
İtir, əziz olur itirilənlər....

Gəldiyin kimi də getmək gözəldi
Bədəndən sıyrılıb ruh oılmaq gözəl.
Dənizə qarışıb itmək gözəldi,
Tanrıya qovuşub yox olmaq gözəl.

❖

BƏTƏNİN BÜTÜN YOLLARI

AXIRDA QÜRBƏTƏ ÇIXDI

www.kitabxana.net - Milli Virtual Kitabxana

UZUN BİR CÜMLƏDİR VƏTƏN TORPAĞI

H*aqqın arxasınca günəş izində,*
Günəylə, quzeyin Türk vadisində
Uzun bir cümlədi vətən torpağı!
Batıdan doğuya yolu upuzun,
Ortada vergüldü Xəzər dənizi
İtildi, Firaddı qol-budaqları
Önündə mübtəda Ege suları
Sonunda nidadı Tanrı dağları
Oxunsa təpiyər dili sonsuzun.
Bir kimsə oxuyub başa çıxamaz,-
Uzun bir cümlədi Vətən torpağı
Uzundu,dünyanın ömründən uzun!

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

ŞAİRLƏRİ SUSMAYAN
BİR VƏTƏN BASILMAYIB

Canında can qalmadı
varmı candan yananın?
Bir bayatı halın var
viranə bağlar kimi.
Daraşıblar canına
ölüb getmiş ananın
Döşünü sortuxlayan
qansız uşaqlar kimi.

Hara getsəm dərdin də
arxamca gedər mənim,
Bir qulam ölənəcən
bu dərdi daşımağa.
Səni xilas etməyə
nə gücüm yetər mənim,
Nə səndə arsız-arsız
tab edib yaşamağa.

Şairləri susmayan
bir vətən basılmayıb,
Qəlbimdə can yerinə
buna ümid bəslədim.
Yolunda şəhit olmaq
bahtıma yazılmayıb,
Bayrağına bükülüp
dəfn olunmaq həsrətim...

II

Hansı qayasından qopub gəldi,
Axıb gəldi hansı bulağından,
Hansı sözündən çıxıb gəldi,
Hansı məzar torpağına gayıdacaq
Qurbət eldə qardaş kimi
Qulluğunda durduğum bədən?
Gözə-işıq,
Dodağa-söz,
Qulağa-səs,
Ürəyə-qan,
Köksə nəfəs kimi çatışmır mənə,
Çatışmır Vətən!

III

Burası gurbət diyarı
Hər şey ölçülü-biçili.
Burda nə şərab içilir,
Nə bir gənirsiz gözəlin
Yolunda candan keçilir.
Sabah yolum vətən sarı
Yağmuru, çamuru, qarı,
Seli olmağa gedirəm.
Adam olmaqdan usandım
Dəli olmaya gədirəm.

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

BİLMƏZDİM BİR YAĞLI TİKƏSƏN, VƏTƏN

Bilməzdim bir yağlı tikəsən, vətən,
Azala-azala gəlirsən dada.
Quzu dərisinə bənzər xəritən,
Quruya-quruya qalıb ortada.

Qatlasan qatlanar, dartsan uzanmaz,
Rus barmaq uzadır, fars əl çəkəndə.
Bir yanın dəmavənd, bir yanın Qafqaz,
Ah, nələr çəkmədin bu yel çəkəndə!

Səni unutmadı düşmənlər bir an,
Tamah sancıları tutur, buraxır.
Kabab iyisinə oyanıb İran,
Rusya da Pyotrun gözüylə baxır.

Gələn əsirlərin səssiz fəryadı,
Hopur varlığıma torpaqdan, sudan,
Qanıxmış iştahı diş altındadır,
Bir it də arabir hürür qonşudan.

Gah ayı payısan, gah aslan payı,
Götürmək istəyir səni ortadan:
Aslan dərisinə bürünən ayı,
Ayı dərisinə bürünən aslan.

www.kitabxana.net - Milli Virtual Kitabxana

Üstündə mələklər ocaq qalayan,
Ah sən də bir ulu yurd ola bilsən.
Doğudan batıya ruhu ulayan,
Quzu dərisində qurd ola bilsən!..

❖

SAP

***D**ilinin şüarı: nə üçün, niyə*
Onun da bir belə şakəri vardı;
Evdə deyiləni unudar deyə
İşdə barmağına sap bağlayardı…

Vardı misalımız "Qurd qocalanda.."
Hərdən özünə də çək bu misalı.
İnsanın ağlını almır, alanda
Allah yaddaşını əlindən alır…

Sehir yuvasıymış, nəymiş bu bədən
Sirr yatır içində hələ nə qədər.

Sözlər də yadından çıxarmış hərdən
Könlündən dilinə gələnə qədər…

Yadından çıxanı salmaqmı yada
Fikrindən keçəni yazmaqmı çətin?
Ormanda yolunu çaşmaqmı, ya da
Özün öz içində azmaqmı çətin?

Unutdun nə idi sözünün ardı
Nəyin sorağıydı qaralan qanın?
Hərdən barmağına sap bağlayardın
Bəlkə də o sapa bağlıydı canın...

Verilən sualmı, alınan cavab
Gedib bir əlaqə tap arasında.
Kim bilir heç nəyin nəsiymiş o sap
Nə varmış fikirlə sap arasında.

Sirri var burnuna dəyən hər iyin
Yaxın bir təmasmı, uzaq görüşmü.
Vətənin yadından çıxıb gəldiyin
Heyif ki, vətənin yadına düşmür…

İzi yox çəməndən çəkilən çənin,
Yəqin unudulub sənin də adın?
Qürbətə düşəndə ana vətənin
Gərək "barmağına" sap bağlayaydın..

❖

VƏRDİŞ

Özgələr dəyişdi vaxt qatarını
Özün də bilmədin heyif, yerini.
Tutdular könlünün sus damarını,
Bildilər ruhunun zəyif yerini..

Qarışıb bir ana bətnində genlər
Qardaş qardaşı sevməz..
Dəyirman daşıdı deyib keçənlər
Alt daş, üst daşı sevməz...

Bir zaman yoğrulub qanla bu torpaq,
Bəlkə azadlığın mayası qandı.
Canı unutmaqdı qanı unutmaq
Qanı unudanlar unudulandı.

Unutmaq sırası sənəmi düşdü
Unutma, elə bir an gələ bilər.
Bu gün şəhidləri unutsan işdi
Sabah bulaqlardan qan gələ bilər.

Gör hansı tufanın yelinə söndün,
Gör hansı bayquşu zərdüşt elədin.
Əvvəlcə ikiyə, üçə bölündün
Sonra bölünməyə vərdiş elədin…

❖

LAÇINIM

Laçınm, Laçınım- kəsilən əlim,
Düşmən caynağında yetim gözəlim.
Yolmu var, yanına hayandan gəlim?!
Laçınım, Laçınım, yaralı quşum,
Kimin var, halını kimdən soruşum?!

Dərdindən oxuyan..."Ay Laçın" deyir.
Qalıb o yerlərdə əlacım deyir.
Bəs indi mən kimə əl açım, deyim:
Laçınım, Laçınım, yolu yoxuşum,
Kimin var, halını kimdən soruşum?!

Laçınım, Laçınım,"Kəsmə şikəstə"m,
Gah zilə ucalır, gah ötür pəsdən.
Həvəsi, nəfəsi, səsi qəfəsdə...
Laçınım, Laçınım,yaralı quşum,
Kimin var, halını kimdən soruşum?!

Ömrümüz çürüyən ömr oldu niyə,
Tanrıdan bu sayaq əmr oldu niyə?
Yolların bu sayaq yomruldu niyə?
Yolu yomrulmuşum,yaralı quşum,
Kimin var, halını kimdən soruşum?!

❖

XAN ƏSGƏR...

Bu Vətənın nəyi var azı-çoxu döyüşər,
Dağı, daşı, torpağı, varı, yoxu döyüşər.
Neçə şəhid iğidin nakam ruhu döyüşər,
Bir əskərə çevrilər burda hər məzar daşı,
Yetərki ayağa qalx, sən başla bu savaşı.

Ocağının başına çıxmağa yad gözləmə,
Dur, ayaqdan başa çıx, başdan imdad gözləmə.

www.kitabxana.net - Milli Virtual Kitabxana

Andın vətənin andı başqa bir and gözləmə,-
Adın vətən adıyla çəkilərsə yanaşı,
Bu vuruş haqq vuruşu, bu savaş haqq savaşı.

Bu insan dənizində hər insan bir adacıq,
Doğmaca yurdumuzu viran qoydu yad acıq.
Haqdı səni səsləyən haqq üçün cihada çıx,
Yürü, iğid səfinin nə arxası, nə başı,
Bu vuruş haqq vuruşu, bu savaş haqq savaşı.

Beşcə kəlmə sözüm var dayan ey cavan əsgər,
Yoluna uğur deyim, Xan Eyvazım , xan əsgər.
Boyuna göz dikmişəm, boyuna qurban əsgər
Bu hücumun sonunda ölüm var uzaq başı,
Bu vuruş haq vuruşu, bu savaş haq savaşı.

Ağzımda haqq deyirəm, bu haqq səsi sənindir,
Hələ haqqın nahaqla bəhsabəhsi sənindir,
Dünyanın ən mübarək qələbəsi sənindir,
Bu qələbə yolunda nə dayan, nə yavaşı,
Bu vuruş haq vuruşu, bu savaş haq savaşı.

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

QAN

Y*a buyruq, ya yumruq altındadır,*
Dünyanın vətən olmayan torpaqları...
Boyun üzülən yerdə boyunduruq böyüyür,
Boynu buruq böyüyür
Vətən olmayan torpaqların uşaqları...
Arzulara varmaq,
Qanla suvarılmaq,-
Vətən olmaq istəyir Torpaq!
Qan gəzir,
Qan, qurban..
Qana qan demirəm,
Qan deyirəm,
Vətəndaş olmaq istəyən insan!
Vətən qandan doğulur,
İnsanı qan çəkir,
Hər doğuluş bir qandır!
Sərhəddini qan çəkir ölkələrin,
İnsan qanı!
Qandır, qandıra bilirsən
Vətəndaş olmaq istəyən insanı!

❖

HƏR SÖZÜN DOĞRUSU

Q*ovuldum yad çıxan səs kimi xordan,*
Daldan "nə işin var?" sorğusu gəldi.
Ha yana üzümü tutdumsa, ordan
Çəkilməz kəsafət qoxusu geldi.

Tanrı düzəninə dönməz dilləri,
Vəddi, hər iş-vəd.
Yer altda qurt kəsir əmici telləri,
Yer üstə-rüşvət.

Həqiqət-qarşıdan gələn yalanmı
Tısbağa qınına girib gözləyir.
Rüşvət almayan da almır, alammır,
Özünə təsəlli verib gözləyir.

Yenidən oxunur köhnə qəzəllər,
Oxunur ruslu, farslı dütarla.
İşini görmədə görünməz əllər,
Ötür karvanımız "nə işim var"la.

Bir gözəgörünməz zalım yaratıq
Qapıdan qovuruq cumur bacaya.
Min ildi arayıb cavab tapmadıq
Tanrının sorduğu bir tapmacaya.

Tanrı dərgahında tale qıfılbənd,
Açması:-"ya öl"dü, "ya ayağa qalx"!
Qəflət yuxusunda yatan məmləkət,
Qərib gündüzündə gecəliyən xalq.

Qalx ki, Qaf dağında donan ümidin
Şimal küləyinin önünü kəsmir.
Orda-Savalanda yatan igidin
Qalxıb oyanmağa hələ tələsmir.

Üz-üzə dayanıb istiylə soyuq
Ümid-dağdan aşan gündü bələndə.
Yoxsa bu yerlərin gələcəyi yox,
Keçmişə gəzməyə gəlir gələn də.

Köhnə təşbehsə də-qılınc qındadı,
Közərir bir sönük şam ilə Vətən.

Hələ mənim kimi baş hayındadı
Böyük bəlalara hamilə Vətən.

Ümidsiz-ümidsiz ötür fəsillər
Bir millət yığılıb bir can bəsləyir.
Kar olan qulaqlar, lal olan dillər,
İçində bir qəfil tufan bəsləyir.

Yazıya pozu yox tale yazansa
Çətini asandır, asanı çətin.
Küs görüm özündən küsmək asansa,
Bu millət sənindir, sən bu millətin.

O mən, parçalanan o mənim ölkəm,
Bu qürbət, bu da ki Məmməd İsmayıl.
Məndən ayrılmağa gün gəzir kölgəm,
Haydı, arzudakı Məmməd İsmayıl!

❖

SAZ

Mən sizə söz açım təzə nələrdən,
Ürəyə toxunan simə toxunmur.
Əllər əl götürüb təzənəlrədən,
Köhnə mahnılar da daha oxunmur..

Doğma nəyimiz var yad hədəfində,
Açanı mənə de saza sirr düşüb.
Ya mənim, ya sənin, onun evində,
Qara köynəyində saz əsir düşüb.

Yazılan bu yazı qara yazıdı,
Düyülmüş dünyaya gəldiyi gündən;
Sanki saz havası yaz havasıdı
Çəkilib şəhərin, kəndin üstündən...

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

AY VƏTƏN,
NƏ TEZ UNUTDUN

A *y Vətən, nə tez unutdun,*
Bağrına badaş oğlunu.
Neylədi ki ucuz tutdun
Çıxardın çıxdaş oğlunu.

Yön çevirdi, baxdın yana,
Yaxılanı yaxdın, yana.
Öz əlinlə verdin, anam
Yollara yoldaş oğlunu.

Güzarını hara saldın
Ağ gününə qara saldın.
Vurub ayaqlara saldın
Beş kişidən baş oğlunu.

Baxt əymişdi, sən də əydin.
Söz yayıb xətrinə dəydin.
Barı bir dama hörəydin
Bu yığvalı daş oğlunu.

Hər yetəni bəymi sandın,
Yadı bizdən yeymi sandın,
Məmmədi ögeymi sandın,
Dünənki qardaş oğlunu?

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

VƏTƏNİN
BÜTÜN YOLLARI

S *evinçlər gendən keçdilər,*
Ardınca əski yasların.
Dostlarım məndən keçdilər
Başından keçdim dostların.

Günlərim keçmişə getdi,
Gördüm gələcək yasımı.
Yazanı dadıma yetdi,
Oxudum alın yazımı.

Açdım bütün ümitləri
İçindən boş vədə çıxdı.
Vətənin bütün yolları
Axırda gürbətə çıxdı.

❖

İLĞIM

F*əlakət yol gəlir hələ uzaqdan,*
İşini görmədə qəm xırda-xırda..
Evin işıqları yanmır bayaqdan,
Ağaclar saçını yolur bayırda...

Uzaq üfüqlərdə şimşəkdən bir iz
Sirrini açmada səssiz bir səda...
Bir şeylər canını sıxar səbəsiz
Hardasa bir şeylər unudulmada...

Sən bəxtə inanıb yatdın...Fələksə
Dəlinin əlinə hərdən daş verər.
Deyirdin yandıran yoxdu. Eləysə
Orman yanğınları nədən baş verər?..

Haçandan inanıb yoxa var dedik
Uzaq sahibinin səsidi söz ki.
Aşıq gördüyünü çağırar dedik,
Nəyi göstərəcək görməsə güzgü...

Qaralan buludlar uçan buxarsa,
Yağmağa yaxındı yağan qar demək.
Dənizin üzündə işartı varsa
Buludun ardında günəş var demək...

Sirri yox, kimin ki, hulqumu yoxdu,
Nə qədər sirr yatır hulqum içində...
Dönüb bax, gör nəyin ilğımı yoxdu,
Dünya başdan-başa ilğım içində...

Səhra sərabında buxarlanar qum
Yağış ümidi var uzaqlardasa...
Boşuna deyil ki görünən ilğım,
İlğım var, deməli su var hardasa...

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

ALNUMDAKI ÇAPIQ YERİ...

Q*əfil dəyən sapand daşı*
Alnımdakı çapıq yeri.
Bir ağrının can yaddaşı
Baxtımın qarışıq yeri...

Daşın başla nə işi var
Niyə qara daş, ağ edib?
Bilə-bilə daş baxtını
Xoş baxtıma calaq edib...

Gəzib o daşı tapsaydım
Ya da o daşı atanı.
Bəlkə düzəldə bilərdim
Başımdan keçən xatanı..

Hələ də alnımda qalır
Qədərin qalın yazısı.
Alın yazıma calanıb,
O daşın alın yazısı..

Ağlımdan keçən fikirdən
Özüm də heyrətə düşdüm:
Daş yerində ağır olar
Mən niyə qürbətə düşdüm?

Axşamdan sabaha qədər
Fikirləş, başın əlində...
Yeri-yurdu bilinməyən
Baxtım, o daşın əlində...

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

HAZIRLAŞ O DÜNYAYA

Könlünü Tanrıya aç,
Ölümsüzdü bu inanc.
İynəni yaxana sanc-
Axşamlar bir qonşuya
gedən kimi hazırlaş.

Yeddidən yetmişə dön,
Gəlmisən getmişə dön,
İtiyi itmişə dön-
Səni bir itirən var,
itən kimi hazırlaş.

Ölüm nədir bilməmiş,
Ölmə görək, ölməmiş.
Bu dünyaya gəlməmiş,
O dünyaya verdiyin
vədən kimi hazırlaş..

Arğacı, ərişi nə?
Fikir ver hər işinə.
Hazırlaş o dünyaya,
İlahi görüşünə-
Üzünü görmədiyin
Vətən kimi hazırlaş..

❖

VARIN YOXSUL ÖLKƏSİ

Xəritədə bir damla,
Qara mazut ləkəsi.
Varı başına bəla
Varın, yoxsul ölkəsi..

Ürəyinin qarası
Üzünü ağ eləmir.
Bir özü, bir yarası
Burun-damaq eləmir.

Ayağa dolaşanlar,
Baxırsan, gözə çarpmır.
Ölüm, öldürmək için,
Düşüb mərd gəzir, tapmır..

Hanı "Odlar ölkəsi",
Nəyi ağ günə çıxıb?
Ürəyinin ləkəsi
Vurub üzünə çıxıb.

Həqiqətin həyatda,
Şikəst doğulduğu yer.
Yalanın qeydiyatda
Vətəndaş olduğu yer..

www.kitabxana.net - Milli Virtual Kitabxana

Zaman nəfsinin qulu
Falına qəza çıxar.
Nə ləkədən qurtulur,
Nə qışdan yaza çıxar.

Günəş çıxır ya çıxmır
Bir elə fərq eləmir.
Öz nuru göz nurunu
Işığa qərq eləmir…

Qarıdır qarğışı da,
Ömrün xəzan çağı var.
Çıxmq bilməz qışı da
Yəqin çıxacağı var.

Nə doğdu yaz günəşi,
Nə ay boylandı, batdı:
Fevralın 25
4 gündən sonra martdı…

❖

MİLLƏT

***Q**uzeyə üz tutub: siyasət qarı*
Günəyə : garsıyıb hiylə rüzgarı.
Şərqə yön çevirib: Xəzər su səpib,
Qərbə: bacasının tüstüsü təpib.
Sıxılmaq öyrənib bəlkə bələkdən,
İpini bıraxmaz dərd bilərəkdən.
Göylərə əl açıb: Tanrı uzaqdı.
Yerlərə üz tutub: qısır topraqdı.
Bir yana baxmaqdan baxıb dört yana,
Baş alıp, başını vərib şeytana.
İçinə üz tutsa bir gün, içinə
Bəlkə qovuşardı Tanrı gücünə!

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

ÇANAQQALA İÇİNDƏ

Çanaqqala içində vurdular bəni..
Anadolu türküsü

Yatmışdım yuxuda səs gəldi: oyan,
Ya Tanrı, yad ki damarınmda qan.
Dedi: özünə bax, özünə boylan;-
"Çanqqala içində aynalı çarşı.."

Geyindim, dar gəldi ruhuma bədən..
Çatdı yol ayrıcı: ya yar, ya vətən...
Arzumun cavabı gəldi cəbhədən:
"Ana bən gediyom düşmənə karşı..."

Boğaz boğulurdu: qisasa qisas,
Əski məzarından boy verdi Bizans..
Döş-döşə , diş-dişə düşmən çox, biz az:
"Çanaqqala içində vurdular bəni.."

Hələ qanım isti, torpağım nəmiş...
Yenmək əldəikən, yenilmək nəymiş?
Ruhum döyüşlərdən geri dönməmiş:
"Ölmədən məzara qoydular bəni
Qoydular ey vah!.."

❖

OM-MANİ-PAD-MEXUM[2]

G*öyün günəşi, ayı göz dikər Himalaya,*
Qədərin nəzərindən qum olar qədim qaya..
Yatdımı yuxusunda qaya görər hansı qum?-
Om-ma-ni-pad-me-xum!
Om-ma-ni-pad-me-xum!

Hesabını bilməyən, nə var, nə yox hesabda?
Sevincə aparan yol düyümlənib əzabda..
Alışdıqca alışır sönmək istəsə də mum;-
Om-ma-ni-pad-me-xum!
Om-ma-ni-pad-me-xum!

Nə oyandı, nə bu yan, nə elədi, nə belə,
Heçdi, heçi heçə vur, ömürdən hesab elə
Yerdə hər tökülən xım, göydə görünən ilğım;-
Om-ma-ni-pad-me-xum!
Om-ma-ni-pad-me-xum!

Fərqi nə dünya dönür, ya başınmı dönmədə,
Özünə görünməyən gözünə görünmədə
Ya güzgünü tərs çevir, ya da gözlərini yum;-
Om-ma-ni-pad-me-xum!
Om-ma-ni-pad-me-xum!

Dünya səsdi, eşidib tuta bilmədiyin səs.
Çaşıb həvəsə düşmə, tordu düşdüyün həvəs...
Ürəyindən keçənlər torpağa düşən toxum;-
Om-ma-ni-pad-me-xum!
Om-ma-ni-pad-me-xum!

Öyrən amacı nədi varlığa yox deyir yoq..
Yox toxa qafiyədi, varma, varda xeyir yox;-
Əllərini qoşala, nə umsan yoxluqdan um;-

[2] "Om" səsi Hind və Buddist ənənəsində mütləqin simvoludur, özündə keçmişi, bu günü, gələcəyi yaşadır.Və "Om-ma-ni-pad-me-xum" isə davamlı şəkildə yaranan və məhv olan dünya, onun tanrıların ağ işığını, insanlığın mavi işığını, yerətrafı çevrələrdə yaşayan şeytanların sarı işığını, canlıların yaşıl işığını, ac ruhların qırmızı işığını və cəhənnəm mənsublarının bəlirsiz işığını əks ettirən Tibet duasının ilk misrasıdır...

Om-ma-ni-pad-me-xum!
Om-ma-ni-pad-me-xum!
❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

SÜRƏK

I

Ov ovçudu, ovçu ov
Qova bildiyincə, qov.
Sürəkçilər sürəkli
Hər yandan qova qova
Qovub yön verər ova..

Yetişdimi vaxt-vədə
Hayandan gəlir bu səs?
Yüz yol eşidilsə də
Bir yol gözə görünməz...
Ümid-açılan baca,
Ovun da ayağı var.
Ölümdən qaça-qaça
Ölümə qaçmağı var...

Ya bir dağ bərəsində
Yada ki bir gədikdə
Ovçu, əli tətikdə...

II

Xeyir-şər, gecə-gündüz
Yaşayırlar üzbəüz...
Bu cütlər arasında
İnsan tək oğlu təkdi.
Bu ömür sürməkdimi,

Sürəkdi bu, sürəkdi...
Yarpağınkı küləkdi
Qayığınkı kürəkdi
İnsanın ki, ürəkdi,
Nağıl dili yüyrəkdi...

Alnındakı qırışlar
Möhlətini qarışlar..

www.kitabxana.net - Milli Virtual Kitabxana

Ya bir yol ayrıcında,
Ya da mənzil başında
Tale adlı gədikdə
Ölüm, eli tətikdə...

III

Hamı keçir bu yolu
Bunun sonu yoxmu bəs?
Ovun gözü dörd olub,
Ovçu gözə görünməz...
❖

SARI YARPAQ NƏĞMƏSİ

Y*uvamız isti sinə,*
İsindik istisinə.
Bilmədik çətin işdir;-
Alışan ocaq olmaq.

Elə ki, ayaq açdıq
Günün dalınca qaçdıq
Bilmədik çətin işdir;-
Təzədən uşaq olmaq.

Gün döydü narın narın
Dodağı qaçdı narın.
Bildik necə şirinmiş;
Çiçəkdən nübar olmaq.

Saçımıza dən düşdü,
Sazımız kökdən düşdü.

www.kitabxana.net - Milli Virtual Kitabxana

Bildik necə ağırmış;
Saralan yarpaq olmaq!
❖

NAR

I

***B**ir gecənin içində*
Dodaqları açılmışdı yarıya.
Bir səhərin içidə
Günəş döndü arıya;
Mum elədi, şam elədi,
Günü axşam elədi,
Adicə bir qabığı
Nur dolu cam elədi.
Oda bax dənə-dənə
Odur bax, damla-damla
Dodağını söykəyib
Çatlayan dodaqlara
Alov içir adamlar...
Ulduz-ulduz danələri
Dənələnir narın-narın,
narın.
II

Nar –möcüzə, nar-işıq
Əl vurub, göz görəsi
Hazırca yer kürəsi
Torpaq, günəş qarışıq.

Bir qabığın içində
Nara bax, dənə-dənə,
Nara bax, mahal-mahal,
Nara bax-ölkə ölkə,
Düzülüb cərəgə cərgə.

www.kitabxana.net - Milli Virtual Kitabxana

Bu bükrümlü hücrələr,
Dövlətlərin sayımı?
Nar, kürədə yaşayan
Bəşərin sarayımı?

Bütöv xalqlar bütöv nar,
Adamlar nar dənəsi,
Eynidir hər dənəsi
Sevincə, qəmə şərik,
Ömürlük, həmişəlik...

Xalqlar var yarı kəsik,
Ortadan narı kəsik.

Nar elə bar deməkdir,
Nar elə yar deməkdir,
Nar elə nar deməkdir.
Sözdü,
közdü,
gözdü nar...
Sirri açılanacan
yarəb, necə dözdü nar?..

bir nəlbəki nar dənəsi
həddin yoxdu əl vurası.
Gündüzü, gecəsi var
Sözü var, hecası var,
Bir evdə bir qardaşın
Bir bax, gör neçəsi var.

Budur, nəyi var budur:
Novruz görən yuxudu:
Oxu yeddi qardaşı
Yeddi nar çubuğudur...
Yerin, göyün ruhudur.
Nar elə sirr sandığı,
Açın, insanlar bizə.
Taleyin sirr sandığı

www.kitabxana.net - Milli Virtual Kitabxana

Sehirli məktubudur.

Nar bütövlük sözüdür,
Aranı Araz kəsib
Nara bax, iki para,
Kim ala, kim apara...
❖

QATAR VAQONLARI...

S*əhər vaqonları uzaq yollara*
atar tor kimi.
Balıqçının polad əzələsiylə
Çəkilər, dartınar,
qatar
tor kimi.
Yarıb tunel kimi keçər gecədən,
Şığıyıb axşamdan səhərə çıxar.
Bir ucu hardasa kənddə sürünər,
Bir ucu hardasa şəhərə çıxar.
Tökülər bir dəniz dərinliyinə
Çətin geri dönər zora düşənlər.
Çabalar şəhərlə kənd arasında
Şəhərin attığı tora düşənlər...

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

BU, MƏNƏM...

***B**u mənəm a kəndim, tanımadınmı?*
Bu həmin Məmməddir—
bir az sınıxıb,
Bir az sıxıb onu şəhər havası,
Dərmənı dağların səhər havası.
Məni tanımayır təzə cavanlar,
Özümü çıxmışam yaddan, adımı?
Sənin qucağında arzuladığım
Günlərdən qayıdıb gəlmişəm sənə
Bu mənəm, a kəndim, tanımadınmı?

❖

İLHAM

D*ənizə bənzəyər fikrimiz bizim,*
Gah üzdə olarıq, gah da dərində.
Hər yeni bir fikir tapılan kimi
Ucalar hamının nəzərlərində...

Toxum pöhrə verər yer isinəndə,
Gəzər duyğuların yükü sinəndə.
İlham dediyimiz bir ağacdır ki,
Meyvəsi vərəqdə kökü sinəndə...

❖

O HANSI MƏSƏLDİR

O *hansı məsəldir:*
"Aləmi bəzər..."
Dağıt gümanımı,
dağıt şəkkimi.
Böyük şəhərlərdə
uzaq kəndlərin
Bekar oğlanları

çinartək gəzər
Qızları yol gözlər
bənövşə kimi.
❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

OĞUZ HƏLƏ YUXUDADIR...

S*u pərisi, su pərisi,*
Bu çoban şəhvət hərisi...

Su pərisi, su pərisi,
Nə işin vardı bulaqda?
Doğruluq -şöhrət hərisi,
Əyrilik gözdə, qulaqda...

Nolar o baxdı, sən baxma,
Baxma, sən baxsan söz, çıxar.
Yaxanı yaxın buraxma,
İçindən.. Təpəgöz çıxar...

Baxma, bu çoban şər atar,
Xeyri şərə calaq edər.
Sonra yer, göyü aldadar,
Göy yeri daş-qalaq edər..

Öz özünü bulmayanlar,
Özgələrlə üz-göz olur.
Sevgidən doğulmayanlar,
Doğunca, Təpəgöz olur...

Hardan buldun bu təzadı,
Öyrəndinmi nəydi səhvin?
Qanadların uçamadı,
Güc gəldi insan tərəfin...

Bu nəymiş alın yazında,
Yarı insan, yarı quşdun.
Bu yerlə göy arasında,
De hansından yarımışdın.

Bir yer də yox ki, sığına,
Dərdin düşübdü arxama.
Bir çobanın acığına
Bütün Oğuzu qarğama..

İşti, azıtsam bu dərdi,
Azdırmaz ki ana bətni..
Göylər geriyə göndərdi,
Yerlərin əmanətini...

Tarix kül oldu..köz keçdi,
Qaldı "Ey dadi-bidad"ı.
Başına Təpəgöz keçdi,
Oğuz hələ yuxudadı...

❖

MƏN GƏLƏNDƏ

M *ən gələndə böyüklüyü*
Ruhumla birdi.
Adını çəkənlərin
Yeri Sibirdi.

Bir tanrısal hisdi,
Su çəkəndi,-
Sonu görünməyən izdi.
Torpağa düşən toxum kimi
İçimdə göyərməyindən xəbərsizdi...

Addımına dar gəlirdi
Tarixin dolayları...
Köçəbə yollarında
Macalı yoxdu qura,
Xəyalında ucaldırdı
Ən gözəl sarayları...

Hədəfi- qızıl alama
Ün yetməz bir hədəfdi.
Bir ömür həsrət yolu;
Damağındaydı dadı!
İçində
Axına qarşı üzüb
Kürü tökməyə gedən
Bir balığın inadı...

Hədəfi- qızıl alama
Ün yetməz bir hədəfdi.
Arada nə oldusa
Taleyi geri təpdi;
Mən gedəndə ;-
Adı boynuma yüktü.
Türkdü;-
Tarihin yan köşəsində
Boynu bükükdü,
Böyük olanların
Dərdi də böyükdü....
❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

TÜRK

Q *ərbin qəripliyinə*
Şərqdən şərqilər qatıb.
Duz yerinə dünyanın
Xəmirinə tər qatıb.
İzləriylə birləşib
Yer üzünün hər qatı.

Qurdu ulasın deyə
Qurddan alıb soyunu.
Dönüb taixdən soruş
Əllərinin suyunu.

"Adam" Adəmdən gəlir
İrqi ali irq olub.
Haqqa könül açalı
Adı dönüb Türk olub.

Düşmənlər qala bilib
Başındakı fəsini.
Yerdəyişi dəyişib
Yerin xəritəsini.

❖

QƏDİM BİR
TÜRK ÇADIRI

Ö*mrüm bir yanıq kösöydü*
Qalıb xatirə çağları.
Soyuq-soyuq yellər döydü
İsti-isti ocaqları.

Min ildi əkin əkirəm
Hər qarga bu şuma gəlmir.
Nə çəkirəm mən çəkirəm
Heç nəyim xoşuma gəlmir.

Axtardığım bu nə yatır
Gəlir, çıxarın altında.
Dünənin baharı yatır
Sabahın qarı altında.

Hələ istək, arzu şaxdı
Ömrün ötən yatırında
Könlüm bir yetim uşaqı
Qədim bir Türk çadırında...

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

YELƏ BİR SÖZ SÖYLƏMİŞDİM...

Ümid yeri varmı görən
Sorağına qaçan yox.
Məktub yazsan cavab verən
Zəng eləsən açan yox...

Bir şey gəlməz əllərindən
Hamı laldı, hamı kar.
Yenə Bağdad ellərindən
Geri dönməz durnalar...

Qərib bağı bar gətirməz
Su yerinə axsa qan.
Göyərçinlər söz götürməz
Xəbər verməz saxsağan.

Nə çoxalır, nə azalır
Hardan gəldi bu çənlər...
Ürəyimə kölgə salır
Ürəyindən keçənlər.

Nə o yandı, nə bu yandı,
İtib çıxış yolu da.
Göz yaşını buxarlandır
Ümid qaldı buluda...

Adım dildən dilə düşdü
Sazım zildən bəmədi.
Yelə bir söz söyləmişdim
Sənə bir şey demədi?

❖

ORHUN

Qoynunda yenidən doğulum Orhun,
Özümü oduna qoy yaxım gəlim.
Batım sularına, boğulum Orhun
Qurdanan qiyamətə qalmağım gəlib.

www.kitabxana.net - Milli Virtual Kitabxana

Hanı sahilində qurduğum saray?
Zaman atlı bilmir, piyada bilmir.
Bulaq çağlarına qayıtmır hər çay,
Hər budaq kökünə qayıda bilmir.

Bu Tanrı dağları laldımı, Orhun,
Bir ürək qızdırıb, bir sirr verən yox.
Qisas qiyamətə qaldımı, Orhun,
Daha sularına nəzir verən yox.

Əyilim önündə bir oğul kimi,
Qoy hopsun canıma hər qara-qorxun.
Amma icazə ver, gümüş pul kimi
Atım ürəyimi suyuna, Orhun

Yoxsa sıyrılmısan, Orhunum oxdan,
Ya günəş nurunda gümüş tiyəsən.
Səni axtarırdım, mən səni çoxdan
Sən də gəlişimi duydun deyəsən.

Gəldim zamanları salıb ayaqdan,
Babamın saldığı o yurd hardadı?
Bozqırlar gözümə dəyir bayaqdan,
Ruhumun sahibi bozqurd hardadı?

De, hardan almısan, Orhun, bu adı?
Açır sirlərini Babur hələ də..
Min ildi başına qalan Türk atı
Monqol çöllərimndə çapır hələ də..

Demə bura hara, oğul, sən hara,
Düşüb yaddaşımın izinə gəldim.
Əsirdən əsirə üzü bahara,
Tanrı dağlarının özünə gəldim.

Bu sirrin fərqinə vardıq hansımız,
Özü olmayanın sözü yoxuymuş...
Orhun yazıları alın yazımız,
Demə, yazılana pozu yoxuymuş..

❖

AĞLAR

Gəldi ağlamalı günü dünyanın
Qaldı yaşanası zamanı ağlar.
Qaldı buxarlanan o göz yaşları,
O bulud, bizdən çox səmanı ağlar.

Yaşamaq ləzzəti getdi ölkənin,
Dilimdə qabarı bitdi "bəlkənin".
Zaman dənizində ümid yelkənin
Geriyə qayıtmaq gümanı ağlar.

İlahi, nə günə qalıbdı gör Hun?!
Yalan ayaq açıb yerisə, gorxun.
Mavi göz yaşıdır dərədə Orhun,
Təpədə Tanrının dumanı ağlar.

Batıdan Doğuya varıp gedən iz,
Hansı zamanlara yetdi vədəniz?
Və...dəniz, içimdə itən beş dəniz
Gəmisi kəm olub, limanı ağlar.

Hələ yozmadığım bir yuxu qalır,
Gözümdə bir Monqol qıpığı qalır.
Alnımda bir Türkmən çapığı qalır,
İçimdə bir Altay şamanı ağlar.
❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

İKİ
SAHİL YAXASI

B *urası Dardanelin*
Keçilməz dar boğazı.
İki sahil yaxası
Tutub sıxar boğazı.

Keçir gündüz gecədən,
Çox gəlib azdan keçir.
Hələ ömür yelkənim
Dar bir boğazdan keçir.

Öndə bir mayaq yanır
Mən yorulsam, sən izlə.
Bundan sonra başlanır
Okeanlar, dənizlər.

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

SƏNDƏ VAR OLMAQ ÜÇÜN…

Yarpaq, sən də budaqdan
Solub qürbətə düşdün.
Yağış, sən də duluddan
Dolub qürbətə düşdün.
Könül, ölən gününmü-
Gəlib qürbətə düşdün?!

Buluda dönmək çün
Buxarlanmaq gərəkmiş.
Budağa dönmək üçün
Baharlanmaq gərəkmiş.
Vətənə dönmək üçün
Məzarlanmaq gərəkmiş..

Damlalar buxarlanar
Yağış, qar olmaq üçün.
Qönçələr baharlanar
Bəhər, bar olmaq üçün.
Qucağını aç ,Vətən,
Yox olub gələcəyəm,
Səndə var olmaq üçün…

❖

AY BULUD

Nə ağzına su almısan?
Bir cavabsız sualmısan?
Niyə belə qaralmısan
Haçandı yasım, ay bulud?

Yaşım tükənibdi, yaş ver.
Yerdə qalanını boş ver.
Qara yaylığını borç ver
Gözümə basım, ay bulud.

Ya bən qoşum, ya sən haxla,
Sinəmi tərk et son ahla.
Nolar, mən ölüm, sən ağla
Mən qulaq asım, ay bulud.

Aldığını geri göndər.
Mənə sonuç yeri göndər.
Bir yağmur kəndiri göndər
Özümü asım, ay bulud.

Sənin də əvvəlin sumu?
Haçan var etdin yoxumu?
Bəlkə yuxumsan, yuxumu
Haraya yozum, ay bulud.

www.kitabxana.net - Milli Virtual Kitabxana

Yenə qarşıdan qış gəlir.
Payız əlləri boş gəlir.
Sən oxu, mənə xoş gəlir
Yağmur duası, ay bulud.

Vətən Vətəndi, ha deyim...
Bəndəyə, Allaha deyim...
Qurbətdən daha nə deyim,
Daha nə yazım, ay bulud?

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

DƏRD

Kənara çıxmaqdı işin çətini,
Çıxar, yollarına qarğış ələnər.
Alar damağına siqaretini,
Gümüşü saçında dərd tüstülənər.

Qoymaz ki sahibsiz qala dünyada
Uzaqdan gördümü tez əl eyləyər.
Qoymaz ki çevrilib üz tutsun yada,
Dərdi çəkib çəkib gözəl eyləyər.

Qürbət yeri deyil hər üzü bərkin,
Düşmək istəsə də qəm qatarından,
Zaman kotan açar alnında hər gün,
Sonra dərd göyərər qırışlarından..

Görər ki dərd gəlib ona əl açdı,
Dərdi ürəyinə heyran eyləyər.
Yalan söhbətiymiş dərman əlacdı,
O, dərdi dərdinə dərman eyləyər...

Ah səni, geriyə işləyən təkər,
Alın yazısının mechul xəbəri!
Mizan tərəzidir, çəkdikcə çəkər,
Vətənlə qürbəti, xeyirlə şəri..

www.kitabxana.net - Milli Virtual Kitabxana

Bir ömür ikilik içində nöqsan,
Bədənmi ruhda,ruhmu bədəndə?
Qürbətmi? Onsuz da qürbətdə yoxsan,
Hələ görməzlikdən gələr vətən də...

Günəş qədəmiylə düşər israra
Çəkir gözlərinin gürub yerini.
Axşamın birində qansız misralar
Tapar ürəyinin qərib yerini...

Qalıb aralıqda yaşayar hər gün
Sağında, solunda solaxay qədər;
Fürsətin birində ölər, ölümün
Gözünün odunu almağa gedər..

Ara günlərini dərdlə bölüşər,
Sonra da şənbəsi, bazarı gələr.
Qürbətə düşənlər tarixə düşər,
Gəlsə də vətənə məzarı gələr...

❖

GETMƏYƏ BİR YERİN OLA

Ölümü kimsə sevməzdi,
Şairlər yazmadan öncə.

Ö *lüm deyib düşmə haya*
Soruşma nerdən gələcək.
Bir zamanlar bu dünyaya
Gəldiyin yerdən gələcək.

Qohumluq qandan gəlirsə
Yadlıq da qandan gələcək.
Yuxu hayandan gəlirsə
Ölüm o yandan gələcək.

Dünyaya gəlim qisməti
Dünyada qalım dərdimi?
Bilməmişkən ölüm nədi
Çəkdiyin ölüm dərdimi?

Yaşmağa ömrün ardı
Tapınmağa pirin ola.
Gəlməyə bir yerin vardı
Getməyə bir yerin ola...

❖

QƏBİR YERİ

Y *az olar, yarpaqlar yoxdan var olar,*
Tanrının kölgəsi düşər üstünə.
Yenidən ilk bahar son bahar olar,
Payız baharların durar qəsdinə.

Çiçəyi çırtlayan bahar nə bilsin,
Gedib qışa düşər yazın kölgəsi.
Kimin qarğışıydı: kölgən kəsilsin,
Qısalar ömrünün uzun kölgəsi…

www.kitabxana.net - Milli Virtual Kitabxana

Ölümə çarə yox! Ümiddən əl çək,
Nə səbir? Bu dünya səbir yerimi?
Yazın əvvəlinə açılan çiçək,
Solub nişan verər qəbir yerimi…

Quluqsa, biz kimin qulluğundayız,
Ölümmü doydurar gözü acları?..
Məzar torpağımı öpər hər payız
Pələş yarpağıyla göz ağacları...

Gedən gedərgidir, mənim-sənim yox,
Çıxılmaz dərdlərə vətən-bir ölüm.
Mən nə istəyirəm, sonda mənim yox,
Allahın xoşuna gedən bir ölüm...

www.kitabxana.net - Milli Virtual Kitabxana

Kölgələr çəkilər, bitər yır-yığış,
Ölüm saatını fələklər qurar.
Gizlənib içimdə köks ötürər qış,
Hardasa haqqımda yaz qeybət qırar.

Bir cür başa vurur hər kəs ömrünü,
Boşuna soluxmur açılan çiçək.
Göylərə boylanın mən ölən günü
Gögzlənən işarət göydən gələcək..

Hərəniz bir işin tutun qulpundan,
Nə dərdə gərək var, nə çək-çevirə.
Qazın məzarımı, yaz buludundan,
Gün şəfəqlərinin düşdüyü yerə…

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

BU YOL BİR QİSMƏT YOLU

B *u qapının önündən*
Başlanır qürbət yolu.
Bu yolu biz seçmədik
Bu yol bir qismət yolu.

Yum gözünü, qürbətə
Gedən yolları bağla.
Ağlasan da başını
Köksümə qoyub ağla.

İki sinə bir ürək
Baş başa qalsın bir az.
Yaşın könlümə axsın
Dərdim yumşalsın bir az.

Yeri yaratdığından
Göyün başı dərtdədir.
Biz qürbətə düşəli
Tanrı da qürbətdədir.

❖

BU NECƏ QISMƏT İMİŞ....

Bu necə qısmət imiş
Bu necə vədə gəldim.
Bu dünya qürbət imiş
Neçin qürbətə gəldim?

Yerdə kim duyasıydı
Göyün əlifbasını?
Açıb oxuyasıydı
Alnımdakı yazını?

Gəldinmi od, su, torpaq,
Öldünmü ölüm-həsrət.
Çölünə için uzaq,
İçinə çölün həsrət.

Dözə bilirsənsə, döz,
Dözənlər düz olacaq.
Dünyanın əvvəli söz,
Sonu da söz olacaq.

Bəlkə də göyün, yerin
Dərmanı dərtdən gələr.
Haqdan gələn şairin
Səsi qürbətdən gələr.

❖

YÖN Kİ DÜŞDÜ QƏRİB ELƏ

Qocanın əziz ruhuna

V *arlığına od calanır*
Yön ki düşdü qərib elə.
Qoşa yollar haçalanır
Biri elə, biri belə.

Hər gün qulağım səsdədi,
Qəfil xəbərdən qorxuram.
-Durma gəl, ağır xəstədi
Bu beş-betərdən qorxuram.

Durna kimi qatar-qatar
Uğursuz gün, yaman xəbər.
Qulağına gəlib çatar
Ürəyinə daman xəbər.

Bu dərdin dibi sudamı,
Dalğa-dalğa, damar-damar.
Hər gecə yuxuma damır
Qəbriyin üstündəki gar...

Gələcəyin keçmişinin
Atılan daşına gələr.
Qürbətə düşən kişinin
Qorxduğu başına gələr...

❖

ALNINDAKI QIRIŞLAR

*...**C**ırpınma balıq kimi* *Qırışığın açılmaz*

Vaxtın atdığı tordan...
Alnındakı-qırışlar
Səssiz nəğmələridir
Dərdin, əzabın, tabın ...
Ən çox qatlanan yeri
ən sevilən yeridir
hər oxunan kitabın...

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

BURA HARADI

I

*..**H**ayanda ayaqla torpaq görüşür,*
Qışmı, baharmı?
Yol olub ayaqlar altına düşür,
Kim gəlir, kim gedir fərqinə varmır..

Biz kimik? Kim bizə nə deyəsiymiş,
Sevgilər pərişan, sevinc dərbədər.
Yoxsa bizdən əvvəl ev yiyəsiymiş,
Bizi içimizdən böyüdən kədər...

Nə niyyət? Bir niyyət etmərəm haşa,
Aşımızı yeyən bu nə niyətmiş?
Gəlib çıxardıqmı bu uzaq yaşa,
Başımızı qatan əbədiyyətmiş.

Ayları, illəri içinə yığıb,
Bir az da çoxalar xatirəm hər gün.
Sıyrılıb, axşamdan sabaha çıxıb
Ölümlə görüşə gedərəm hər gün..

II

Hayana uzanır düşdüyüm çığır,
Bu gecə yarı.
Uzanıb ölümdən yoluma çıxır...
Məzar daşları.

Yoxuşa dirənər yol uzaq başı
Alın yazısından çıxıb gəlir yas?
Yağışdan əyilmiş bir məzar daşı
Üstündə yazısı: "Belə də qalmaz"!

Dünya da doydurmaz gözü acları
Olum gətirəni ölüm itirər.
Zülümlə sulanan dar ağacları,
ölüm gətirir...

Dumanlar içində düşüncəli dağ,
Vurup ürəyindən üzünə dərdi.

www.kitabxana.net - Milli Virtual Kitabxana

Bir qara yarpaqlı yağış yağacaq,
qara xəbərli..

Qoşub durnaların gərib səfinə
Dumanda əriyir bir qərib atlı.
Dünyanın ümütsiz bir tərəfinə
məni kim atdı?

Bürüyür qürbətin sularını qəm,
Keçir ayrılığın səssiz paradı.
Mən hansı dənizin sahilindəyəm,
bura haradı?

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

SEVMƏDİ MƏNİ DÜNYA...

Mənə verdiyi canı
Yolunda fəda etdim
Yenə sevmədi məni
Sevmədi dünya, qardaş.
Islanmış paltarların
Canındakı nəm kimi
Çəkilirim dünyadan
Gəldiğim kimi səssiz,
Səmirsiz, yavaş-yavaş.

❖

ÖMÜR...

H*ansı dar boğazdan gəldik dünyaya,*
Həyat durğun göldə bir tərpənişdi.
Bir dəfə boylanıb baxmaqdı aya,
Sonra da zamansız geri dönüşdü...

Dur, oyan dedilər qalxdım yuxudan,
Bir bəyaz buludun dalınca getdim.
Yağmayan yağışdan, axmayan sudan
Mənə deyiləsi bir söz eşitdim.

Zaman aralıqda qara çizgidi,
Ömür keçib gedir bu boş çizgidən.
Üz-üzə gecəylə gündüz- güzgüdü
Bir talə boylanır iki güzgüdən.

Əlləri qoynunda qalan bir ölü,
Kimsənin işi yox qalan qalıqda.
Üz-üzə dayanıb olumla ölüm
Ömür can çəkişir bu aralıqda...

Damar cığırlarda soyuyar qanım
Sevən könüllərin nəydi suçları?
Gözümün önündə gocalan canım
Fikrimin önündə yol ayrıcları.

www.kitabxana.net - Milli Virtual Kitabxana

Mənimlə məndəki mən görüşmədi,
Mənə mən deyiləm tanıdılan mən.
Heç gəlib burda da yada düşmədi,
Orda yaddan çıxıb unudulan mən...

Həyatın anlamı əsirmi sirdə
Təzaddı hər şeyin içiylə çölü.
Ölən ölüb getməz durduğu yerdə,
İnsan unudulan çağında ölür.

Dünyaya gəlməyin özü bir xata,
Dilənən diləyin mində biri yox.
Arzu məzarlığı ömür arxada,
Öndə gediləsi ümid yeri yox..

Ömrün dərd əlindən varmı boş anı,
Orda aləmlərin yeri sıx oldu.
Nə mən boşanıram, nə o boşanır,
Mənə nigahlanan dərd yazıx oldu...

Dünyaya gəlməkdə varmıdı səhvim
Bu dünya kimləri dərdə salmadı?
Dərdə dəyirmançı olmaq görəvim,
Nə qədər üyütdüm dərd azalmadı.

Bu da gözlənilən sonuncu bölüm,
Atam yox, anam yox, döyüş təkə tək:
Yəqin marta yaxın yaz kimi, ölüm
Bir azdan böyürdən çıxıb gələcək...

Zamanın əlində ömür yumağı,
Açdımı, sonuna varmaqdı işi;-
Ölüm sabahından gələcək baxır,
Gecə köynəyində udur keçmişi.

Hayandan yol alır ömrün əvvəli,
Hayanda haqqımda yaz qeybət qırır?
Bir ucdan kiminsə görünməz əli
Tükənən illəri mənə saydırır...

Ələndi üstümə ikibir, üç üçbir ,
Saçımın dəniylə saydım qışları.

www.kitabxana.net - Milli Virtual Kitabxana

Bələdçi cığırlar alnımdan keçir
Düşüb arxasına ölüm quşları...

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

GÖBƏK BAĞI

Gəldin yer üzünə vaxt darlığında
Dalğalar cismini vurdu sahilə.
Bağ vardı ananla sənin aranda
Ananla, yəni ki, o dünya ilə.

O bağı kim kəsdi, harda, cavab ver,
O itki ilk axan göz yaşın oldu.
Dünya göbəyinin kəsildiyi yer
Vətən göbəkkəsmə qardaşın oldu.

Qarşıda gözləri yol çəkən ad-san,
Neçə çəkiləsi dağ var dünyada.
Demə ki ipini qoparan atsan,
Bir gözə görünməz bağ var dünyada.

Ilahi, bu bağın nəymiş nəsibi,
Yollarda gah ölü, gah diri olur.
Dar ağaclarına ya edam ipi,
Ya da ki, intihar kəndiri olur.

Yol açır beynindən fikir geriyə,
Çəkən çəkdiyini çəkibdi, çəkir.
Vətən həsrətimi çəkir geriyə,
Yoxsa, o dünyadan o ipdi çəkir?!
❖

SƏN İNDİ HARDASAN, MƏMMƏD İSMAYIL

Bu sualı mənə ünvanlayan hörmətli
oxucum Elisafa Azayevin dilindən

Ü zünə pərdəmi çəkdin dünyanı
Ya elə çiyninə ağır yük düşüb?!
Əvvəlki iş yerin, dinc yerin hanı
Yoxsa ünvanın da dəyişik düşüb,-
Sən indi hardasan,Məmməd İsmayıl?!

Bir anda qəlbindən neçə hiss keçir
Çoxuna düşmənmiş şerin görünür.
Şeir gecələri şeirsiz keçir
Uca məqamlarda yerin görünür.

Hayanda sığındın özün-özünə
İnanıb ilahi bir qüdrətə sən.
Yaz idin payızdan düşək izinə,
Su idin torpağa hopub gedəsən?

Arzular həvəslər gözə görünməz,
Gör necə mənalar yatıb adında.
Ruhu müqəddəslər gözə görünməz
Yerdəsən, ya göyün yeddi qatında,
Sən indi hardasan, Məmməd İsmayıl?!

www.kitabxana.net - Milli Virtual Kitabxana

Heyif o yanılan zəndinə, heyif
Sən kimsən, əyrisən, düz oğlu düzsən?
Hamıdan güclüsən, hamıdan zəif,
Hamıdan yaxşısan, ya elə...pissən?

Çörəyin çıxardı alın tərindən
Qədərlər, qismətlər sənə bənzəyir...
Ya elə axtarış lövhələrindən
Bozaran sifətlər sənə bənzəyir?

Züy tutan göllərə daş atan haqlı
Bəsdi qurbağalar elədi qur-qur.
Bu açıq ekranlar üzünə bağlı,
Efirlər adını çəkməyə qorxur.

Çıxaran çıxarıb özünü yaddan
Adının üstündən bir xətt çəkəcək.
Ata bilməsə də sözünü yaddan
Oxucu üzünə həsrət çəkəcək...

Qürbətdən qismətə baxma key kiimi
Ya özün yatmısan, ya bəxtin yatıb.
Ya xəstə cəmiyyət artıq şey kimi
Səni varlığından kənara atıb?!

Qəlbindən keçəni Tanrı bilirsə
Dilə gətirməyin lüzumu yoxdu.
Yaxşın da yamana dönür nə sirsə
Qoy baxaq əlinin duzumu yoxdu?

Gözə görünənin gözünü deşmək
Ocağın gözünü deşmək deyil ki?!
Birdə ki, hamının dilinə düşmək
Hamının könlünə düşmək deyil ki?!

Yada doğma deyir...Doğma yad imiş,
Mərdi qova-qova...qovur bu kütlə.
Sən demə xəstəlik istedad imiş
Özündən xəstəni sevir bu kütlə..

Bu Vətən qalacaq çoxmu bu gündə
Çuvalda paslandı bu nizə axı?!
Sabun köpükləri suyun üzündə
Yer altı irmaqlar dənizə axır.

Qəfil gətirdiyi nəydi çənlərin
Çisəyi çilədi, yağışı yağdı.
Onsuz da çarmıxa çəkilənlərin,
Çarmıxdan tarixə düşməsi haxdı..

...Qəlbinə yaxın düş, gendən soruşma
Dünya niyə düşüb gözündən soruş.
Harda itib-batıb yeri hardadır?
Mən guru şəkiləm, məndən soruşma,
Gedib özünü tap, özündən soruş
Soruş üç Məmməddən biri hardadır,
Sən indi hardasan Məmməd İsmayı?

Bu tarix, şeytanın qara tarixi
Kim alsın bu qəlbi qaradan bizi?!
Bu tarix, bu tarix,-ara tarixi
Kim çəkib çıxarsın aradan bizi?!

Qazanlar qaynayır qapağın altda...
İgidlər çürüyür papağın altda,
Hayanda biz səni axtarıb gəzək
Məğər yer qəhətdi Allahın altda,-
Sən indi hardasan Məmməd İsmayı?

❖

BİLMİRSƏN HARDAYIQ, SABİR SARVANIM?

"Biz indi hardayıq Məmməd İsmayıl"
şeirinin müəllifinə.

Y *azdın, sorağını aləm eşitdi,*
Çalınan surdayıq, Sabir Sarvanım.
Gözə görünmənin devranı bitdi,
Hisdə, şuurdayıq, Sabir Sarvanım.

Üstünü kül basan hər yerdə sirr var.
Qəlbinə damdısa, damlada Kür var...
Görənə iynənin gözündə nur var,-
Elə o nurdayıq, Sabir Sarvanım.

Sınağa çəkilir özlük hardasa,
Gözlərdən düşübdü gözlük hardasa.
Ağlını azdırma, düzlük hardasa
Biz ələ ordayıq, Sabir Sarvanım.

Üç qarış toprağıq, beş arşın bezik.
Tanrının torpağa səpdiyi izik.
Dağılan ölkədi, şeytandı, bizik,-
Buyur buyurdayıq, Sabir Sarvanım.

Ver görüm, verdiyin dəstəyə qurban.
Kəsilər sağalan xəstəyə, qurban.
Hərə bir arzuya, istəyə qurban,-
Biz də bu yurdayıq, Sabir Sarvanım.

Zamanın ələnən ələyinə bax!
Elin daşdan çıxan çörəyinə bax.
Xalqın üzünə yox, ürəyinə bax,-
Görmürsən hardayıq, Sabir Sarvanım?
❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

TABUT QAPAĞINDAN QEYRI
BÜTÜN QAPILAR QAPALI...

www.kitabxana.net - Milli Virtual Kitabxana

ÇÖLDƏ BARMAĞIMA TİKAN BATANDA…

Çöldə barmağıma tikan batanda
Üstünə qaçardım əlləri qanlı.
Bir çarpan ürəkdik biz iki canda
Sən oğul canlıydın, mən ana canlı…

Yaş olub axardı yetim qürurum
Atam da yox idi fərqinə varsın.
Deyərdən ağlama gözümün nuru
Gətir barmağını öpüm qurtarsın.

İndi o ilahi sevgilər hanı
Bir candan keçəydi başqa bir cana.
Öpərdin, kəsərdi əlimin qanı,
Sənin nəfəsində nə varmış, ana?

Yerlərin göylərə diləyi səndin
Baxtına vaxtımın günəşi doğdu.
Dünyaya gəldiyim ana vətəndin
Sən yoxsan, bəlkə heç vətən də yoxdu…

Bəs niyə üstümdən kölgəni çəkdin
Döndərib könlümü neylərə, getdin.
Bəlkə də göylərdən enən məlkədin,
Qayıdıb yenidən göylərə getdin.

İnsanın mənzili ağrılarcadı
Uzanar vtəndən qürbətə acım.
Qan olan ürəyim param parçadı
Sən yoxsa, mən kimin üstünə qaçım?

❖

ALLAH UZAQLARDA DEYİL...

T*əşbeh arama, təşbehin...*
Allahın, alın yazında.
Ot üstünə düşən şehin
Buxar olub uçmasında...

Bəlkə dalarsan səsinə
Açıq olsa könül gözün.
Nədir payız meşəsinə
Birdən-birə çökən hüzün...

Başın üstə bu nə baxış
Buludları qova-qova
Çisələyən günlü yağış,
Eynin tək açılan hava...

Təzə açılan çiçəyin
Gözündəki məna nədi:
Allah uzaqlarda deyil
Buralarda bir yerdədir.

Qızıl qumlar arasında
Nə deyir qaynayan bulaq:
Allahını gəzirsənsə
Gözlərimin içinə bax!
❖

BÜTÜN QAPILAR QAPALI

I
***A** z görmədik çoxlarından,*
Bu fələyin çarxlarından,
Yaş axar süd arxlarından
Fərhad dağları çapalı...

Gələni vara gətirdi,
Gedəni yoxa ötürdü.
Özünü salıb itirdi
Tanrını gəzib tapalı...

...Dünyaya gələndən bəri,
Bulmadım gəzdiyim yeri...
Tabut qapağından qeyri
Bütün qapılar qapalı...

II
Kimdi bizə naz satan
Satanın alanı var.
Bu bomboz həqiqətin
Sonunda yalanı var.

Yerə dəyən kürəyim
Yerin xoşuna gəlməz.
Daha yorğun ürəyim
Şerin xoşun gəlməz.

Nəydim, nə günə düşdüm,
Hanı üzümün nuru?
Mən andımı dəyişdim
Tanrım, özünü qoru...

...Ortaq olum qəminə
Götür gedim gəminə,
A şükür kərəminə
Neyi çox gördün mənə?

Bir vaxt şer yazardım,

Şeri çox gördün mənə.
İynəynən qor qazardım
Yeri çox gördün mənə.

Alnımdakı qırışlar-
Adəmdən qalan cığır.
Hansı qapını açsam
Ardından yalan çıxır...

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

SONUC

H *anı durna qatarı*
Unutduğum misralar?
Sonuncu qatar kimi
Ötüb keçdi son bahar.
Arxada batan günəş,
Qarşıda sonuncu qış.
Ölüb gedirim mənə
Bir az bahardan danış...
-Arxada soyuqdumu,
Öndə soyuqmu?
-Soyuq!
-Bayırda kimsə yoxmu,
Evdə kimsə yoxmu?
-Yox!
...Hənirtisi üzümdə
Ovucları ovcumda.
-Burdayam, qorxma desə
Bir adam baş ucumda.

❖

SONUNCU ÜMİD

Sonuncu ümid də közərdi, söndü,
İtdi möcüzəsi, bitdi ofsunu.
Sonuncu adam da xəyala döndü
Söndürüb sonuncu papirosunu.

Bu gecə his çəkir, həyəcan çəkir
Sonuncu odundan sonuncu ocaq.
Nə imiş qəlbimdən keçən ilk fikir
Sonuncu fikir də həmin olacaq.

Hardasa uzaqda bir it hürürdü,
Sonuncu sinədə sonuncu ürək.
Hardasa dərd yığıb, qəm süpürürdü
Sonuncu şəhərdə sonuncu külək.

Sonuncu duamı qulaq astığım,
Birinci kim olub, sonuncu mənəm.
Sonuncu şeirdi bəlkə yazdığım,
Bəlkə fikirlərin son ucu mənəm

Bu necə tənhalıq Allah,amandı,
Göydən "adam adam iyisi gəlir."
Yoxsa bu duyulan Sahib zamandı,
Yoxsa yer üzünün yiyəsi gəlir?

❖

ÖLÜM- YUXU GÖRMƏKDİ

*...**Ö**mür uzanıb gedər;*
İlk uşaqlıq köynəyin kəfən olana qədər.
Dərinə getmə!
Səni dərin gedəsən!
Dərinə getməkdi,
Dünyanın gedilməyən yerinə
getməkdi, ölüm..
Astarı üzə çevirməkdi.
Çıxdığın yerə girməkdi,
Yuxu görməkdi ölüm, yoxu görməkdi..
Vətən vətən, qürbət qürbətdi
...Biri o birindən bir azca sönük,
biri o birindən bir azca parlaq..
Ciyərin qürbətin ruhuyla dolu,
gözündə buludlar bir himə bənddi.
Bir bənddi ölüm.
Nə deyə bilərsən
Bir bənddə..
Ürəyin vətəndə
Bədənin qürbətdə...
Qürbətin qərib yeri,
bir edamlıq ip yeri...
Qədərdi bu, qədərdi,
bir göz yaşı qədərdi
ölüm..

..Torpağa su çökən kimi canına çökür ,
Əl-ayağına dolaşır,
Belini bükür
Zəhləni tökür
Xəbər verdiyi də yox,
gələndə birdən gəlir.
Gəncliyinin öldüyü
Yuxunun gəldiyi yerdən gəlir
ölüm…

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

SƏN DÜNYAYA GƏLƏLİ

Sən dünyaya gələli
Həyat deyilən şey
içinə düşən vaxtdı:
Səninlə yatıb, səninlə qalxır
Səni böyüdür, sən də böyüyür.
Ölüm sonuncu duracaqdı...

Vaht daralır göllənən,
lillənən suda,
Güllənən arzuda.
Tıxanan nəfəsdə,
ömür yıxan həvəsdə.
Bulud olub dolur.
Qar olub yağır,
yağmur olub çisələyir
Rüzigar olub əsir,
Və canından çıxmağa tələsir.

❖

AMAN, TANRIM

Atam yoxdu-ata,
anam yoxdu-ana...
Bircə sən varsan Tanrım.
Mən yoxdum-mən,
Dünyam yoxdu-
Dünya verdin.
Bədən yoxdu-buldum,
Ol-dedin,-oldum,
Gəl-dedin,-gəldim,
Və...bu dünyalıq oldum.

...Nəyim vardı-xərclədim,
Suyum vardı-içdim,
Canım vardı-keçdim.
Duzum vardı-yedim.
Sözüm vardı,-
Allaha şükür ,-dedim.
Daha kiralamağa
Nə məkan var,
Nə zaman, nə can, nə aman-
Tanrım, yol ver çıxım gedim...
Atam yoxdu-ata,
anam yoxdu-ana...
Bircə sən varsan Tanrım.

❖

HAYANDAN GƏLİM YANINA

A*llahım, qulunsam əyər*
Qanadını üstümə gər..
Ümidim daşlara dəyər,
Düşəndə əlim yanıma.

Ya bir kənara at məni,
Ya yenidən yarat məni..
Bu verdiyin həyat məni
Aparır ölüm yanına.

Ölən ölüb candan keçər..
Qalan qalıb yandan keçər,
Sənə yol hayandan keçər
Hayandan gəlim yanına?

❖

BEHANE…

S*efere çıxtığında yüz yol ölçüb biçersen*
Amma yene ne ise yadından çıxıb qalar.
Yolun bir menzilinde yadına düşmek üçün
Arxasınca silinmez bir iz buraxıp kalar.

Uza mı yaddaşlara uzanan bu mesafe
İçimizde bizimle nedir düşen acığa?
Ağlını başdan alar bir sual neçe defe:
Nedir yaddan çıxan şey ve niye yaddan çıxar?

Yüz defe etrafına gezdirsen de gözünü,
Fikrini toplasan da çantanı yığdığında…
Yene nese gizlenib unutturar özünü
Arxasınca geriye olub gayıtdığın da.

Unudulan her şeyin ardından giley çıxar
Çıxan yaddan çıxar ki, geriye dönen olsun…
Bu dünyadan köçende yadından bir şey çıxart
Geriye gayıtmağa sonra bahanen olsun...

❖

STALİNİN ÖLDÜYÜ GÜN

(5 Mart 1953)

M*əktəbə bir radyo gətirmişdilər*

Gələn xəbərlərə əsirdi hamı.
Adamlar başını itirmişdilər,
Ağlayıb başını gəzirdi hamı...

Nə sinif var idi, nə dərs, nə cərgə
Dönüb göl olurdu dərd dama-dama.
Mən də ağlayırdım hamıyla birgə
Niyə ağlayırdım, bilmirdim amma.

Məktəbdən dönürdük tərkində qəmin,
Baharın nəm çəkən yol palçıqdı...
Sibirdən sürgündən qayıdan əmim
Yerdənmi, göydənmi qarşıma çıxdı:

—Niyə ağlıyırsan, kim döyüb səni!
Boşuna susmağın yeri yox, gördüm.
Onsuz da göz yaşım satmışdı məni
—Stalin ölübdü, deyib hönkürdüm...

—Gör kimə ağlayır axmağın biri,
Bir dur, sənin ləyəm, ayə karmısan?
Onun var-yoxunu...Ağlama, kiri,
Ağlama, mən ölsəm, ağlayarmısan?
❖

BU DÜNYA
DAĞILDI GETDİ

Bu dünya dağıldı getdi
Yerdə nə qaldı görəsən?
Suları soğuldu getdi
Kürdə nə qaldı görəsən?

Dağı-qar idi, açıldı.
Yolu-dar idi, açıldı.
Nəyi var idi, açıldı
Sirdə nə qaldı görəsən?

Haqq sınağı yönüm oldu
Qəmi qəlbə qənim oldu
Hər əzabı mənim oldu
Dərdə nə qaldı görəsən?

Sorağına gəlib getdim,
Marağına gülüb getdim.
Nəyi vardı bölüb getdim
Yerdə nə qaldı görəsən?

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

EVİ DAĞILMIŞ

O *nədir girən yuxuna,*
Tələdi, evi dağılmış.
Anan səni varlığına
Bələdi, evi dağılmış.

Dünya fani, dünya tərgi,
Gedən nə geri dönər ki...
Ocaqda odunun ərki
Külədi, evi dağılmış..

Giysən, giyilməz əyinə,
Söysən, alarmı eyinə?
Hər insan öz taleyinə
Kölədi, evi dağılmış..

Gördünmü tələ-bələdi.
Ömrünü tələb elədi.
Bu dünya elə bələdi,
Belədi, evi dağılmış....

❖

HANSI KONŞUDASA
İNLİDEYİR UD

Y*egin ayrılıklar var sarı simde*
Hansı konşudasa inlidəyir ud.
Kafese salınmış kuştu içimde
Yetim tereddüt.

Yarımçık cümledi çiseleyen kar:
Geriye yol yok.
Neyi pıçıldayır göçeri kuşlar
Allahın elinin üstünde el yok..

Yaşılda sarılık…yakında uzak,
Her kesin behtine bir vade düşer…
Düşerse toprağa düşmez ki yarpak,
Payız budağından gurbete düşer.

Yokluktan varlığa yağan kara bak
Ağlık karalığa bes etti belki...
Budakdan düşmeye telesen yarpak
Çatmağa sonuncu mekseddi belki?
❖

VƏ... HAMISI BU...

Ayağı saya
Günün birində;
Gələr dünyaya.
Müntəzirində
Ata anası,
Qonum, qonşusu
Və.. hamısı bu..

Dünya şirindi
Hələ ki şirin
Yolunu gözlər
Öndə qan, irin
Ana döşündə
Südəmər quzu
Və.. hamısı bu..

Əyilməz başı
Günə əyilən.
Yolçusu naşı...
Ölüm deyilən
Dibsiz bir quyu
Və...hamısı bu..

Dön arxaya bax
Nəymiş bir ömür;
Yanan bir ocaq,
Sönən bir kömür:-
Zaman gürubu,
Və... hamısı bu...

Yük üstündə yük...
Sirr içində sirr
Dağılan fikir,
qarışan yuxu
Və... hamısı bu..

Qurtarar canı,
Xeyrat ehsanı
Gələnlər seyrək
İki bir, üç bir..

Üç-beş tikə ət,
Beş-on qaşıq su
Və... hamısı bu..

Yaman gözlərə
Batan ox oldu..
Yoxdu, var oldu,
Vardı, yox oldu..
Ey fani dünya
Üzünə tufu
Və.. hamısı bu.

❖

GETDİM, MƏNİ APARDI DƏRD

Getdim, məni apardı dərd
Zaman atında apardı.
Doğrusunda,yalanında
Zarafatında apardı.

Təkcə ilanmı soyulan?
Hər günü mənəm oyulan.
Adım adına qoyulan
Məni adında apardı.

Yazdığım yazı dilində,
Nöqtəsində, vergülündə,
Açılan qönçə gülündə
Quş qanadında apardı.

Ömür əsən yeldi, getdi.
Çaydı daşdı, seldi getdi .
Məni sevən öldü getdi.
Məni yadında apardı.

❖

QALIR

Ö*mür əldən çıxıb gedir*
Nəyi varsa yığıb gedir.
Su bulaqdan axıb gedir
Bulaq baxa baxa qalır.

Su durulur süzülürsə
Düyün yoldu, çözülürsə
Nə Allahdan kəsilirsə
Yenə də Allaha qalır.

Alışan yanmaya bilir.
Gedən dayanmaya bilir.
Yatan oyanmaya bilir
Ay yatıb sabaha qalır.

Əlindəsə, döz ürək döz.
Boşunamı kül olur köz?
Birindən kül, birindən söz
Hərədən bir soyxa qalır.
❖

BULUD OLUB SULANDIM

Sazda güç simə düşər
Nəvası kimə düşər?
Kölgən içimə düşər
Dayansam üzü günə.

Arı, məni sirrə çək
Bir ilahi şerə çək
Hislərimdən şirə çək,
Süzülüm üysüyünə.

Səndən əvvəl necəydim?
Bildiyin bilməcəydim.
Köynəyindən keçəydim
Dönəydim əski günə.

Bulud olub sulandım.
Gəzdiyini bulandım.
Barmağına dolandım
Yaxşı bax üzüyünə...

❖

GƏLİRMİ

Duman gözümə yatdı.
Ümidimi qapatdı.
Bura qar gəldi çatdı,
Ora da qış gəlirmi?

Hardadı dolan bulud?
Unuda bilsən, unut.
Əlini üzünə tut-
Gözündən yaş gəlirmi?

İki sinə, bir ürək,
Döyünür ürkək ürkək.
Qapını döyən külək
Əlləri boş gəlirmi?

Orda yurdum, yuvam boş.
Qoşa bildiyincə, qoş!
Yoxluğum yadlara xoş,
Sənə də xoş gəlirmi?

❖

TROYA ATINA BƏNZƏYİR İLHAM

Uzanır yuvada quş lələkləri,
Yol çəkər göylərin yeddi qatına.
Bağda cərgələnər toxum ləkləri,
Yaz yeni başlayır öz həyatına.

...Ağacda çiçəkdi, çiçəkdə arı,
Məmədə dodaqdı-təzə bar çəkir.
Gün döyür, əriyir dağların qarı.
Damlalar yamaca cığırlar çəkir.

Allahdan bir qara sevdadır bahar,
Ağaclar Tanrıya uzanan əldi.
Nəyi pıçıldayır göydə durnalar:
Sevin, sevilənə dünya gözlədi..

Çəməndə böcəklər verib səs-səsə
Köçən nəsillərin əvəzi gəlir.
Quru kötüklər də düşüb həvəsə-
Daşın da göyərmək həvəsi gəlir.

Göyərib qalxmışdım ata-anamdan-
Arzular canıma hücuma keçdi.
Gəncliyim şam idi, bədənim şamdan,
Nə varsa əriyib içimə keçdi.

Qulağım göylərin sirli səsində
Tanrının əlinin üstündə əl yox.
Sevilsəm...yaşımın bu vədəsində
Sevənə çirkindən daha gözəl yox.

Dilərəm göylərdən hər səhər, axşam,
Söyləsin dilinin ucunda nə var.
Troya atına bənzəyir ilham,
Gəlməsə, bilməzsən içində nə var..

❖

TƏBİƏT TALEDƏ
OXŞAYIB BİZƏ

T*əbiət taledə oxşayıb bizə*

Sabah nə gələcək başına bilmir.
Yaylaqda yay günü qar çıxar dizə
Xəbərsiz çiçəklər yaşına bilmir.

İlk körpə nəfəsi döyər köksünü
Bir gözəl yol gedər ana çağına.
O günəş, o yağış, o payız günü
Bir azdan dönəcək göyqurşağına.

Dərədə matorlar ildırım çaxır
Közərir qaynaqçı şimşəyi hərdən.
Kürsə aşağıda arxayın axır
Hələki xəbəri yoxdu xəbərdən.

Dünya sual dolu, müəmma dolu
Açarı yaranır alın tərindən.
Eh belə çıxır ki, hər ömrün yolu
Bir gün düşməlidir Xudafərindən.

Ötən ömürlərin sürəti iti
Ovçusu zalımdır, ovu da bilmir.
Həyat da deyingən qadın kimidir,
Gah küsür, gah səni ovuda bilmir.

Ömrü qurban elə obaya, elə
Bəlkə bu axşamın səhəri yoxdu.
Bu yol da dağlara dırmaşır hələ
Harda qırılacaq xəbəri yoxdu.

Təbiət taledə oxşayıb bizə
Sabah nə gələcək başına bilmir.
Yaylaqda yay günü qar çıxar dizə
Xəbərsiz çiçəklər yaşına bilmir.

❖

BƏXTİMƏ DÜŞƏN GÜN

Bacım Gülyaz'a

Ay bacı, az belə Allaha yalvar
Ay bacı, az belə baxtıma baxdır.
Yetər, dərd eləmə neçə qızım var,
Yetər, dərd eləmə uşaq uşaqdır...

De hansı xoşbəxtin qisməti yazdı
Dəyişən zamanın günü, ayıdır.
Az mənim bəxtimə gəl dua yazdır,
Pis günün özü də tale payıdır.

Varsa diləyini duyan ay bacı,
Suların üstündə axşam, səhər sən.
Qırışan sifətin, tökülən saçın
İlham əvəzini istə taledən.

Onsuz da pisliyin işi yerimir,
Sözümü yüz yerə yozanlar olub.
Halal zəhmətimi, alın tərimi,
Bəxtin ayağına yazanlar olub.

Çox olub bəxtindən küsən adamlar,
Ay bacı, az belə baxtıma baxdır.
Mənim pis günümü gəzən adamlar,
Mənim pis günümdə ağlayacaqdır.

www.kitabxana.net - Milli Virtual Kitabxana

Falçıya inanma! İnansa əgər
O bəxtsiz özünün bəxtinə baxar.
Ürək ağrısı da taleyə bənzər
Keyfi istəyəndə tutar, buraxar.

Ay bacı, az belə baxtıma baxdır
Onsu da ürəyim yanan fitiltək,
Aralıq ayına sancılan iltək
Bir gün kürəyimə saplanacaqdır,
Ay bacı, az belə baxtıma baxdır.

❖

ANA TORPAĞI

Q*ardaşlarım, o şən illər çıxdımı əldən*
Niyə sizə həsrət oldum, qardaş olmadım?!

Ayaq açıb uzaq düşdüm obadan, eldən
Köksünüzdə mamır basan bir daş olmadım.

Quru adım üstünüzə salarmı kölgə
Hərdən hərdən qulağıma çatar dərdiniz.
Eh nə bilim ayağınız olsaydı bəlkə
Şəhərəcən arxam ilə yüyürərdiniz.

Anamızı əlimizlə verdik toprağa,
İtkin düşən atamızın xəbəri var mı?!
Nədən vaxtsız xəzan əsdi bağçaya, bağa,
Ay ağ gilas, qızıl zoğal, şəftalı armud?!

Dili oğul söyləsə də qəlbi yar dedi,
Bu həsrətdən saçlarına çığır saldı dən.
O dünyada ulduzumuz barışar dedi,
Heç orda da öz əhdinə çatmayıb deyən.

O təpədə baş daşımı toprağı yaran,
Ya anamın onu gəzən həsrət əlidir.
O dünyada bu dünyadan qalıb nigaran
Arzusuna çatan kimi çəkilməlidir.

O təpədə arzularmı toprağı yaran,
Ya anamın məni gəzən əli çöldədir?!
O dünyada bu dünyadan qalıb nigaran,
Könlü məndə, köksü sizdə, gözü eldədir.

Anamızı əlimizlə verdik toprağa,
İtkin düşən atamızın xəbəri var mı?!
Nədən vaxtsız xəzan əsdi bağçaya, bağa,
Ay ağ gilas, qızıl zoğal, şəfalı armud?!

Mən gedirəm, sizə qalır ana toprağı
Ölənəcən xəbərimi daşıyarsınız.
Kökünüz ki, belə qucub ana toprağı
Siz yaşayın, milyon il də yaşayarsınız!

❖

KÖRPƏ HƏLƏ GÖYDƏDİR

K*örpə hələ beşikdə, körpə hələ qucaqda*
Körpə hələ göydədir.
Hələ yol gəlir, hələ əli yerə çatmayıb,
Ayaqları toprağa.
Sonra gəlib çatacaq durmağa, oturmağa.
Eləcə hələ uçur arzu qanadlarında...
Dili Allahın dili; gülməyi, ağlamağı...
Hələ göy adamıdır, bilmir yerin dilini.
Göylə yer arasında ömrünün ilk ilini
Keçirmədə.
Bir az ehmallı olun
İlk adımdan başlayır gələn uğuru yolun!
Bir az ehmallı olun qanadları sınmasın
Yerə qovuşmağına sonra hayıfsınmasın...
Gözü açıq olsa da hələ əli bağlıdır,
Hələ dili bağlıdır.
Necə olsa anadır ayağından yer çəkir.
Bir az ehmallı olun, üzü öyrəşənəcən,
Gözü öyrəşənəcən bu toprağa, bu yerə.
Birdən gəldiyi kimi uçub gedər göylərə...
Gözü yerdə açılsa, əli yerdə açılsa,
Dili yerdə açılsa olacaq Yer adamı.
Beləcə göydən yerə endiriblər Adəmi!
❖

VAR MI XƏBƏRİ

Yaranışı milyon il mi, bir il mi,
Yerişindən yerin var mı xəbəri?
Hara gedir bu gedişlə bilir mi,
Bir oyadın görün, var mı xəbəri?

Hardan gəlir bu ikilik, haçalıq,
Alçaqlara yoldaş olub ucalıq.
Bilməcədir bu uşaqlıq,qocalıq
Bu sirrindən sirrin var mı xəbəri?

Ömür keçər, ölüm gələr yaxına,
B u xınaya bənzəməz ki, o xına.
Biz də belə qoşularıq axına
Hara axır Kürün var mı xəbəri,
Bir soruşun, görün var mı xəbəri?
❖

GECƏ BİR QARA QÖNÇƏ...

Gecə bir qara qönçə,
açar günəş gəlincə,
Sonra qızıl gül kimi
çıxar qara qönçədən.
Səhər gələr dünyaya
günün qızıl saçından
Arzudan doğub gələn
həzin bir çalar kimi.
Uçar qara qarğalar,
uçar qoz ağacından

Gecə qaranlığından
qalan parçalar kimi...
❖

SİRLİ ÇEVRELER

D*ünyanı dolanıb geri dönende*
Belke heç özü de bilmeyib neden
Bir çevre çızmışdı Behlul Danende,
Demişdi:-Oğulsan çıx bu çevreden.

İgidler dediler:- Eh, bu ne sirdi?
Çevreden çıxmağa düşdüler yola,
Ne tez açılmağa sir telesirdi,
Ne Behlul Danende gelirdi yola..

Hevesi coşurdu insan oğlunun,
Qanı damarında dövr eleyirdi.
İnam deyirdi ki, çaşma yolunu,
Şeytan çızığından çıxma deyirdi.

Nehayet axtaran fikir yolları,
Gah köhne eradan geri qayıtdı,
Gah yeni eradan geri qayıtdı,
Marstan, Veneradan geri qayıtdı.

Sonra çevrelendi sirli çevreler
Sonra dövrelendi sirli dövreler
Fesiler dolandı, iller dolandı,

www.kitabxana.net - Milli Virtual Kitabxana

Sonra burulğanlar ve neler, neler...

Yox, dedik, çevreye sığa bilmerik,
Maqnit sahesiymiş bu yer, bu veten!
Çıxmaq istesek de çıxa bilmerik
Behlul danendeni çeken çevreden...
❖

GÖZ YAŞI QÜLLESİ

Amsterdam şehrinde deniz kıyısında " Göz yaşı kulesi" yücelir.Böyle diyorlar ki, kocaları tufanlı dalgalara gögs geren kadınlarbu kulelerle çıkıp göz yaşı akıtıb dua ederlermiş.Aklıma İkinci Cihan savaşından sonraki köylerimiz geldi, cebhe yollarına gözleri baka kalan köylerimiz..

***D**enizde balıkcı gemileri var,*
Gemiler denize çıxar her gece.
Qadınlar sahilde durub boylanar,
Erkekler tufanlı sulardan geçer.

Göz yaşı qüllesi ucaldın harda,
Hardadır çöreyi daşdan çıxanlar.
Deniz de yorulmaz, balıqçılar da,
Yorulmaz sahilde durub baxanlar.

Belece uzanar aylar, fesiler
İller de qışından, yazından keçer.
Sularda hesrete qovuşan iller,
Cavan gelinlerin nazından keçer.

Ümide çevrilen sahil uzaqdır,
Orda üfüqlerin bükük qeddi var.
Deniz de sulara çevrilen vaxtdır,
Qemin sahil adlı serhed xetti var...

Dadmışam Vetende bu intizarı,
Gör burada ağlıma gelirdi neler?
Eliboş qayıdan cebhe yolları,
Boynu eyri biten kendler, şeherler.

Gör nece tepeye çevrilib keder,
Cavan gelinlerin gönyeyi çetin.
Birce yaşlarından vaxt ötüb keçer,
Azalmaz menzili bu mehebbetin.

Axır arzusunu dile getirdi,
Ağlaya ağlaya gözden olanlar!-
Neyleyek bizimki bele getirdi,
Bize oxşamasın bizden olanlar.

Oyatma tezeden o yaddaşları
Onsuz da arzular çilik çilikdi.
Yollar kenarında qebir daşları,
Nakam mezarların qulağı dikdi.

Uyuyur sevincle, keder yanaşı,
Yerin bir üzü qış, bir üzü yazdır.
Göz yaşı güllesi her addım başı,
Sevinç gülleleri heyf ki, azdır.

Esger yollarının üstünde biten
Kendlerde göz yaşı gülleleri var.
Erleri bir zaman cebhede iten,
Qadınlar hele de Qerbe boylanar...
❖

BİR GİZİLTİ KEÇER ÇİÇEKDEN,OTDAN

***B**ir gizilti keçer çiçekden, ottan*
Külek de çemende ağ arı kimi.
Çıxar ağ göyerçin qara buluddan,
Çıxar ağ buludun açarı kimi.

Bir de neçe defe gülüm, ağlayım
Ünüm yetmeyecek o quşa bildim.
O filiz ağaca gönül bağlayım
Belki yaz ömrüne kavuşa bildim.

Qoy gelsin sabahda qalan illerim
Bu derdim azarım yalandı belke.
Günün şefeqine gönül tellerim
Bir gün yandı belke, calandı belke.

İç sübhün gözünden gün işığını
Çıxsın varlığından ağrı, acılar.
Görsen qöngelerin açıldığınıu
Belke derdinin de sirri açılar.

Ey yürek, ellerin nefsini sına,
Bir şefa gizlenib "sağ ol"da belke.
Dönüm tebietin bir parçasına
Yaralı gönlümü sağalda belke.
❖

PƏNCƏRƏNİM ÖNÜNDƏ
GÖZ YAŞI TÖKƏR PAYIZ ...

B*u səs mənim səsimmi, ya taleyin səsimi,*
Ruhun gizli sirri var hər insanın səsində.
Beləcə hər meyvənin içindəki tum kimi
Axtarsan Allah yatır hər sözün kəsəsində...

Ömür deyilən nəmi? Üfürdüm, keçdi getdi,
Həyatını yaşadım, ilişmişəm "və"sində.
Ümid Allaha qaldı, bəlkə Allah ümiddi
Nəyəsə ümidi var ən ümidsiz kəsin də..

Belə baxanda hamı dilənçidi dünyada,
Dilində "Allah" sözü fikri pul kisəsində...
Bir ömür verdin Allah, gözün qaldı arxada,
Candan başqa nəyim var, nə verim əvəzində..

Könlümə od salmada qədərin qürbət payı
Doğum ilim görünər istilik civəsində..
Pəncərənim önündə göz yaşı tökər payız,
Anam, bacım qüssəli şəkil çərçivəsində...
❖

GOYQURŞAĞI

Göy-gövsü-qüzeh,
Altdan keçəsən.
Ot üstündə şeh
Alıb içəsən.

Arzuya çatar,
Eşitmədin sən?
Göy qurşağının
Altından keçən...

Getmə desə də
Yadın-yaxının.
Ardınca qoşdun
Göy qurşağının.

Durdun, o durdu,
Qaçdın, o qaçdı.
Sən yarıyolda
O dağı aşdı.

Baxt gövsü-qüzeh
Baxan, çox oldu.
Ot üstündə şeh
Vardı, yox oldu.

Günün bələni
Aşan çağıymış.
Yetməyən arzu
Göy qurşağıymış.

Nə səmir, nə səs,
Nə gövsü-qüzeh.
Ömür nəydi bəs

Ot üstündə şeh...

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

İŞDİ QAYIDA BİLSƏN

İşdi qayıda bilsən
Bu yazın o üzündə
Ağ yelkənlər qaldırır
Gənçliyin su üzündə.

Bu yazın o üzündə
Bir üzü qara qış var.
Tutulan göy üzündə
Ağ yarpaqlı yağış var.

Göyləri bulud tutub
Sorğu-suala, bilmir.
Dünya nəyi unudub
Yadına sala bilmir.

İtirib harda saldın
Saldığın izə qayıt.
Buxar olub ucaldın
Su ol-dənizə qayıt.

Üşüm üşüm üşünür
Yağmur yağırsa-dəniz.
Yəqin səni düşünür,
Sənə baxırsa dəniz.

❖

BULUDLAR DOLMAĞI BAŞARA BİLDİ..

B *uludlar dolmağı başara bildi,*
Yağış, qar olmağı başara bildi.
Yoxdan var olmağı başara bildi,
Yoxdan var olmağı başar.

Qönçə gül olmağı necə başardı,
Yanıb kül olmağı necə başardı.
Saralıb solmağı necə başardı,
Saralıb solmağı başar.

Nə zaman torpağa verildi səda
Qarın qucağında gülü bir ada.
Beləcə qış yaza məğlub olmada
Məğlup olmağı başar.

❖

TEBİET TALEDE OXŞAYIB BİZE

www.kitabxana.net - Milli Virtual Kitabxana

YOL DARIXDIĞI YERDƏ

B *ir ilan kurşun gəzər*
zərbəsindən ölməyə,
Bir ruh bədən gəzər
yer üzünə gəlməyə...
Bir ilham misra gəzər
qoynunda dincəlməyə...

Bir qış qayıdıb gələr,
yaddan çıxdığı yerdən,
Bir kədər tüstülənər
evlər yıxdığı yerdən,
İkiyə haçalanar
yol darıxdığı yerdən...

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

...SİSLİ PAYIZ GECSİNƏ BƏNZƏYİR HALIM

Sisli payız gecəsinə bənzəyir halım
qədərə əl açıram yüz kərə gündə.
Bir birinin ağzına tüpürüb hamı
Hər tərəfdən "yox" cavabları gəlir
Üstümə
Yaşın altmışüçündə...
Duvaqqappadı sisli payız gecəsi
Səsindən asılıb anadil.
Hardasa dəniz var deyir
Qaranlığı iynə kimi
dələn qağayıların səsi
Qarşı yamaclarda
Ağız-ağıza verib qurdlar ulaşır: U u u.
Dərələrdə yatanlara
Həsəd aparır su!
Bu gecədən səhərə ağ cıxsam deyir zənci,
Sağ çıxsam deyir xəstə,
Gözümə nur gəlsə deyir kor,
Yoluma uğur gəlsə deyir dilənçi...
Gözünü qırpmadan gedir
Dünyanın axırına su .
Çıxa bilsə bu gecədən
Dərələr üzü sulu çıxacaq.
Bu gecədən sabaha
Qəmbərqulu çıxacaq...

Aradabir dağıdır
Dumanı, sisi;
Diri-diri torpağa bastırılan
Küçüklərin zingiltisi.
Fikrimdən çıxmır
Gözləri bomboş,
Məməmləri dopdolu
Ala qancıq.
İçimdə diz-dizə iki həpənd oturub
-Bura mənim yerimdi,-
o deyir sən çıx, bu deyir sən çıx...

❖

UNUDULAN LİMANLAR...

Ümidləri kul olub saqqalında, saçında
Buludu tüstü bilər vaxtsız sönən ocaqlar.
Qismətinə düşən nə qərib yol ayrıcında
Qatarları yan keçən səssiz dayanacaqlar...

Görünən əməlimi görünməz mələklərin
Ömürün durğun gölündə qəfil fırtına çıxdı.
Çox şey vardı içində gələcək diləklərin,
Bircə qürbət yoxuydu o da kartına çıxdı.

Gediş-dönüş yolları...Köçəri quşlar...Səma!
Göydən xəbər almada yer durna lələyindən.
Hicrət günortasından ömür düşdü axşama
Xəbəri gətirəni yox səhər gələcəyindən..

Gəcənin qucağında tənha bir bayquş səsi,
Özüne yadlaş gəzər əzik giley-güzarı.
Nə keçmiş geri dönər, nə gələcək gələsi,
Ürəyi, sevənlərin tərk edilmiş məzarı...

Sızım sızım sızlayar dağlanmış bir ney kimi
Duyğuları qürbətin yağmurundan, qarından.
İlham ənginlərində arayışlar peykimi
Yeniliklər boylanar əski misralarından!

Heç əzəldən yoxuymuş səsi-sorağı sanki,
Soruşsan xəbər verən tapılmaz həyatından.
Sahildə unudulmuş limanmış. Bir limanki,
Yan almaq gəmilərin çoxdan çıxıb yadından...
❖

GÜNƏŞ

G*ünəş batar, gündüzün*
ağlı başından gedir,
Köhnə yerin yadına
təzə bir axşam düşür.
İçindən çıxardığı
alov şamı əridir,
Əzabın işığında
qaranlıqlar görüşür.

Gəcənin kilidini,
Səhərlər günəş açar,
Çiçəyi göydən düşər,
Gül-çiçək açan yerin
Gün batar, arxasınca
Yerin ləzzəti qaçar,
Gedib nəyini tapaq
Ləzzəti qaçan yein?

Şam sönər, arxasınca
Günəş gedər yatmağa,
Göyün çəkdiyi əzab
Yerin xoşuna gələr...
Şam yanar, qaranlığın
Qanını qaraltmağa,
Gün doğar, yer üzünün
Ağlı başına gələr...

⌖

BAŞIMIN SAĞLIĞI YER...

O *bulağın gözləri*
Yaşımın axdığı yer.
Dünyanın gecə-gündüz
Tanrıya baxdığı yer..

www.kitabxana.net - Milli Virtual Kitabxana

Göyə aynadı içi
Tanrı içindən keçir..
İçir, içdikcə içir,
Yenir quraqlığı yer..

Balası-bal arısı
Dodaqla dil arası,
Allahla qul arası
Ölçər uzaqlığı yer…

Könlün göz-qulaq olsun,
Gözlərin bulaq olsun,
Ölsəm, başın sağ olsun,
Başımın sağlığı yer..

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

DURNA DİMDİYİNİN
UCUNDA BİR DƏN

Bir olan, hər şeyi başladı birdən
Günəş də axşamı səhər eylədi.
Durna dimdiyin ucunda bir dən,
Yoxluqdan varlığa səfər eylədi...

Hələ vaxt paragöz, sən ağzı oruc,
Əyriyə əl açan əlin qabarı...
Görürsən adını bilmədiyin güc
Səni qabağına qatıb aparır.

Ceviz ağacının gərzəyi-xına
Cevizlər ələnir bağçaya, bağa.
Tökülüb arxların payız suyuna
Gedər hayandasa ağac olmğa.

Əsirimi qədərin əlində bədən
Zamanın toru var dünya qəmində.
Allahın işidi harda hansı dən
Gedib kök atacaq hansı zəmində.

Bədənmi deyirsən? Neyləsin bədən,
Sabahkı cavanmı dünənki uşaq?
Yayın istisində əriyib gedən
Yox olan baharı kimdən soruşaq?

Ögey qardaşıdı gündüz gecənin
Arada görünməz göbək bağı var.
Haçansa torpağa səpilən dənin
Göyərib geriyə qayıtmağı var.

Sonra yolçu gedər yol uğurlanar,
Sonra dərd əlində qalan tək qalar.
Qürbətdən vətənə uçar durnalar,
Sənə də ardınca əl etmək qalar...

Bu təzə zamanda hər şəy köhnədir,
Bir olan, hər şeyi başladı birdən.
Bəlkə deyəsiniz bəs həyat nədir?
-Durna dimdiyinin ucunda bir dən!

❖

SİRR

Sübhün gözü yarında
Açılmağa tələsir.
Hər kilid açarında,
Hər quş yuvasında sirr.

Yüz ümidə bir vədə,
Bir "Allah kərimdədir".
Devin canı şüşədə,
Mənimki sirrimdədir.

Kim bağlayar, kim açar?
Yol da qoyar açmağa.
Açar ver, Sim-sim, açar,
Bu sirrimi açmağa.

Sevinc qəmə qarışıq,
Ömür də var, ömür də.
Bir ilahi ağ işıq
Yatır qara kömürdə.

Hər nəsnənin sirri var,
Sirri var hər ərənin.
Arxasında sirr yatır
Hər bağlı pəncərənin.

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

YOXDAN VAR EDİLƏN...

*-**N**eçin birdən saraldın,*
söylə, yaşıl çəmənim?
-Səni duymaqdan özgə,
bir işim varmı mənim?

-Neçin qaraldın, bulud,
mənim bəyaz çətirim?
-Ürəyindən keçmədi
sənə yağış gətirim?

-Yağdımı günlü yağış,
Doğdumu göy qurşağı?
-Ürəyinə dammadı
gəlib baxtına baxım.

Sübhün dan yellərində
Üç ilə beş arası:
O işıq, bu qaranlıq
Tanrının işarəsi.

-Tanrım, gündüz varikən,
niyə verdin gecəni?
-Bəs hardan tapasıydın
ürəyindən keçəni?

Varmı var olan, Allah,
Ya elə yox qədimmi?
-Sən səndən xəbərsiz
yoxdan var etmədimmi?
❖

İÇİMDƏ QIŞLAYAN DƏRD

B*aharın nəfəsi üzümə dəydi,*
Sirrini öyrənsəm nə idi dərdim.
Hardan gəldiğini bilə bilsəydim
Gedib bu dünyaya bir də gələrdim.

İçimdə qışlayan dərd bəxtəvərdi…
Məndən bəxtəvərlik umur çoxları.
Qönçələr bahardan gələn xəbərdi,
Döyər pəncərəmi tumurcuqları.

Damla damarları sökülər qarın,
Ərinə-ərinə qış çıxıb gedər.
Budağı qapımı döyən çinarın
Dibindən bir həzin su axıb gedər.

Görüncə açılan gül dodaqları,
Sənin də gəncliyin girər yuxuna..
Sabahlar ilahi gözüylə Tanrı
Baxar heyran-heyran yaratdığına.

Nə gözəl olurmuş yenidən doğuş!
Çəkilər içimdən dərd birdən-birə.
Ətcə balasına dən daşıyan quş
Mənə dimdiyində ümid gətirər.

❖

ALLAH AMANINDA...

Məkansız aşığın haqdır məkanı.
Nəsimi

***Q**ara səni basınca*
Dərd əkib, qəm suladın.
Dolaşıb arxasınca
Baxdını yamsıladın.

Döndün qürbət daşına,
Bir gün də Vətənə dön.
Dön, elin yaddaşına
İtiyi itənə dön.

Düşdüm mən də bir işdi
Diyar-diyar gəzəli.
Yollarımı dəyişdi
Baxdın görünməz əli.

Sorma, nəyin nəsiyəm
Gəl sözümü çevirmə.
Mən Allah bəndəsiyəm,
Mənimlə bəhsə girmə.

Uçurumdu hər yanım,
Təkliyin yanındayam.
Nə evim, nə ünvanım
Allah amanındayam.

❖

ÜMİD YERİ, HARDASAN

H*ardasa ümid yeri var,*
Arayıb soran olsa.
Hardasa çıxış yolu
Sonuna varan olsa.

Azmı bəxti gətirən,
Harda, nəsə var yəqin.
Ümidini itirən
Təsəlli tapar yəqin.

Nə gələn var, nə gedən,
Nə irəli, nə geri.
Ümidini qeyb edən
Özü bir ümid yeri.

Odunu oda yaxın,
İtik itiyə çıxar.
Yerdə yanan ocağın
Tüstüsü göyə çıxar...

Baxtın yığvalı yeyin,
Haqqı bulduğu yerdə.
Yada düşər hər şeyin
Unudulduğu yerdə.

Göncənin içində gül,
Arının içində-bal.
Hər sinədə bir könül,
Və hər könüldə xəyal...

Dünyada bir gözəllik,
İz dəyişir gözəllik;
Nə artır, nə azalır
Üz dəyişir gözəllik...

Bir zəminin sabahı
Gizlimi bir toxumda;
Ümid, harda-burdasan,
Nə işin var yuxumda?

-Nə əl açıb baxta yalvar,
Nə fal açıb bax tasa.
Hardasa ümid yeri var,
-Ümid yeri hardasan?...

❖

ALƏMİ BÜRÜYƏN QAR

A*ləmi bürüyən qar,*
Gün vurub əriyən qar
Necə də şirin-şirin
Hopub gedir torpağa.
Yoxsa bizi öyrədir
Dönüb torpaq olmağa...

Torpaqdan çıxan sular
Bulağa, çaya dönür,
Həftəyə, aya dönür
Uzanır zaman kimi
Alışan, bir gün sönür...

Bu payız-sarı yarpaq,
Tökülər yarpaq-yarpaq,
Yarpağın keyfinə bax
Nə can atır torpağa...
Bu yarpaq torpaqdımı,
Bu torpaq yarpaqdımı
Bu imişmi yaşamaq?

❖

ZAMANIN FİKİR ÇAĞI

Yermi alır nəfəsini,
Qarşına buxarmı çıxan?
Gün döyür, torpaq isinir,
Toxumdan baharmı çıxan?

Yenə yola salıb qışı,
Qılıncdan ayırıb qını
Coşan bulaqlar danışır
Torpağa qış nağılını.

Baxır buluddakı Ay da,
Köksünü ötürüb gedir.
Fikirdi dağdakı çay da
Başını götürüb gedir...

Çevrəsində açıb güllər,
Çiçəkdi yanı, yançağı.
Göyə güzgü tutan göllər
Suların uyuyan çağı...

Yatar hər şeydə bir sehir
O yanı, bu yanı yoxdu.
Yazır hər gəcə bir şeir
Açıb oxuyanı yoxdu...

www.kitabxana.net - Milli Virtual Kitabxana

Səhər gələn səda haqdan,
Səs-soraği gündən çıxır.
Toxumun qara torpaqdan,
Ürəyin köksündən çıxır..

Arı çiçəklərdən balı
Üsküklərə sirdi süzür.
Dağ adına dağ qartalı
Səmada fikirdi süzür...

Hər şey zərif, hər şey incə
Vaxtın belə bir çağıdır.
Dünyanın duyğu, düşüncə,
Zamanın fikir çağıdır...

❖

SAÇINDAKI DƏN İZSƏ

Gülüşü nar danəsi
Kədəri payız çəni.
O duman dağa çəkir
Ürəyindən kəçəni.

Bir ucu bir ucuna
Boğaz boyu gedər ki
Və hər axşam sularda
Günün açdığı sərgi...

Sular sənə aratmaz
Bənövşəni, nərgizi.
Gözlərində Günəşin
Axşam qürub sərgisi...

Nə var güzgüyə baxmağa
Əgər güzgü dənizsə.
Ölümün arxasınca
Saçındakı dən izsə...

❖

AĞAC

B*u külək hayandan əsir,*
Hardan gəlir bu hənir?
Ürəyimdən keçən fikir-
Budağında səslənir.

Yarpaqların yoxsa duyur,
Könlümdəki "bəlkə"ni?
Dən gəzən toyuq oxuyur
Dibindəki kölgəni...

Nə istəkdi, nə ehtiyac
Bir vaht ağlımı azmışdım.
Mənim adım hanı ağac
Onu köksünə gazmışdım?

Bəlkə tale acıxıbdı
O uzaq-puç ildə mənə.
Adım yadımdan çıxıbdı,
Adımı pıçılda mənə.

-Qazdın, sinəmə dağ çekdin,
Yazdın, adına ağladım.
Sən üstümə bıçaq çəkdin
Mən onu alıb saxladım.

Unutdun adın nə idi?
Böyüdü, yaram sağaldı.
Böyüdüm, adın böyüdü
Acı çəkmək mənə qaldı.

Bir də ki, mənə nə bundan
Bir zaman adın vardısa.
Alıb dilimin ucundan
Zaman onu apardısa?

Neçə yol baxdım yaxından
Könül yaraM.İsmayıldı.
Qaysaqlamış dodağımdan
Qopub dünyaya yayıldı.

Oxundu bəlkə min kərə
Mən onu öz adım saydım.
Onu verdim küləklərə
Mən onu düyaya yaydım.

❖

MEŞƏDƏ HƏR KƏSİN BİR AĞAÇ VAR

Toxumun göyərmək ehtiyacı var
Açdım ürəyimi ehtiyaca mən.
Meşədə hər kəsin bir ağacı var,
Tapşırdım canımı bir ağaca mən.

Tumurcuq həvəsi göyərsin məndə
Ağaç-əbədiyət yolum, yaşayım.
İnsan həyatıma ölüm gələndə
Məşədə bir ağaç olum, yaşayım.

Mənimdi ağacın saldığı kölgə
Bir yorğun yolcunun könlündə nuşam.
Özümdən xəbərsiz, kim bilir bəlkə
Birinci ömrümdə ağaç olmuşam.

Bu qədər açdığı çiçəklə, güllə
Nə alma yetişir, nə alça dəyir.
Görünür, arxamla atılan güllə
Gedib məndən öncə ağaca dəyir.

Mən burda, o uzaq meşədə qalsın
Fərqi nə palıtdı, qovaqdı adı.
Qalsın, devin canı şüşədə qalsın
Ama mənim canım o ağaçdadır.

Biçarə əzrayıl yolunu sapıb,
Qatıp bir birinə gündüz gecəni.
Adamlar içində arayıb tapıb,
Ağaçlar içində axtarır məni.

❖

TALE QUŞU

*...**G**ünəşmi qanad çaldı,*
Bəxtinmi doğuşuydu?
Göyərçindi, qartaldı,
Ya da tale quşuydu..

Qonmağa yer gəzirdi,
Gəlib yuxuma qondu.
Bu açılan nə sirdi,
Bu gəlinən nə sondu?

Sirrin fərqinə vardı,
Çırpındı var gücüylə.
Bir ağ kağız çıxardı
Lələyinin ucuyla.

Dodaqaltı deyindi
Dimdiyi-sul oxu:-
Bu sənin taleyindi
Açа bilsən, al oxu.

Yetər, gözlədin yazı,
Axır çərşənbə-yazdı..
Bəxtim kimi kağızı
Açdım ki, bəmbəyazdı.

Yoxsa haqqın səsiydi,
Yoxsa dərdin çarəsi.
Bilməm nəyin nəsiydi,
Ya...nəyin işarəsi.

Tanrım, bu necə qədər,
Tanrım, bu necə yazı?
Üçüncü gözümmü var,
Oxuyam bəmbəyazı...

www.kitabxana.net - Milli Virtual Kitabxana

Yuxu.. sirrin nəfəsi,
Üzümə toxunurdu.
Bəxtin sual cümləsi
Gözündən oxunurdu:

-Dil anlamaz asilər,
Mən deyim sən yaz,-dedi.
Tale göydə yazılar,
Yerdə oxunmaz dedi..

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

YARPAQ DÜŞDÜ BUDAQDAN ÖLÜMÜN SƏSİ GƏLDİ..

Y*az boylandı uzaqdan*
Payız gecəsi gəldi.
Yarpaq düşdü budaqdan
Ölümün səsi gəldi..

Payız son urasıyla
Bəxtini buldu getdi.
Bağların arasıyla
Qışa vuruldu getdi.

Eşitdinmi o səsi
Ölümün səsi mənəm.
Yarpaq bahar meyvəsi,
Məzar meyvəsi mənəm.

Mənəm düşən o yarpaq
Sonu gəldi ilkimin.
"Doğuldu" deyən dodaq,
"Öldü" deyən dil kimin?

Tabutumun taxtası
Boylanır hansı dağdan?
Qusul suyum yol gəlir
Görən hansı bulaqdan?

Gözümü bağlayan əl
Bəxtimi yazan əlmi?
Qədərimi yazan əl
Qəbrimi qazan əlmi?

Ver ölüb diriləni
Görüm asanmı ölüm.
Axırda tapdım səni
Tapmacasanmı, ölüm?

Mənə yol göstərməyə
Göndərdin dərdi bəlkə?
Bu ölüm şeirləri,
Səndən xəbərdi bəlkə...

❖

www.kitabxana.net - Milli Virtual Kitabxana

BURDA MƏN QƏRİBƏM
GÜNƏŞ DƏ QƏRİB...

Qara buludların qanadı qışda
Yarı qaranlıqdı, yarı işıqdı.
Aldırma, sevinclə qəm qarışıqdı
Bunu qəsd eləyir günlü yağış da..

Ölümə qonşuymuş qocalıq çağı,
Ölüm, qocalığa yağı-gələcək.
Öndə biganələr dayanacağı,
Ömrün sevilməyən çağı gələcək..

Payız nəğmələri durna tellidir
Yazın həsrəti var durna səsində.
Günəş də üğfüqdə bir təsəllidir
Şaxta var payızın son nəfəsində...

Payız buluduna bürünər şəhər,
Kənardan kim bilər evdə kim yatıb.
Beləcə axşamdan səhərə qədər
Döyər pəncərəni bayırda "tıp-tıp"

Ayağı üstündə yuxlar görər,
Xəyal dərd daşıyar dağ başlarına.
Yellərin dodağı yerdə sürünər,
Torpaq qapı açar göz yaşlarına.

Payız yağışları başladı bitməz,
Sorağı uzanıb gedər qışacan.
İnsan bu dünyaya gəldimi, getməz
Qalar son ümidə, son alxışacan.

Bir hənirti gələr öndən,arxadan,
Payızın yağışı, qışın qarıdı,
Yerdə ümidlərin könlünə yatan,
Göydə mələklərin dualarıdı.

Uzanır kölgələr bu axşam üstü,
Günəş çəkildikcə yer sərinləyir.
Kölgələr canından ayrılan hisdi,
Yarpaq qulaqları bizi dinləyir..

Dağın sümüyündə şimşəyin səsi,
Qığılcım oyanar çaxmaq daşında.
Suda sınıxıbdı narın kölgəsi
Baharın sevdası yayın başında.

Payız yarpağını tökür ağaclar
Töküb ayağının altını qoyur..
Baxar üfüqlərə bir ehtiyacla,
Boylanar bir az da uzansın boyu.

www.kitabxana.net - Milli Virtual Kitabxana

Şəfəqlər yamaca düşər çəpəki
Qarşı dalğalara çəkər kölgəmi.
İçində biletsiz sərnişin təki
Mənim düşüncəmi daşıyar gəmi..

Tanrı azanlara bir yol göstərib,
Günəşin dənizə saldığı izdə...
Çıxıb gədəcəyik hər ikimiz də,
Burda mən qəribəm,Günəş də qərib...

Bu payz, qabaqdan qalan bu qalıq,
Önündə çəkilməz hüzün-gələcək.
Ölümlə görüşə fağır qocalıq
Əli ətəyindən uzun gələcək.

❖

YARPAQLAR TÖKÜLDÜMÜ

Y*ay olanda dən kimi*
Su da gəhətə çıxır.
Yollara göz dikincə
Vaxt gəlir, vədə çıxır.
Hərlədəcək su hanı dəyirman pərlərini,
Aclıq əhdini kəsib
Pərən salıb pərini...
Elə ki axşam olur
Kənddə yayın yay çağı
Elə bil çay yellənib qaranlıgdan su sağır.

Yarpaglar töküldümü
əlini çək başına
Küləyə sinə gərir ağaclar tək başına
Məftillərdən asılıb baharın tənək ömrü.
Soyuglara qarışıb
Yayın kəpənək ömrü.
Yaylağın ağ dumanı çaylağın buzu gəldi.
Nə deyim, nəcə dəyim ömrün payızı gəldi.

❖

QUŞLAR XƏBƏR VERMƏZ MƏNƏ

D*aha yazın gəlişini*
Quşlar xəbər verməz mənə.
Yuxusunda arı görər
Güllər yuxu görməz mənə.

Dodağında sirr saxlıyar
Qönçələr açıb söyləməz.
Qar altından çığırlar da
Üstümə qaçıb söyləməz.

Çevrilib üzümə baxmaz
Şütüyüb yanımdan keçər.
Axar sular mənə axmaz,
Yaxan gün qanımdan keçər.

İçimdə gənçlik yası var,
Harda itirdim yazı mən?
Hər quşun bir yuvası var,
Qara qışın yuvası mən.

Dünyanın artıq yeri yox.
Mən də artıq yer tutmaram.
Nə fərqi var isti, soyuq,
Gəlsə də xəbər tutmaram.

Allah bağışlasın deyin.
Allah məni bağışlıyar.
Daha getməz uzaqlara
Qara qış məndə qışlıyar.

❖

CIĞIR

B*atır ot üstündə ayaq səsləri*
İttir meşələrə dirənən cığır.
Özünü arıyır nə vaxtdan bəri
Nə bir soraq gəlir, nə bir səs çıxır.
Baharda ağaca dırmanan çığır
Payızda otların altından çıxır.
Quruyan ağacım əl aç göylərə
Yarpaq dillərinlə Allaha yalvar:
Arx gəlir ağacın dibinə kimi
Ordan da ağacın başına yol var.

❖

BİR YOL OLA

B *ir yol ola bu dünyaya*
Qayıdıb başdan gələsən.
O dünyadan bu dünyaya
Elə bil işdən gələsən.
O bərkdən boşdan çıxasan,
Bu bərkdən boşdan gələsən.
Atalar üçtən deyıbdir
Atalar üçdən;gələsən.
Adam kimi gəlməsən də,
Ağaçdan,daştan gələsən.
Bir dəfə heçdən gəlmişdin,
Bir daha heçdən gələsən.
Bir yol ola bu dünyaya
Qayıdıb başdan gələsən.

❖

TÜTƏK OLUB
QƏM ÇALIR

Tütək olub qəm çalır
Dünənki qamış bizə.
Məhabbət var, görüş yox
Allah qargamış bizə.
İlham tükənib gedir
Tanımır yiyəsini.
Kim bulacaq ömrümün
Gənclik qafiyəsini?

❖

MƏN YAZA BİLMƏDİM QƏLƏMİM ACİZ.

M*ən yaza bilmədim qələmim aciz*
Sən mənim qəlbimdən keçənləri yaz,-
Yaz!

Yayılsın canıma sarı yağ kimi
Mənim də ruhumu yer üzünə yay,-
Yay!

Tökülən yarpaqlar nə deyir bizə
Axırda hamımız torpağa payız,-
Payız!

Görüm elə səni tez qocalasan
Sənmisən qonşunun etdiyi qargış,-
Qış?!

❖

BURAXIN MƏNİ

Göydə ulaşırdı qurdum bəlkə də,
Haqqın dərgahıydı yurdum bəlkə də,
Bir damla ilahi nurdum bəlkə də,
Gəldim, bu dünyanın toruna düşdüm
Nə uzaq anladı, nə yaxın məni,
Buraxın məni.

Tordu bu dünyanın əzəli, tordu.
Şöhrəti, şəhvəti, gözəli tordu.
Nə varsa, köhnəli, təzəli tordu.
Yaşamaq əlindən tora düşmüşəm,
Göz verib, gözündən tora düşmüşəm,
Söz verib, sözündən tora düşmüşəm,
Ürəyim nə yerə, nə göyə sığmaz,
Qəfəsə, geybətə, gileyə sığmaz.
Bəlkə aradığım ünvan səhv düşüb,
Bəlkə gələcəyim zaman səhv düşüb
Tutup bu dünyanın günahı məni,
Buraxın məni.

Gördüm ləzətini hər iki yanın,
İki söz arası qalan "və" sizin.
Dərdim ürəyinə yalan dünyanın
Ad sizin, san sizin, vəzifə sizin,-
Buraxın məni.

Soldu cavanlığın bahar paltarı.
Gəlib qocalığın məzar paltarı...
Çıxarın əynimdən bu dar paltarı,-
Buraxın məni.

Ürəyim dönəndə göy göyərçinə,
Qara daş düşəndə doğduğum günə,
Bıraxın, fələyin gedim xərcinə,
Buraxın məni.

Qələmim-durnalar salan lələkdən,
Kəlamım-yuxuma gələn mələkdən.
Mən özüm özümü açdım bələkdən,
Buraxın məni.

Qoy gedim, ünvanım dünyada qalsın.
Qayıtmaq gümanım dünyada qalsın.

www.kitabxana.net - Milli Virtual Kitabxana

Qalsın, yarıcanım dünyada qalsın,-
Buraxın məni.

Yaşamaq döndüsə vərdiş olmağa,
Qəm günə çevrilib, dərd iş olmağa.
Məni qoymadınız dərviş olmağa,-
Gördüm tutduğunu bir ahın məni,
Buraxın məni.

Yetər, ayağımdan dartdınız, yetər.
Yetər, ətəyimdən çəkdiniz, yetər.
Kimə qohum olub, qardaş olmağım,
Kimə dost olmağım, sırdaş olmağım,
Kiminsə başına bir daş olmağım
Kiminsə gözünə girdiyim yetər,
Qalsın görəcəyim, gördüyüm yetər...
Bir anlıq ayırın qulagı səsdən,
Ömrü yaşamaqdan, qəlbi həvəsdən...
Bu dünya qəfəsmiş—dünya qəfəsdən,--
Buraxın məni.

❖

AY QIZIM, MƏNİ DƏ
BİR AĞIZ AĞLA.

Aşıq Zülfiyəyə

M*ən elə qədərin qəm səfiriyəm,*
Hələ açılmamış Əli sirriyəm,
Bəlkə, yarıölü, yarıdiriyəm,
Ay qızım, məni də bir ağız ağla.

Göylər götürərmi bu felakəti?
Göllər göz yaşından azma ləkədir.
Yoxsa, köksündəki saz məlaikədi,
Ay qızım, məni də bir ağız ağla.

Kərəm oda düşər sən ağlayarsan,
Çökər Ərzuruma çən ağlayarsan,
Ağlasan, mənə də gün ağlayarsan,
Ay qızım, məni də bir ağız ağla.

Dumanlı havada qərib qəmi var,
Limana yetməyən sınıq gəmi var.
Dərdimi çəkməyə bir özgəmi var,
Ay qızım, məni də bir ağız ağla.

Köklə simlərini el qəmi üstə.
Bülbülün feryadı gül qəmi üstə
Memməd də Dilqəmdi, "Dilqəmi" üstə.
Ay qızım, məni də bir ağız ağla.

❖

YAŞ ALTMIŞA DAYANDI

N *ə biləydim nələr vardı qarşımda.*
İtik toxum göyərərmi hər şumda?
Zalım zaman cıdır açdı yaşımda
Nə alqışa, nə qarğışa dayandı.

Üzə durdum həyat adlı qənimlə,
Yazı xoşdu, qışı boşdu mənimlə.
Hara getdim zaman qoşdu mənimlə,
Harda durdum ölüm qoşa dayandı.

Ürək dözmür salındığı qəfəsə,
Üfüq yetməz insandakı həvəsə:
Sinəm gəlib bir udumluq nəfəsə,
Ömür bitib bir qarışa dayandı.

Ömür suydu, sular axdı payıza..
Açan yarpaq solacaqdı payıza.
Yarpaqlarnan döndü baxdı payıza,
Torpaqlarnan üzü qışa dayandı.

Rüzgarların şahı sınmaz telimdə.
Düşən yarpaq nə arıyır ölümdə?
Sayılası barmaq qalmaz əlimdə,
Payız qışa, yol yoxuşa dayandı,
Yaş altmışa dayandı.

❖

ALTMIŞ YAŞINDA BU DƏLİ

B*ir vaxt "beş-daş" oynayardı,*
"Top aldı-qaç" oynayardı,
"Çilik-ağac" oynayardı…
Hələ də söznən oynayır
altmış yaşında bu dəli…

Uşaq idi, uşaq qalıb,
Dünyaya baş-ayaq gəlib;
Dünyanın dərdi önündə
Hələ də baş-ayaq qalıb.

Gedib gül ilə oynamır,
Şirin dil ilə oynamır…
Əli pul ilən oynamır
Altmış yaşında bu dəli..

Sözlərə qarışıb başı,
Sözdü qoxumu, qardaşı.
Ağılsız söznən uğraşır
Ağlı başında bu dəli…

❖

TÜTƏYƏ DÖNƏCƏK QAMIŞ...

Tütəyə dönəcək qamış,
Bilirəm ahı sevirsən.
Sinənə dağlar çəkilir
Çəkilən dağı sevirsən.

Nə payızdan umacağın,
Nə yazda gülün açılır.
Sinənə dağlar çəkilir,
Sonra da dilin açılır.

Möcizə yaratıb Xuda
Hər dağından bir səs çıxar.
Ota səs verib oxuda
Çıxan belə əvəz çıxar.

Tütəyə dönəcək qamış,
Neçin bəs ahı sevirsən?
Yerdə dizinəcən qarı
Göydə Allahı sevirsən.

Mənim də çatdı axırım
Ölümüm üzümə güldü.
Bir azdan səsim çıxacaq
Boyuma qamış ölçüldü.

Mən də bir qamış olsaydım
Sinəsi yanmış olsaydım.
Çalan tapılardı məni
Ürəyə dammış olsaydım...

❖

BİR CƏNAZƏ YOL GEDİR...

***B**aharı qoyub gəldim*
bir gün yol ayrıcında
Açılan qönçələrin
tökülən ləçəyində.
İlğımlı yollar boyu
arxamdan qovan yazı
Yaşıllığı göz kəsən
bağın girəcəyində.
...Yol yorğunu-son bahar,-
dodağı çatlayan nar
Sızım sızım sızıldar
qəlbimin göynəyində.
Qışı yaza çıxardım
bir payız köynəyində.
Geyilmiş patlar kimi
vaht əskidi əyində.
Bir cənazə yol gedir
ömrün gələcəyində..

❖

SƏN MƏNƏ BU
QIŞI TƏRCÜMƏ ELƏ

B*öyüdük, illəri yerinə qoyduq*
Mən özüm uduzdum mərcimə elə.
O yazı anladıq, bu güzü duyduq,
Sen mənə bu qışı tərcümə elə.

Adəmin sürdüyü köçdən gəlmişəm.
Atalar üç deyib, üçdən gəlmişəm.
Mən elə ilahi bürcdən gəlmişəm, -
Dönərəm ilahi bürcümə elə.

Ölərəm, yüz arzu-kam yandırarsan.
Yarımçıq ömrümü tam yandırarsan.
Həftədə bir kərə şam yandırarsan,-
Qayıdıb gələrəm hər cümə elə.

Ay Məmməd, fələknən mərc eləmişdik,
Dərd satıb, qəm alıb xərc eləmişdik.
Gələndə bir ömür borc eləmişdik,-
Gedərik fələyin borcuna elə.

❖

GƏLƏCƏK...

Yollarda yorulan arxada qalar
Amma inadından dönməz yoxuşlar.
Yumurta qabığı yuvada qalar
Çıxıb gələcəyə uçanda quşlar...

Bizə gün doğursa sabaha yaxın
Eşqin anasımı deyək gecəyə.
Külü keçmişlərə qoşar ocağın,
Tüstüsü "gəl" deyən bir gələcəyə...

Yaz gəlib keçmişin yadına salar
Gizli sevgisini torpaqla dənin.
Salxım çiçəkləri budaqda qalar
Ətri gələcəyə uçar iydənin.

Gecəmi öyrənək girib yuxudan
Gündüz bu sualın cavabı yoxmu?
Buxarmı daşlanır qaynayan sudan,
Bədəndən göylərə ya da bir ruhmu?

Ağacın gələcək meyvəsi şirin
Keçmişi tökülən çiçəyindədir.
Tək bircə misrası qalan şairin
Əli gələcəyin ətəyindədir...

Arının mənzili gələcəkdisə,
Keçmişi gözləri dolan pətəkdi.
Musanı dağlara çəkən nəydisə
Məni də qürbətə o çəkəcəkdi...

Sular çağlamada gələcək deyə,
Gələcək eşqiylə göyərmədə dən.
Çıxdınmı, dönməyə yol yox geriyə
Bağışla, yumurta qabığı,vətən...
❖

MƏNİ UNUTMAZSAN
O DÜNYADA DA...

Bacım Gülyazın əzizi xatirəsinə

Yuvası saxlayar quşu budaqda
Boş qalan yuvanı su aldı, bacım.
Mənimki aranda, səninki dağada
Niyə yurdlarımız boş qaldı, bacım?!

Tale üzümüzə gülmədi nəsə
Sərsək, örkənində durmaz darımız.
Atamız getmişdi gedərgəlməzə
Vurub ona çəkdi övladlarımız..

Qəhrini çəkməzdim qarlı qışların,
Neçəki dilinin duası vardı.
Bulaqlar başında yalvarışların
Vətəndən qürbətdə gəlib çatardı.

Ölüm mələyinin bağrı daş olub
Həsrət əlləriylə ayırdı bizi.
Nə belə sevilən bir qardaş olub,
Nə belə tükənməz bacı sevgisi...

Arasam, sevigni yox ki heç yanda
Daha bir kimsəyə çatmaz ki, ərkim.
Nə dağda qalıbdı, nə də aranda
Başıma haranın daşını töküm?

Çəkilə-çəkilə dərd azalarsa,
Çəkim, qürbət adlı qərib adada...
Deyilən kimsə, o dünya varsa,
Məni unutmazsan o dünyada da...

Sən getdin, əllərim qaldı əllərdə
Dərddən bir tərəfə yol yox ki, qaçım.
Məni bunnan sonra qürbət ellərdə
Kimin alxışları qorusun, bacım?

❖

YETMİŞ İL YAŞADIN
AXIRI DA BU...

B*u yaşda fikrinə yağan nə qardı,*
Gənclik çağlarından ələnir həm də.
Sən olan zamanın qulağı kardı
Eşidən deyildi nə söyləsən də...

O hansı nəfəsdi qarı əridir
Donu olmayanın buxarı olmur.
Dağlar dərələrin həsəd yeridi
Böyük olanların dostları olmur.

Gözündə vətən də qürbət donunda
Cavabsız sualın niyəsi oldun.
Vardan kəsirin yox, ömrün sonunda
Bir sürü qan-qarğış yiyəsi oldun..

"Bir gün" düşünmüşdün çatdı o "bir gün..."
Hər kəsin qəlbinə damanı gəldi.
Yaşaya yaşaya axırda ömrün
"Bu gün var, sabah yox" zamanı gəldi.

Bu yorğun vücudun ruhuna yükdü
Salanlar nəyini salacaq yada...
Vətən, sən gələndə boynubükükdü,
Boynu buruq qalır səndən sonra da.

İşıqda qaranlıq! Nədir bu qayda
Şər yoxsa xeyir də yox olub gedər..
Hə şeyin sonu var, ən uzun çay da
Hardansa başlayıb hardasa bitər..

Qışın sazağında buza dönənsən
Bir də ümdini birə beş qala.
Allah amanında, taledi, sənsən
Bu fani dünyada kirəkeş qalan..
❖

BİZİM ARAMIZA DAVAYDI DÜŞƏN

***B**ir arzu var idi gedib çatmağa*
Fikirdə aradım, mənada gəzdim.
Ata oğul istər yurt qaraltmağa,
Düşüb ömrü boyu mən ata gəzdim...

Solsa, bir dəfəlik solmur ki solan,
Bir gün boşalanlar dolmaq istəyir.
Bir dəfə olmur ki, bir dəfə olan
Qayıdıb bir daha olmaq istəyir...

Bu qədər insafsız olarmı günah,
Zamanə bu qədər qədirbilməzmi?
Yetimlik nə imiş mən bildim, Allah,
Oğul, atasızlıq nədir, bilməzmi?

Bir ömür bəsimdi verdiyin bu qəm,
Vermə, sənə qalsın, dedim-qalanlar.
Atasız nə çəkdim bir mən bilirəm,
Nə çəkər atalı yetim qalanlar?

Sən yoxsan mən isə yoxla görüşən,
Atam, qənim mənəm qənim arama.
Bizim aramıza davaydı düşən,
Nə düşüb nəvənlə mənim arama?

Açılar illərin açdığı ara,
Taleyin əlləri saxta pul kəsər.
Mən ata gəzərəm düşüb yollara,
Hardasa məni də bir oğul gəzər...
❖

BES BU DERD
HAYANDAN GELİR?

***G**urbetin kalp kırıklığı*
Garipliğin son haddi mi?
Yüzü duvara bir uyku,
Duvar, veten serheddi mi?

Canın gezer cevabını
Havada hasret iyi var.
Boşuna dövmür kapını
Yelin de bir bildiği var..

Ömür petekti, vaht arı
Öten güzler, gelen kışlar..
Düşündün mü ne aktarır
Pencerene konan kuşlar..

Yüreğin behtden deyinir

Teselli yerin "eger"mi?
Dilinin demediyini
Gözünün yaşı deyer mi…

Arkada yalançı vade,
Önde yoksul gelecek mi?
Avuçların gicişmede
Eline pul gelecek mi?..

Bir gün ölsem, deyersiniz
Ölmədi, rahmətə gitti.
Dönüp gurbetten gelen iz
Yine de gurbete gitti...

Deyirler yer kulaklıdır
Geçip de bunca engeli
Kapın, penceren bağlıdır
Bes bu dert hayandan gelir?

❖

GÜL

Suyunu verdim,
Toprağını verdim
Arada gözümün yağını verdim.
Əsrigəmədim heç nəyini.
Böyüdkcə dəyişdirdim dibçəyini..
Yaşın qürbətin yaşı
Uzandıqca uzandın.
Gedib tavana çatdın.
Deşdirə bilsəydim
Bir üst qatdakı evin tavanını
Qurtara bilirdim bəlkə
Kəsilməkdən canını.
İndi boş qalan yerin
İçimi yandırmada
Ömrümün vətəndə boş qalan yeri qədər…
İstər ağla, istər gül…
Gül,
mən yox
Öz boyun oldu yağın.
Sən boyundan oldun, mən vətənimdən
Sonu buymuş ucalmağın…

❖

BİR DƏ SƏNİ SEVSƏM
SƏNƏ SEVİLSƏM...

QƏM YEMƏ DƏLİ GÖNÜL

Mələklərin qatında
anılan adın olsa,
Tanrılara uçmağa
ilham qanadın olsa,
Və səni bu yaşında
sevən bir qadın olsa
Qəm yemə dəli gönül,
məni içimdən yemə...

❖

ÖMÜR MİSALINI YELƏ ÇƏK DAHA

Ayrıldıq! Tükəndi ümid yeri də
Ömür misalını yelə çək daha.
İrəli deyilən qaldı geri də
Öləcək yeridi gələcək daha...

Ölüm sabahına sökülənda dan
Vaxt sənə bir şeylər dedimi keçdi?
Aramız açıldı.Bu aralıqdan,
Şeytanmı sivişdi, kədimi keçdi?

Qürbətə düşənlər unudularkən

Qara günümüzə bəyaz geyən var.
Arada bu qədər məsafə varkən
Bizə araları yoxdu deyən var...

Gedib özgəsindən soruşma vaxtı,
Solan çiçəkləri dolan bar bilər.
Eşqin çıxış yolu niyə çıxaqdı,
Girib aramızı vuranlar bilər...

Boşuna düşdüyün nə həvəs idi,
Peşinə düşdüyün nə köçdü belə?!..
Bizim aramızdan su keçməz idi
Bizim aramızdan nə keçdi belə?!
❖

QADIN...

Siqaret kimi bir şeydi qadın
Əvvəl o səni özünə çəkər,
Sonra sən onu özünə çəkərsən..
Tüstün təpəndən çıxar,
Bəylə bostan əkərsən..
Buna sevgi deyilməz.
Başqa nə ad verəsən
Ya vərdişdi, ya adət,
Çəksən bir dərddir,
Çəkməsən başqa bir dərd...
❖

SARALAN YARPAKLAR
BUDAKTA KALMAZ…

Çin olur kalbine daman bilirdim,
Ne vardı, yenidən kalbime damsan.
Ben seni gelecek zaman bilirdim
Ayılıp gördüm ki, geçmiş zamansan...

Bir fırsat aktarar elden çıkmağa,
Görmeyen görenden sorsun nedi var..
Yarpağın budağa, sözün dodağa,
Suların sahile heyaneti var…

Öttü güz, yetti kış, sonunda bildin,
Günü ah olanlar günahta kalmaz.
Sen benim yadımda kalan değildin
Saralan yarpaklar budakta kalmaz…
❖

DÜNYANIN ƏN BÖYÜK MƏĞLUBİYYƏTİ

Bir qadın uğruna qazanılar
Dünyanın ən böyük qələbəsi
Sonra o biri qələbələr,
Gələr…
Amma yenə də
Qadın xəyanətidir
Dünyanın ən böyük xəyanəti.
Və qadına yenilməkdi,
Sevib, sevilməməkdi
Dünyanın ən böyük məğlubiyyəti…

❖

PAYIZIN YELLƏRİ BƏHANƏ İMİŞ...

***B**əlkə qönçəsindən çıxmazdı çiçək,*
Aldanıb səhərin yelinə gəldi.
"Əlvida" deməyi bacardı, demək,
Qəlbindən keçənlər dilinə gəldi...

Çiçəkdən çiçəyə gedib gələndi,
Həyat fəlsəfəsi- "bəyən, at" sözü.

Onun misalında qafiyələndi
Qadın bədəniylə "xəyanət" sözü.

Bilərsən qəlbindən gəlib keçəni
Eləki saçının rəngi dəyişər.
Əvvəlcə bədəni dəyişər səni
Sonra da telefon zəngi dəyişər.

Əzəldən kül alta qalan közüydü
Sona saxalamışdı ürək sözünü.
Əvvəl qadınlığın mələk üzüydü,
Sonra da göstərdi şeytan üzünü...

Təzədən bir fürsət düşsə əlinə
Edən etdiyini daha bəd eylər.
Qoşulub payızın xəzan yelinə
Yarpaqlar bahara xəyanət eylər.

Arzusu oğurluq bir görüşdüsə
Əlinə düşəcək ilk fürsət yetər.
Hardansa ağlına bir şey düşdüsə
Bədəni ardınca qul olub gedər...

Payız hesabımı keçmiş anların,
Bahar tapdığını itirmiş demək..
Önü "sədaqətlə" başlayanların,
Sonu xəyanətlə bitirmiş demək.

Bilmədik hər dərdin dərmanı vaxtmış.
Yanıb yaxılmalar daha nə imiş...
Onsuz da o güllər soluxacaqmış
Payzın yelləri bəhanə imiş...
❖

SİZ GEDİN...

Sən mənə bağlısan, ölsəm, ölərsən,
Məni bu dünyaya gətirən eşqim.
Sevgisiz sən kimsən özün bilirsən,
Sevgisiz mən kiməm,
mən kimim,heç kim...

Dəysin ürəyimə düşmən gülləsi,
Şehli çəmənlərə yıxılıb yatım.
Dönsün damarlara rüzgarın səsi,
Qanlı damlalarla sönsün həyatım...

Damlalar cismimi toprağa tiksin,
Baxtımdan qaralsın ağ buludları.
Çəmənlər üstünə uzanıb yatım,
Uzanım, qanımı içsin otları...

Ömür əvəzinə içsin qanımı,
Torpağın canında acıq qalmasın.
Ölüb məzarımı üstümə çəkim,
Qürbətin qapısı açıq qalmasın...

Vətən yoxluğumu duysun anında
Fərqi nə, bədənim qürbətdə yatsın.
Mən yatım, baxtım da yatsın yanımda,
Bir az aralıda şöhrət də yatsın...

Siz gedin, bu gecə mənimlə qalsın,
Qalsın buludları göz yaşlarıyla.
Kölgə saqqalıyla qarşı dağları,
Göyü ulduz-ulduz baxışlarıyla...

❖

YA DA BİLDİYİNDƏN ÇOX BİLİR QADIN

Əvvəli yelinə uçar bir adın,
Çatdımı? İrəli qalar geridə.
Sevdiyi adamı sonunda qadın
Gedər itirməyə tapdığı yerdə...

Kimsə yox, özünə şahiddir özü,
Duysa bir özgəsi: ucuz qalmaqal.
Qalar yenildiyi yataqda gözü,
Gedər özgəsini tora salmağa.

İçində beş gündə çıxar beş ərdən,
Çölündə nəyi var silib saf eylər.
Yanılıb gəzdiyi adama hərdən
Sevdiyi adamdan etiraf eylər.

Hərdən inadının düşər bəhsinə
Könlü istəyəni dili qaytarar.
Salar saldığını eşq dərəsinə
Diri aldığını "ölü" qaytarar.

Eşqi topuğuna vurana yaxın
Ağzını tutmasan bağırmaq istər.
Axşamın suçunu gələn sabahın
Gözündə təmizə çıxarmaq istər...

Orda nə sən varsan, nə tale yazan,
Sonrası solaxay xəyanətindi.
Əlində olanı itirmək asan,
Qayıdıb yenidən tapmaq çətindi..

Yaşını gizləyir, adını demir,
Hələ uzaqları yaxında bilər.
Bəlkə azadlığın dadını demir,
Maqnit sahəsindən çıxanda bilər...

Nə unudulmaq var, nə yada düşmək,
Nə dinmək asandı, nə susmaq çətin.
Çətindi özünlə inada düşmək,
Özünlə mərc kəsib uduzmaq çətin..

Kimdən öyrənəsən yox bunun elmi,
Yüz sirrə hamilə olar bir qadın.
Bir də görürsən ki ya heç nə bilmir,
Ya da bildiyindən çox bilir qadın...

❖

SƏNİ

***B**ir dərdin peşində ölüb gedərdim.*
Bir dağın döşündə ölüb gedərdim.
Yaşın on beşində ölüb gedərdim
Səni gözləmişəm, bəlkə də səni.

Səni ümidimi kəsib tapmışam.
Küsəyən bəxtimdən küsüb tapmışam.
Şeir diyarından gezib tapmışam
Tapmışam bir ayrı ölkədə səni.

Örpəyin olmağa çən həsrət çəkər.
Çiçəyin olmağa dən həsrət çəkər.
Kölgəyə çəkilsən gün həsrət çəkər,
Sevər gün də səni, kölgə də səni.

Yaş ötüb, arxamdan zaman sıxsa da,
Acığa düşərim ,bu acıqsa da.
Qoy çıxsın yolunda canım çıxsa da
Ürəyim unutmaz hiç vədə səni.

❖

MƏNİ

***Y**adına düşərdim, düşərdim hərdən*
Amma saxlamazdın yadında məni.
Adının üstünə neçə ad qonub
Sevib beyenmedi adın da məni.

Sən necə yol kəsib, zaman əylədin.
Başımda saçımı duman eylədin.
Bilmirəm heç nəyə güman eylədin
Yandırıb yaxmada odun da məni.

Dedim dərdin alım, dərdim almadın,
Gözümlə odları gördüm, almadın.
Verdim ürəyimi, verdim, almadın,-
İndi alammazsan satın da məni.

Mən imdad dilədim sən yaxa çəkdin,
Gah vara üz tutdun, gah yoxa çəkdin,
Günahsız könlümü günaha çəkdin.
Aldadıb bir şeytan qadında məni.

Əslimi soruşma, sevgidi əslim,
Mən ona təsliməm, o mənə təslim.
Ay payız baxışlım, bayatı gözlüm,
Sıxma qaşlarıyın çatında meni.

Yerlərə sürüyür cismimi şəklər.
Ruhumu göylərə çəkir mələklər.
Bu dərdlə hayanda dəfn edəcəklər,
Tanrının neçənci qatında məni?!

❖

SEVİLMƏK ÖYRƏDİRSƏN

Torpaq olsan dünyanın
ən əziz yeri sənsən .
Nəğmə olsan dillərdə
Səslənən şeri sənsən
Göy üzünü dolaşan
İki tənha ulduzun
Birini söyləməzlər,
Mən bilən biri sənsən.
Günəşə-dan yerisən,
Hiss, həyəcan yerisən.
Dünyanın ən işıqlı,
xatırlanan yerisən.
Xatirəsən, xatirsən.
Gəcə-gündüz dünyaya
Sevilmək öyrədirsən.

❖

EŞQ

Süd arxı çəkirdi Fərhad Şirinə,
O nə süd arxıydı sormadın, gözəl.
Getdin özgələrin görüş yerinə,
Sən onun fərqinə varmadın, gözəl.

Kaşki yetməyəydi, yetdi hədəfə,
Önündə Gün çökdü, Ay parçalandı.
Bu onun kəşfiydi bəlkə ilk dəfə:
Bomboz həqiqətlər apağ yalandı...

Bilərdin qismətin hansı biridir,
Bir gözdə görsəydin iki görüşü.
Bəlkə də bu dünya günah yeridir,
Gələn bu günahın toruna düşür.

Nə varsa keçmişin ayaq səsində
Üzünü bozardar saçında ahın.
Hələki könlünün bir köşəsində,
Təzə yer eləyir köhnə günahın

Çəkir sevənləri sınağa Tanrı,
Hər kəsin suçunu üzünə çəkir.
Mayası çamurdan yoğrulanları
Şeytan gölməçəsi özünə çəkir.

O dünya, bu dünya, hardadı sərhəd,
Bisutun dağımı qılınca gəlib?
Orda yaddan çıxıb qalıb həqiqət,
Gələn yalanların dalınca gəlib..

Eşqin yaranışdan boynu bükülü,
Sevginin sirdaşı dərddi köhnədən.
Nədən yer üzünün ən gözəl gülü,
Gedib bataqlığa kök atır, nədən?

Axırda pərvanə aldadır şamı,
Sorma niyəsini-son niyəsizdi...
Başını şəhvətlə girləyir hamı,
Düşüb yerdə qalan eşq yiyəsizdi...

Bu dünya kimləri dərdə salmadı?
Fərhada dönürmüş sevgi yasaqla.
Ona yaşamağa bir yer qalmadı,
Onu heç olmasa yadında saxla...

❖

YOXUN VARLIĞI

S*ən olsan, zamanın nə həddi vardı,*
Tanıya qapımı ixtiyarlığı.
Sən yoxsan, arada qürbət divardı
Məni yox etmədə yoxun varlığı..

Qürbətmi, qismətmi araya düşən,
Düşüb eşqimizi fəs edib demə.
Zalım zərurrətdi bizi bölüşən,
Gəl bunun adına təsadüf demə.

Falçının falında yanıldı zəndi,
Tale də bir ayrı yeriş yeridi.
Sənin həsrətinə qürbət vətəndi,
Ayrılıq səninlə görüş yeridi.

Mənəm qəribsəyən qürbət qarında,
Baxıb əl eyləyən yaz başında sən..
Qarışan yuxumun göz yaşlarında,
Yatdığım yastığın yaddaşında Sən!

❖

SEVGİ

Səndə murazına çatdı vaxt, vədə,
Sevən ürəyimin səndin ilk haqqı.
Bilmirsən, aradan illər keçsə də
Boynumda haqqın var, şairlik haqqı...

Getdin, ıraq oldun, ortaq olmadın,
Yolumun yoldaşı sonsuz bir dərdə.
Olmadığın yerdə həsrətdin, qadın,
Bilməm nə olmusan olduğun yerdə...

Verdiyin o dərdin dalınca getdim,
Çoxaldı dünyada bir adı batmış.
Etdim, qədərimlə zarafat etdim,
Qədərlə zarafat pis zarafatmış...

Sevib, sevilməmək bir aldanışsa,
Və...sonra önündə ümidsə çağlar...
Yaxşısı budur ki, susum.Danışsam
Gedib gözlərində xatirəm ağlar...

Çəkilməz həsrətin- saçımdakı dən,
Ağlıma gələnlər başıma gəlmiş:
Sevdiyin gözəlin bəlkə özündən,
Uzaq xatirəsi daha gözəlmiş...

Sağalmaz yaraymış sevgi yarası,
Əlim nə arana, nə dağa çatar.
Xəyalım qürbətlə vətən arası,
Yollarda başını girləyən qatar..

Tale gözü qıpıq, ömrün dadı yox,
Nə varsa tükənib getdi səhvlərdə:
Biz tərəflərdə bunun adı yox,
Bilməm nə deyirlər siz tərəflərdə...

❖

BİR DƏ SƏNİ SEVSƏM, SƏNƏ SEVİLSƏM...

***N**ə deyim adına mən bu qismətin*
Bir gözəl sevmişdim gənclik ilində,
Döndü məzarına ilk məhəbbətin
Bir şair doğuldu incə telində...

...Gün kimi parlayıb, ay kimi yaxıb
Ömrümün qaranlıq ilinə düşdün.
Könlümə düşmüşdün, könlümdən çıxıb,
Sonra aşıqların dilinə düşdün.

Bəxtin bağlananda açıldı sirlər,
Ümid kəsiləndə qismət gətirdi.
O sənə yazdığım adsız şerlər,
Mənə dərd, sənə də şöhrət gətirdi..

Vədə ver yenidən gəlim, görüşək,
Otuz il əvvələ qayıt nə olur.
Qərib yuxulara dalıb bu ürək,
Qəfil gəlişinlə ayılt nə olur...

Sən məndən betərsən, mən səndən betər,
Gəl daha bu başı batmışını sev.
İyirmi yaşımı duymadın,yetər,
Gəlim, üzə duran altmışımı sev.

Gözlərin dünyaya gözümdən baxar,
Qış yerə çəkilən, yaz çəməndədir.
İxtiyar çağına vaxt sahib çıxar,
Cavanlıq çağının şəkli məndədir.

Gir, zalım, yuxuma girmək istəsən,
İlahi sevginin gücünə bax sən...
Cavanlıq çağını görmək istəsən,
Qocalan gözümün içinə bax sən.

Ümid kəsiləndə nə əl, nə ətək,
Əcəlin kölgəsi qapına düşər.
Fikrim televizya dalğaları tək,
Gəlib son anında yadına düşər...

Son görüş...başından dağılan huşam
Hər ölən özünün suçunda ölür.
Özüm ürəyinə dəfn olmuşam,
Adım dodağının ucunda ölür.

Dilində quruyan ən son kəlmənəm,
Üzün yox, söyləyib üzə salmağa.
Elə bilərsən ki, o əcəl mənəm,
Qayıdıb gəlmişəm qisas almağa.

Alın yazısını soruşaq kimdən,
Niyə yazılanlar kəsə yazılıb.
Ya mənim gələcək bədbəxtliyimdən
Sənin gözlərinə nəsə yazılıb?

Gör harda dilimdə səsləndin, qadın,
Sonra da çevrildin göz yaşlarına.
Gör harda adlara qoyuldu adın,
Sonra da yazıldı baş daşlarına.

Qəzetlər susmada, xəbərlərdə yox
Səni bilməyənlər axı nə bilər.
Eh, belə sevgilər başqa yerdə yox
Bəlkə dastanlarda oxuna bilər..

Gəldim, qövr elədi içimdə yaram,
İkinci döngədən döndüm küçəni..
Dedim gəncliyimi gəzib taparam,
Yollar ayrıcında görərəm səni.
Gördüm əcəl məndən qabağa düşmüş,
Tanrım, aman Tanrım, bu nə görüşmüş...

❖

BU DƏNİZİN O BAŞINDA…

Burda dəniz yaxındadır,
Sahili qumdan.
Sevdiyim bir gözəl kimi
Çıxmır yuxumdan…

Ürəyim də köksüm altda
Ləpədi, nədi?
Bu dənizə canatımın
Səbəbi nədir?

Tarixi nə? Haçan olub
Anadan dəniz?
Dənizdimi, sahillərə
Canatan dəniz?

Bu dənizin o başında
Bir qız yaşarmış.
Arzuların kölgəsində
Yalqız yaşarmış…

Baxışları duman imiş
Dağ başlarında.
Bir gələcək dəniz varmış
Göz yaşlarında…

Yavaş-yavaş könüllərdə
Göldən iz olmuş…
Dama-dama göl olarmış…
Göl, dəniz olmuş…

Bu yaxında bir dəniz var,
Sahili daşdan…
Ləpələri alıb gedir
Ağlımı başdan…

Bir sabahın doğuşu var
Gün batımında.
O dənizin bu sahilə
Can atımında…

Nədir çəkən bu dənizə,
Məni,bilmirəm.
Ona nə var, o sevilir
Mən sevilmirəm.

Gecə-günüz sızıldadır
Dizlərimi nəm;
Burda dəniz yaxındadır
Ondan bilirəm..

❖

BAŞINDAN
BAĞLANAN QAYIQ

Q*ayıq sahildə ölü,*
Dənizlərdə diridi.
Onu tutub saxlayan
Özgənin kəndiridi.

Mən başından sevginə
Bağlanan qayıq.
Keşiyimi çəkmədə
Vaxt ayıq-sayıq..

Uzaqda ta uzaqda
Açılmayan sirimsən.
Məni dünyada tutan
Görünməz kəndirimsən...

❖

HELE MEHEBBETIM
DÜŞÜB DERBEDER

H*ele mehebbetim düşüb derbeder*
Yollara dikilən bir cüt baxışam.
Sənincün hardasa açılır səhər,
Mənimçün hardasa qaralır axşam...

Sanki xatirəyə çevrilmişik biz,
Çöllərə tökülən yollar, izlərik.
Məchul bir arzuyla vurar qəlbimiz
Quru yalandan da ümid gözlərik.

Həsrətin qəlbimə düşər toxumu,
Gün batar, gecə də keçər gecədən.
Axşam gözlərimdən qaçan yuxumu
Səhər gözlərində axtararam mən!

❖

ÖMRÜMDƏN, GÜNÜMDƏN
ÖTƏN YAŞMISAN

Ö*mrümdən, günümdən ötən yaşmısan*
İllərə qoşulub qanad açmısan.
Yəqin kiminləsə doğmalaşmısan,
Sendən ögeylənir, yadlanıram mən.

Demə daş qəlbimə, dəmir qəlbimə.
Dözüm də öyrətdi ömür qəlbimə.
Sənin qəmli günün damır qəlbimə,
Sənin şad günündə şadlanıram mən.

Nə sözüm qəlbinə dəymiş, toxunmuş,
Bir ürək istədim, o da yoxunmuş,
Yoxsa buna görə çoxdan oxunmuş
Bir sevgi nəğməsi adlanıram mən.

❖

<u>BƏLKƏ...</u>

***Q**alıb həsrətinmi əli yaxanda*
İnsanlar içində de niyə təksən?!
Taleyin göz açıb sənə baxanda
Məni ürəyində görməyəcəksən.

Sıxacaq bu geniş dərə, dağ səni,
Dinənmi günahkar, yoxsa susanmı?
Hələ bir fikir də tutacaq səni
Görən udmusanmı, uduzmusanmı?

Dilin çalışsa da qəmdən daşına,
Ürəyin düşəcək sevincdən qaçaq.
Bir şair xəyalı sənin başına
Daha dönməyəcək, dolanmayacaq.

Burada nə məhəbbət, burada nə nifrət,
Gedən gedərgidir, qalan qalacaq.
Bəlkə məndən sənə bir quru həsrət,
Bəlkə səndən mənə yalan qalacaq....
❖

KƏSİLMƏZ SÖHBƏTİ
YARIN, YOLDAŞIN

G*əzsə də saçımda bəxtin əlləri,*
Qalsam da əlində külün külfətin.
Ensə də qüruba ömrün illəri
Kəsilməz sorağı ilk məhəbbbətin.

Qış olar, qınına çəkilər sular,
Yaz olar, təzədən aşıb daşlarlar.
Bizi qoşa görən qonum qonşular
Bizi ayrı görüb pıçıldaşarlar...

Kəsilməz söhbəti yarın, yoldaşın
Neçə yol qış olar, yay olar hələ.
Sevgi dənizinə atılan daşın
Dalğası ətrafa yayılar hələ.
❖

İNDİ

M*əni yaşamağa qoymaz bu dünya*
Ölüb gedəsiyəm həsrət içində.

Qəlbimdən keçəni duymaz bu dünya
Sirrinə dalaram heyrət içində.

Bir oğul toyu var, bir ana çatmaz.
Bir ömrün sevinci bir ana çatmaz.
Əlim dağa çatar, arana çatmaz.
Boğulub qalaram heyrət içində.

Bağışla Məmmədi ay ana kəndim,
Səndən ayrılalı bitib tükəndim.
Gedib uzaqlarda bir yar bəyəndim
Çürütdü ömrümü xiffət içində...

❖

QOYMAYIN DÜNYANI ADİLƏŞMƏYƏ...

Elə, ürəklər də zirvələr kimi
Qalsın o əvvəlki parlaqlığında.
Böyük sevgilərin çəkin yükünü
Araya tikanlı sözlər girməsin.
İşıqlı arzular solmasın deyə
Evlənən günün sabahı günü-
Qoymayın dünyanı adiləşməyə!

"İşıqda kölgə var, kölgədə işıq"
Dağ düzdən ucadır, sevinç kədərdən.
Ay günün nuruyla tapar yaraşıq,
Şafaqla ayrılar axşam səhərdən.
İki sevən qəlbin yaxınlığından,
Sevinç sıxlığından, işıqlığından
Qəm macal tapmasın yada düşməyə,-
Qoymayın dünyanı adiləşməyə!

Əriyər buzları məhbbətin də
Tutaş kirpiklərin sıx ormanları
Dönər öpülməmiş bir cüt çeşməyə.
Yaşayın arzular səltənətində
Qaldırın məhəbbət həyəcanları
Qoymayın dünyanı adiləşməyə!

❖

QAN AXAN ƏLİNƏ XINA QOYAN XALQ
BU XALQ ÇƏPİK ÇALMAK ÖYRƏNİR HƏLƏ....

KİMİ ALDADIRSAN

Aça bilməyirik nə sırsən belə
Fəhləsən, kəndlisən, nazirsən belə.
Kimin çörəyini kəsirsən belə,
Kimi aldadırsan, ay zalım oğlu?

Bu qulaq nə qədər yalan yiyəcək?
Verən aldanacak, alan yiyəcək.
Nə töksən, onsuz da balan yiyəcək,
Kimi aldadırsan, ay zalım oğlu?

Şirnikib nəfsini qəsdə çevirmə,
Torpağın altını üstə çevirmə.
Öləndə üzünə üz də çevirməz,
Kimi aldadırsan, ay zalım oğlu?

Əlləri cibində boş gəzən oğlan,
Bir səpib, yerində beş gəzən oğlan.
Dayan, ay pamıqla baş kəsən oğlan,-
Kimi aldadırsan, ay zalım oğlu?

Bu haray mescidin, kilisənin deyil.
Bu el də bizimdir kimsənin deyil.
Bu yalan danışan dil sənin deyil,-
Kimi aldadırsan, ay zalım oğlu?

O satan kim oldu, bu satılan kim?
Daş atan, dalınca daş atılan kim?
Yaşatan bəllidir, yaşadılan kim,-
Kimi aldadırsan, ay zalim oğlu?

Ay "üç"ün yerinə "beş" yazan kişi,
Boğazı ucundan baş yozan kişi,
Kimin əllərində əşyasan, kişi,
Kimi aldadırsan, ay zalım oğlu?

Elə çiçək çiçək, gül gülük deyir,
Görünür, hər yetən ülgülük deyil.
Bu dünya dediyin tülkülük deyil,-
Kimi aldadırsan, ay zalım oğlu?

Açdınmı açılmaz sirri sən özün.
Bir bilək ölüsən, dirisən özün.
Yaxanı yan çəkmə biri sən özün,-
Kimi aldadırsan, ay zalım oğlu?

Nə dil anlıyırsan, nə haqq bilirsən
Yaxın mənzilini uzaq bilirsən.
Əgər iç üzünü bu xalq bilirsə,-
Kimi aldadırsan, ay zalım oğlu?

❖

BU MİLLƏT

Hərrac bazarında udur, uduzur,
Haçandan canına hopub bu qüsur?
Elinin üstündə ölüm qorxusu,
Evinin üstündə əsir bu millət.

Hərdənbir sazını çalıb, yaşadır.
Məğlub tarixini qalib yaşadır.
Ona nə ad versən alıb yaşadır:-
"Şair" bu millətdir, "nasir" bu millət.

Bu günə gəlməzdi, tale gətirir.
Qəlbindən keçəni dilə gətirir.
Özü öz başına bəla gətirir,
Sonra da özündən küsür bu millət.

Qını qılıncsızdır, üzüyü qaşsız.
Yüz ildi bostanı keçinmir daşsız.
Aşçısı aşsızdır, başçısı başsız
İtirib özünü gəzir bu millət.

Qumara qoyulub torpağı, daşı.
Sabaha ümidi-gözünün yaşı.
Şeytan ilgəyinə ilişib başı
Özü öz əlində əsir bu millət.

Hələ arzuları toz içindədir
Hələ demədiyi söz içindədir.
Bilmir çıxış yolu öz içindədir
Özgə ümidinə yesir bu millət.

Əməli əməlim, adı adımdır
Çətində barıtı bircə atımdır.
Beləcə "ver yeyim , gözlə yatımdır",
Beləcə "hazıra nazir" bu millət.

Gecəsi hansıdır, bu günü günsə?
Dinlisi dinsizdir-ümidi dinsə.
Üstünə ələnən bu daş səninsə

İlahi, bəs necə dözür bu millət.

Dildə gah "bəlidir", gah "baş üstədir",
Könüldə haqdan da daş-baş istədi.
Hələ bir daş altda, bir daş üstədir,
Üz-üzə dayanıb bu sirr, bu millət..

❖

BU ADAM

***B**u adam Allahın bəlası imiş,*
Şeytanın balası imiş bu adam.
Quruyub məhşərə qalası imiş
Məhşərin qalası imiş bu adam.

Gözü göy, sözü boz, üzü kürənmiş,
Nəyi var tükənib üzə dirənmiş.
Demə saman altdan su yeridənmiş
Cəhənnəm olası imiş bu adam.

Hələ ki yol gedir üzü bütlüyə,
Çətinə düşdümü sözü cütlüyər.
Döndərə bilərmiş xalqı kütləyə
Bir qaşıq çalası imiş bu adam.

Başı daşdan daşa dəyər adamın,
Ölüm qapısını döyər adamın.
Niyəti başını yeyər adamın,
Niyətin başını yemiş bu adam.

❖

SƏN KİMİ SEÇİRSƏN

Nə oldu: yaxşını pisdən seçmədin?!
Nə oldu: qızılı misdən seçmədin?!
Nə oldu: əyrini düzdən seçmədin?!
Sən kimi seçirsən, sən kimi, xalqım?!

Var olan varımı, yoxumu seçər?!
Kor olan azımı, çoxumu seçər?!
Əkinçi damızlıq toxumu seçər,-
Sən kimi seçirsən, sən kimi, xalqım?!

Əkən əkinçidir, biçən Allahdı.
Dar gündə qəlbindən keçən Allahdı.
Seçilən bəndədir, seçən Allahdı,-
Sən kimi seçirsən, sən kimi, xalqım?!

Tale qısmətimiz beladi yoxsa?
Əslimiz, kökümüz kölədi yoxsa?
Bu da bir növbəti tələdi yıxsa?
Sən kimi seçirsən, sən kimi, xalqım?!

Hər əldə əylənməz dövlət, var belə,
Uca zirvə seçər yağan qar belə.
Nədir, nə xəbərdir tez-bazar belə,-
Sən kimi seçirsən, sən kimi, xalqım?!

Bu necə dumandı, göz gözü seçmir?
Bu necə zamandı, düz sözü keçmir?
Yoxsa, seçdiyini xalq özü seçmir,-
Sən kimi seçirsən, sən kimi, xalqım?!

Bu mən!
Mən hər şeyi atıb gedərəm.
Uduzub gedərəm, udub gedərəm.
Əlimi üzümə tutub gedərəm,-
Sən kimi seçirsən, sən kimi, xalqım?!

Nə oldu: yaxşını pistən seçmədin?
Nə oldu: əyrini düzdən seçmədin?
Nə oldu: qızılı misdən seçmədin?
Seçtin,

seçdiyini bizdən seçmədin,-
Sən kimi seçirsən, sən kimi, xalqım?!

❖

BU XALQ ÇƏPİK ÇALMAQ ÖYRƏNİR HƏLƏ

Gələcək oxucu, düşün bu vaxtı,
Qışlada qışlamaz qoşun bu vaxtı.
Qapını qar basıb, qışın bu vaxtı,
işin bu vaxtı,
Bu xalq çəpik çalmaq öyrənir hələ.

Ayağa qalxmağı çoxdan unutub,
Tətiyi, çaxmağı çoxdan unutub.
Sabaha baxmağı çoxdan unutub,-
Bu xalq çəpik çalmaq öyrənir hələ.

Başının üstündə haqq duası yox,
Toyda sevinməyi, yasda yası yox.
Bəlkə millət olmaq əlifbası yox,-
Bu xalq çəpik çalmaq öyrənir hələ.

Düşüb arxasına bir asi-keçmiş.
Nöbəti sovuşmuş, sırası keçmiş...
Küməsi dağılmış, çırası keçmiş,-
Bu xalq çəpik çalmaq öyrənir hələ.

Əvvəlin işini sona qoyan xalq,
Qəzəb qılıncını qına qoyan xalq,
Qan axan əlinə xına qoyan xalq,-
Bu xalq çəpik çalmaq öyrənir hələ.

Açılan sandığı, pambığı əldə,
Soyulan dərisi, qabığı əldə...
Əldədir, dirijor çubuğu əldə,-
Bu xalq çəpik çalmaq öyrənir hələ.

Bəlkə qəzbinə, kininə çalır,
Şərin, şərəfsizin şəninə çalır,
Bilən yox, heç hansı gününə çalır,-
Bu xalq çəpik çalmaq öyrənir hələ.

Hərdən öz kökünə təpiyini çal,
Manatını qazan, qəpiyini çal...
"Şair"sən də yeri çəpiyini çal,-

Bu xalq çəpik çalmaq öyrənir hələ.

❖

İLLƏRİN O BAŞINDAN
OXUCU YADDAŞINDAN

TƏRƏDDÜDLƏR

Nə qədər üzmək olar
ilhamın məhəlli sularında,-
Nə qədər baxmaq olar iki yana.
Hələ meydan sulayırıq
tərəddülər dövrəsində,
Fırlanırıq bir ürəyin
dar xatirə çevrəsində,
Xəzər kimi yol gəzirik okiana!

❖

AĞACDƏLƏN, DÖY QAPIMI

Yolum hərdən-hərdən kəndimizə düşür. Orda anamdan ömürlü, məndən vəfalı evimiz hələ də tək-tənha savaşlardan geri dönməyən atamı gözləyir. Qapısı bağlı yetim,tənha evimiz. Bu dəfə payız çənində gəlmişdim ata yurduna. Həyətə çatar-çatmaz bir səs eşitdim, kimsə qapımızı döyürdü...Ayaq saxladım. Elə bil gəlişimi ayların, illərin şirinli-acılı xatirələri ilə qolboyun olan evimizə kimsə xəbər verirdi. Qapıya bir az da yaxınlaşdım, bir az da... Axı bu şərin şər vaxdı, payız çən-dumanında mənim gəldiyimdən kimsə xəbər tutmamışdı. Evimizdə isə taleyin gəzavü-qədərindən başqa kimsə yaşamırdı. Bəs elə isə kimsəsiz evin qapısını döyən kim idi? Ama bu səslər insan barmaqlarının səsinə bənzəmirdi, nəsə gaibanə bir səs idi. Payız sisi bir az da seyrəlmişdi...Sən demə qayğısız ağacdələn tənha evimizin əski, çürüməkdə olan qapısını dimdikləyirdi. O, kim idi? Bəlkə anamın ruhuydu,bəlkə atamın, bəlkə vaxdın, zamanın, ya bəlkə mənim arzularımın barmaqlarıydı ani gəlişimi yetim evimizə xabər verirdi.Ya bəlkə həqiqətən yem arayan ağacdələn idi, bilmədim. Gözümdə savaşlardan acı yadigar kimi dünya üzünə səpilən evlər canlandı, bir də təkcə ağacdələnlərin döydüyü qapılar...

***Yol** azıbsan bu payızın çənində*
Ağacdələn, ağlın azıb sənin də,
Dən gəzirsən saçlarımın dənində
Atamoğlu, az qapımı döy görüm.

Bu cığırı bu qara kim bürüyüb?
Burda kimin yanan qəlbi kiriyib?
Həyətini qara yellər kürüyüb
Başımıza nələr gəlir qoy görüm.
Haçanacan gözləməyə gəlmisən?
Yoxsa mənə söz deməyə gəlmisən?
Ya borcunu istəməyə gəlmisən?-
Öz dilində ünvanımı söy görüm.

Mən dünyaya ata, ana borcuyam,
Ünvanım var, bu ünvana borcluyam.
Bir canım var, bircə cana borcluyam,
Özgə nəyə, taraq-taraq say görüm.

Bulaq kimi batan bəxti açılmaz,
Hər iğidin atam, bəxti açılmaz...
Hələ yatır, yatan bəxtim açılmaz,
Yatmışların yuxusuna qıy görüm.

Eldən ayrı ömür olmaz, gün olmaz,
Eli sevən ürəklərdə kin olmaz.
Nədən Araz arzularım çin olmaz
Haçanacan yuxularda çay görüm?

Avand işim nəhsə düşüb deyəsən,
Vaxt mənimlə bəhsə düşüb deyəsən.
Qulaqlarım səsə düşüb deyəsən,

Şimşək çaxsın, guruldasın göy görüm.

Yavaş-yavaş çürümədə taxda, bax.
O taxtada ovxam olan vaxda bax.
İnad olub nə döyürsən baxda-baxt,-
Açılmayan düyünləri duy görüm.

Elə yanır döyüşlərin yanğısı
Nə təsəlli söndürəcək, nə də su.
Mənim qapım Yer üzünün qapısı
Ağacdələn, döy qapımı, döy görüm,
Başımıza nələr gəlir goy görüm...

❖

VƏTƏN SEÇİLMƏZ

Dostu bu dünyada seçib taparlar
Dost-düşmən seçilər, Vətən seçilməz.
Qayanı yonarlar, dağı çaparlar
Dağ-qaya kiçilər, Vətən kiçilməz.

Keçər taleyindən, ömründən keçər.
Qovuşmaz karvana, yovuşmaz köçə.
Köçsə, qürbət eldə qəlbinə köçər
Ağır elli-günlü Vətən köçülməz.

Ürəyin Vətənin önündə zərrə,
Andını dəğişməz şöhrətlə, zərlə.
Vətənın yolunda candan keçərlər,
Keçilməz qaladır,Vətən keçilməz.

Göyləri uludur, Günəşi uca,
Yerləri gözünü, könlünü açar.
Ağacı böyüyüb kökündən qaçar,-
Ha qaçar kökündən ayrıla bilməz.
Dost-düşmən seçilər, Vətən seçilməz.
Dağ-qaya kiçilər, Vətən kiçilməz.
Keçilməz qaladır,Vətən keçilməz.

❖

HƏLƏ YAŞAMAĞA
DƏYƏR BİR AZ DA

Meşə çığırları dönüb bir çaya,
Torpaq yağışlardan bəhrələnibdir,
Necə gözəl olub təbiət, Allah-
Quru kötüklər də pöhrələnibdir!
Gəzmək istəyirəm dünyanı yazda
Hardasa, hardasa məni duyan var,
Hələ yaşamağa dəyər bir az da.

Təkliyi keçmişə ötürməliydim,
Ömrümə bir yoldaş götürməliydim.
Bacım arzudaydı,
anam murazda
Hardasa, hardasa məni sevən var,
Hələ yaşamağa dəyər bir az da.

Yollar eniş-yoxuş,
bələn-bələndi.
Yollar
min ildir ki, gedib gələndi.
Təzəydi,
köhnəydi,
naydi, bilmədim,
Talada çığırlar qafiyələndi...
Dünən Bethovini çaldılar sazda,
Hardasa, hardasa bizi duyan var,
Hələ yaşamağa dəyər bir az da.

Mənim bir gecikmiş məhəbbətim var,
Dönüb nağıllaşan həqiqətim var.
Səni səsləyirəm, ay ev yiyəsi,
Səsimə səs versin o tayda kim var.
Dodaglarda donan bir busə kimi
Harda görünüb ki, sönə arzular.
Qıvrıla-qıvrıla bir gürzə kimi
Əsrin ovsununa yatıb Araz da.
Dünyanın işini nə bilmək olar
Hələ yaşamağa dəyər bir az da,
Hələ yaşamağa dəyər bir az da.

❖

SAVALANDA YATAN İGİD

Anası ayrılıq çağında oğluna dedi: ”Orda, Savalan dağının başında yuxuya gedəcəksən, atın da keşiyində durub səni qurtdan, quşdan qoruyacaq. O vaxt oyanacaqsan ki, qılıncın qınından sıyrılıb dəstəyi də sənə tərəf,-deməli qısas vədəsi çatıb”.İğid Savalanda hələ də yatır, on ildən bir oyanıb yenə yatır, atı da yanında gözləyir ki, vaxt-vədə çatsın, iğid oyansın…

Bu əfsanənin yaşı neçədir? Bir əsirmi, onbir əsirmi? Bəlkə daha çox. Onu oxuduqca başı bəlalı xalqımızın başına gələcəkləri öncə görməsinə heyrət etməmək olmur. Başına gələcəkləri, bir yerə yox beş yerə parçalanacağını hardan bilirdi ki, mənim əzabkeş xalqım, qisasını alacaq igidini Babadağın, Şahdağın, Dəlidağın başında yox, ikiyə parçalanacaq Azərbaycanın Güneyle Quzey sərhəddində Savalanda yuxuya vermişdi? Yoxsa, gələcək faciələr gözəgörünməz ağacdələnlər kimi uzaq yarınların uzaqlığından bizə xəbərlər gətirir, qapımızı döyür,- oyanın deyir, biz eşitmirik .. Oyandıqmı? Oyanrıqmı?

Orda, Savalanda bir iğid yatır,
Hələ ki, uyuyur qılıncı qında.
Hələ ki, yanında gözləyir atı,
Hələ ki, arzusu yol ayrıcında.

Qınından sıyrılar o qılınc haçan?
On ildə,
beş ildə,
bir ildə bilmir.
O ölmüş qeyrəti bu zamanacan
Dirilik suyu da dirildə bilmir.

Sabaha səsləyir zamanı yollar,
Yollar gah ayrılıb, gah calanıbdır.
Girib nağıllarda yatır oğullar,
Bir Vətən ikiyə parçalanıbdır.

Oyanmaq çağıdır, oyan, ey yatan,
Gör kimlər dünyanı dördəlli tutub.
Gör niyə nağıllar uydurub atan,-
Arzunun yerini təsəlli tutub.

Nə qədər yatana qoşulub yatım,
Yorulub yollarda qalan köçümsən.
Sən mənim sabaha son ehtiyatım,
Qeyrət damarımda yatan gücümsən.

Tutubsa dağları dumanlar, çənlər

Qopar tufan yəqin, yağar qar yəqin.
Bir zaman qılıncla ayrı düşənlər
Qayıdıb qılıncla qovuşar yəqin.

Özgə cür bilirəm əl üzməz ancaq
Namərd əməlindən, vaxt axınından.
İkiyə bölünmüş qındı bu torpaq,
Araz qılıncını sıyır qınından.

Oyan, qalx nə belə qara batmısan,
Qoy duysun harınlar od nəfəsini.
Ay zalım, gör gedib harda yatmısan-
Əsəb nöqtəsində Yer kürəsinin.

Bu yatmaq nə vaxtın yatmağıdır ki,
Zamanın günorta çağı gəlibdir.
Oyan, elin-günün göz dağıdır ki,
Öz yuxun özünə yağı gəlibdir.

Oyanıb yola düş yol ayrıcından
Dərdin anaları üzüb, əridir.
Oyan, vaxt sıyırıb qılıncı qından,
Gümüş dəstəyinin üzü bəridir.

Dünya dağlarında yatır iğidlər
Gözləyə-gözləyə öz zamanını.
Oyan, onları da oyat bu səhər,
Bu ağ yalanların garalt qanını.

Kimi gözləyirsən, ay atam oğlu,
Gözləyib fürsəti fövtə verərsən,
Gözləyib qoyunu qurda verərsən.
Di yatma, dur gəl.
Ümüd qıranların belini qır gəl.
Min yel atına,
Arazı qınından çəkib sıyır gəl:
Cənublar, Şimallər bir ola bəlkə,
Ayrılan mahallər bir ola bəlkə,
Məqsədlər, amallar bir ola bəlkə!

❖

BİR ADAM YOL GEDİR BİZDƏN GABAGDA...

H*ərdən üz çevirib taleyə, baxda*
Çıxdığı səfərdən qorxub qaçan var.
Bir adam yol gedir bizdən qabaqda
Yaxşı ki, dünyaya çığır açan var.

Bizi səsləyirdi verdiyi vaxda
Biz hələ dünyaya gələnə kimi.
Bir adam yol gedir bizdən qabaqda
Anadan olandan ölənə kimi.

İnanma qəm qəmə yovuşar çətin
Düzlüyün eləsi, beləsi yoxdu.
Kərəm sevgisinə qovuşur çətin
Kimin ki, qarşıda Lələsi yoxdu.

Talanar sevdalar, bulanar sular
Yağanda hicranın kəpənək qarı.
Ürəklər qırılar, yollar ayrılar,
Olmasa qabaqda bir ipək qarı.

Yaz da Yer üzünə boşuna gəlmir,
Boşuna sovuşmur agır xatalar.
Qabaqda gedənin xoşuna gəlmir
Qabağa düşəndə harın atalar.

Gedir qadəmindən nur yağa-yağa
Yolları ölümdü, itimdi, bilmir.
Qəlbinə yatanı çəkir gabağa
Arxalı, arxasız, yetimdi, bilmir.

Yolundan döndərməz duman da, çən də
Kiminsə sözünü deməyə gedir.
Yerin bu üzündən duyuq düşəndə
Yerin o üzünə köməyə gedir.

Kələfin ucunu axtar özündə
Hazır ol qəfildən gələn qəmə də.
Ağ atlı oğlan var bu yer üzündə
Çıxar qabağına hər məhkəmədə.

Nədir anaların dilində muraz,
Görən gələcəği gözündən öncə.
Maşın işığına bənzəyir bir az
İnsanın əməli özündən öncə.

Bir nurlu sahil var hələ sabahda
Qaranlıq sulara yol açar avar.
Bir adam yol gedər bizdən qabaqda,
Amma bir adam da bizdən sonra var!

❖

MƏN ŞAİR DEYİLƏM..

B*u xalq yeddi yerdən zavala gəldi,*
Bu xalqın danışan dili olmadım.
Bu xalqın başına min bəla gəldi,
Mən ki, dözüb durdum, dəli olmadım,-
Mən şair deyiləm, atam-qardaşımm.

Nə günə qoydular torpağı, daşı,
Məliyi düşməndi Beyrəkərinə.
Neçəki, verilib bu xalqın başı
Bu xalqın ağıldan seyrəklərinə,
Mən şair deyiləm, atam-qardaşımm.

Yazdığım nə varsa bibərdi, qorxma,
Ölümdü ömrümün sonundakı qəm.
O gülü, bülbülü gözümə soxma
Mən güldən, bülbüldən yaza bilmirəm,-
Mən şair deyiləm, atam-qardaşımm.

Qardaşın evində qardaş qəribdir,
Sözümdən güc almaz yetim-yesirlər.
Görünür, Allah da üz döndəribdir,
Haçandı açılmır üzümə sirlər,-
Mən şair deyiləm, atam-qardaşım.

Dilimdən çıxanlar təzə-tər deyil,
Kim aşiq olası qara qaşıma?!
Hər adı Məhəmməd-peyğəmbər deyil,
Adıma aldanıb dönmə başıma,
Dönmə, pir deyiləm, atam-qardaşım,
Mən şair deyiləm, atam-qardaşımm.

Vətən tikə-tikə, parça-parçasa,
Ömür deyilənin sonu borcasa.
Yuxuya gedibsə içimdə qiyam,
Dərənin axmağı, çölün dəlisi,
Elin ifləməsi və nəsi, nəsi,
Bir də lap inciyim, nə desən, oyam, -
Mən şair deyiləm, atam-qardaşımm.

Əllərim lazımsa, apar əlimi,
Gözlərim lazımsa, çıxar gözümü.
Ağlında bir kəlmə sözüm qalıbsa,
Sən Allah özümə qaytar sözümü,-
Mən şair deyiləm, atam-qardaşımm.

Bircə nəfəsindən gələn baharın,
O ağac dil açdı, bu daş gül açdı.
Gör nəcə dikəlib içindən qarın
Şair bu ağacdı, şair bu daşdı,-
Mən şair deyiləm, atam-qardaşımm.

Halından çıxarıb insanı hədə,
Boş qalan yurdlarda ulaşır itlər.
Şair Qarabağda, şair Göyçədə,
Canını el üçün verən şəhidlər,-
Mən şair deyiləm, atam-qardaşımm.

İlğımdı sabahdan əl edən şöhrət,
Şöhrətin dalbadal çıxan kitabsa,
Susmağı öyrədən, dinməyi öyrət,
Goy deyim, şairlik düz etirafsa,-
Mən şair deyiləm, atam-qardaşımm.

Kim açıb, açılan bu nə bazardı,
Kim qaldı, kim aldı, satdı, nə bilim?
Hamının canına düşən azardı,
Addı, mükafatdı,zaddı, nə bilim?
Mən şair deyiləm, atam-qardaşımm.

Qısmətim ilahi nurdan deməsdi,
Nəfsim qayğıların tələb meydanı.
El məni özünə qurban deməsdi,
Yolumu gözləməz Hələb meydanı,-
Mən şair deyiləm, atam-qardaşımm.

Ucuz qayğılara qarışdı başım,
Kəmfürsət baxtımın qulağı karmı?
Mən şair deyiləm, atam-qardaşım,
Öyrən gör bu günün şairi varmı?
❖

GÜNAH

Seytan əməli var səndə, ya məndə,
Qədim sahibiyik hansı günahın.
Bizə yurd verəndə, yuva seçəndə
Qalıb arxasınca gözü Allahın.

İnamı atüstü, ümidi kövrək,
Nə verib, bir azca yarımçıq verib.
Keçəlin saçı tək sevinci seyrək,
Təpəlin qaşı tək qəmi sıx verib.

Dünyaya gələli qovğalı baş da,
Başının altına balınc da verib.
Bir köynək aralı ögey qardaş da,
Qardaşın əlinə qılınç da verib.

Verib yer üzünə xəstə gəlməyi,
Bir az asta qadəm, bir az utancaq.
Haçandı unudub üstə gəlməyi,
Bölməyi, çıxmağı bacarır ancaq.

Min ildi açılmır eynimız nədən,
Daha bölünməkdən gəlmişik cana.
Tərs kimi adın da bölünür,Vətən,
Bölünür Azərə, bir də Baycana.

Çoxu yelçəkənə oxşadıb səni,
Şimaldan Cənuba çoxu taptadı.
Ayırıb Təbrizi, bölüb Göycəni,
İndi də Qarabağ haqq-həsabdadır.

Başını aldadıb elin, obanın,
Qədim kədərinə üz çəkirik biz.

Uzaq əsirlərdən hansı babanın
Qalan cəzasıdır, biz çəkirik, biz.

Bir günah işləyib hər gələn nadan,
El-oba boğulur içində yasın.
Allah da boylanıb baxır ucadan,
Baxır, bağışlasın, bağışlamasın.

Amma bağışlamır suçu heç kimə,
Aradan nə qədər fasilə keçir.
Günah yuyulmursa yaşayır demə,
Yaşayıb nəsildən nəsilə keçir.

Nə edək, bir elin günahı varsa,
Ya bizi yox elə, ya bizə gün ver.
Allah, o günahı qurban yuyarsa,
Qurbanın mən olum, mənə ölüm ver.

❖

BİR DƏFƏ

***B**ir dəfə toprağa tohum səpilir,*
Bir dəfə saralır, zəmi, bir dəfə.
Bir dəfə dünyaya gələn nə bilir
Bir dəfə sevəcək, cəmi bir dəfə.

İkinci sevgidən etmə gileyi
Atılan ox kimi uçma hədəfə.
İnsana dünyanın ən əziz şeyi
Bir dəfə qısmətdir, cəmi bir dəfə.

Sən ay iki başlı məna axtaran
Günün günortası gül olma kefə.
Bir dəfə səhv edir minaaxtaran,
Ömründə bir dəfə, cəmi bir dəfə.

Çalış çaldığını çal sarı simdə
Bu kibrit günlər ki, düzülüb səfə;
Yüz dəfə can vermə, gələn ölüm də
Bir dəfə gələcək,cəmi bir dəfə.

❖

BU QAN YERDƏ QALAN DEYİL

I

A*zadlıq umurdun bu sən, bu meydan,*
İlahi dilində inləyir kaman.
Nə deyir qolları bağlanan imkan,-
qan, qan, qan!

Nə əvəz edəcək ölən kəsləri,
Dəyməmiş biçdilər tər həvəsləri.
Layla əvəzimi güllə səsləri?
Nə deyir daş əlin yazdığı fərman,
Torpağa gömülən neçə qəhraman,
Ölüm sabahına o sökülən dan,-
qan, qan, qan!

Bir sirrin yolunda yüz xəyal eylər
Verdiyin daş deyil, ürəkdi,Tanrım.
Bu nakam istəklər, nakm talelər,
Nalələr nəyinə gərəkdi, Tanrım?

Torpağın bağrı da od tutub yanır,
Var edə bildikmi biz o yoxları.
Bakının üstündə ruhlar dolanır,
Nakam şəhidlərin nakam ruhları.

Səbəbi nə oldu tökülən qanın,
Neçin yurdun adı Qarabağ oldu?
Qarabağ...Qarabağ...Azərbaycanın
Yaralı köksündə qara bağ oldu...

Demə varlığını illət əyibdir,
Dərdlə öcə düşüb, millət əyibdir.
Xalqımın köqsünə güllə dəyibdir,-
Qan axır şerimin misralarından,-
qan, qan, qan!

II

Dayanma, nə dayansa da,
Gələn vaxt-vədə yansa da.

Zülüm ərşə dayansa da,
Bu qan yerdə qalan deyil.

Yoxsa bu sönən od-ocaq,
Kim söndürüb, neçin sönüb
unutacaq?
Hələ çoxunu tutacaq,-
Bu qan yerdə qalan deyil.

Çətin yata, coşub bu qan,
Haqqı haqqa goşub bu qan.
Yəgin göydən düşüb bu qan,-
Bu qan yerdə qalan deyil.

Bu nə görüm, nə görəcək,
Ha yaxanı kənara çək,
Toxum kimi göyərəcək,-
Bu qan yerdə qalan deyil.

Uca zirvə çəndə qalmaz,
Dərd, dərdi çəkəndə qalmaz.
Nahaq qan tökəndə qalmaz,-
Bu qan yerdə qalan deyil.

Bu nə cəza, bu nə günah,
Unutdunmu Allah, Allah?!
Göyə büləd olan bu ah,
Aman, yerdə qalan dəğil,
Bu qan yerdə qalan deyil.

Bir Ay adı, bir gün adı
Tapındığım görkün adı.
Yerdə qalmaz Türkün adı,
Yerdə qalmaz yurdun adı,
Yerdə qalmaz qurdun adı,-
Bu qan yerdə qalan deyil.
Bu qan yerdə qalan deyil.

❖

ÖMÜR SİRLİ—SORAQLIDIR

Gətir xəyalına ilk məhəbbəti,
Qapılar bağlanıb, itib açarlar.
Bir deyən olmayıb sevilmək nədir,
Bağlı könülləri necə açarlar.

Ayaq səslərindən illər gileyli,
Sonra cavanlığın ilk kitabları...
Ne hələ sevirəm sözü deyilib,
Nə də gözəllərin "yox"cavapları.

Sonra çox "sir"lərin yeri bilinər,
Güllər də beləcə açar xəbərsiz.
Ayların, illərin bağlı dilinə
Düşər yavaş-yavaş açar xəbərsiz.

Diyərsən nə zaman, harda görüşək,
Göyərən zəminin sabahı—kövşən.
Yazın gəlişinə tələsən çiçək,
Gecikib payıza qalan bənövşə.

Sonra yarıyarsan oğuldan, qızdan,
Təzə ömürlərin baharı başlar.
Otuzdan keçdimi, yaşın, otuzdan
Ayların, illərin təkrarı başlar...

Baxmaz talihinə, baxmaz yaşına
Nə təklif gözlüyər, nə naz eyliyər;
Yadın da əlini yığar başına,
Ölüm, qanmazı da hassas eyliyər.

Bu məğrur insandan sonuncu cümlə:
-Çəkil yollarımdan ağrı-acılar,
Ölüm, hədələmə məni ölümlə,
Ölərəm, sənin də sirrin açılar!

❖

BİR DƏ GEÇMƏYƏCƏK ƏLƏ BU ANLAR

Ö*mrümüz günlənər, günlər aylanar,*
Qış yaza qovuşar, yaz da yaylanar,
Dağlara gün düşər bulaq çaylanar.
Arzu qızmarında coşan könüldü,
Torpaq da toxumdu, göncədə güldü,
Açılmaq istəyir hələ bu anlar,
Bir də keçməyəcək ələ bu anlar!

Çəkil, ey gözümün düşməni yatmaq
Çalışıb gecəni gündüzə qatmaq,
Gündüzü bir az da çəkib uzatmaq...
Kim deyir arzusu Arazdı,Kürdü,
Elə gecələr də yarı ömürdü.
Əsnəyə-əsnəyə baxar yollara
Təpələr qaşında qabir-limanlar:
Ay ana döşündən süd əmən uşaq,
Ay ilk sevdasına yol gedən cavan,
Ay uzaq səfərdən qayıdan qoca,
Bir də keçməyəcək ələ bu anlar.

Gəzər taleyində bahtın əlləri,
Zaman saçlarında sırsıra bağlar.
Dönər budaqlara ömrün illəri-
Asılar çiynindən oğul-uşaqlar,
Çıxsa da yoluna dərələr, diklər,
İlk eşqin odunu yadında saxla;
Kərəmə neyləyər qarlı gədiklər
Əsli sevgisidir, Lələ, bu anlar,-
Bir də kəçməyəcək ələ bu anlar.

O taydan yüksələn "Arazbarı"dır,
Keçə bilmiyirik Araz, barıdır.
Gör neçə həsrətin Araz barıdır,
Çaya bax suyunda dağlayır bizi,
Alıb kəməndinə saxlayır bizi
Tikanlı məftildən tələ bu anlar,

Bir də keçməyəcək ələ bu anlar.

Bu sənin ömrünün Koroğlu dövrü,
Bu sənin ömrünün Babək çağları.
Durub əlverişli məqam gəzirsən.
İgitlik zamana, vaxta baxmayır,
Taleyə, qismətə, baxta baxmayır,
Külək də söndürməz gur ocaqları.
Yatma o vəzifə xumarlığında-
Nə verib gəlişin obaya, elə?
Bir gün çırpınarsan vaxt darlığında.
Əlinə keçdmi vaxtı mum elə,
Sənin əlindədir hələ bu anlar,
Bir də keçməyəcək ələ bu anlar!

❖

DÖYÜŞ—QƏLƏBƏ

D*öyüş illərində gəldik dünyaya,*
Arzuya,
istəyə,
eşqə tələbə!
Kədər qoşulmuşdu həftəyə, aya,
İllər arxasında uzaq qələbə.

Kədərdən deyildi hələ göz yaşım,
Hələ bir yaşımın atası sağdı.
Körpə uşaq kimi yatan yaddaşım,
Yaylım atəşinə oyanacaqdı.

Bir xalqın əslidir, bir sözün kökü,
Eşit, gör nə deyir şahid Qəbələ.
Xalqımın çiynində tarixin yükü,
Əvvəli döyüşdür, sonu qələbə.

Nəsimi Tanrını gəzmədi dində,
Qanlı Günəş kimi doğdu Hələbə.
Ömrünə az qalan əsrimizin də
Əvvəli döyüşdür, sonu qələbə.

Qəlbimiz açılıb gül qönçəsi tek
İllərinn qışına, yayına düşüb.
Döyüş illərində dünyaya gəlmək
Bizim nəsillərin payına düşüb.

De kimdən soruşum qəm ləpələnən
Uşaq gözlərimin dərdini kimdən?
Küsümmü bələyi odla bələnən
Yaxın taleyimdən, yad taleyimdən?!

Gör necə deyişidi baxtın gərdişi
Həyat sınağına oldum tələbə:
O vaxtdan qarşıma çıxan hər işin
Əvvəli döyüşdür, sonu gələbə!

❖

SƏNƏ ELƏ GƏLİR

S*ənə elə gəlir qəmdən qaçarsan,*
Açarsın qəlbini uzaq ellərə,
Ölüm həlqəsindən uzaqlaşarsan.
"Dirilik suyu"na gedib çatmamış
Bir də görərsən ki, daban-basaraq,
Hardasa azıdıb geri döndüyün
İt kimi arxana
düşüb
gəlib qəm.
Kələfin bir ucu sənə bağlıdır,
Hələ ki, hələ ki, əlində vaxt var,
Dərdin çarəsini qəlbində axtar.

❖

OAÇIŞ

A*rzuya umut var, kilidə açar,*
Bu dünya qurulub binadan belə.
Toxum göyərdimi kökündən qaçar,
Uşaq doğuldumu anadan belə.

O kimdi payızda danar yazını,
Tamah çoxlarını nankor eyliyər.
Bu necə zamandı, qız anasını,
Oğul atasını inkar eyliyər.

Yerimək öğrəndi yer ehtiyacdan,
Suyu-bulaq olub gözündən qaçar.
Qaçar işıq-gündən, meyvə-ağacdan,
Qaçan da elə hey özündən qaçar.

Üfüqdə buludlar ala-taladı,
Qar yağıb həyəti-bacanı tutar.
Qaçanı tanıdık, qovan bəladı,
Bəla da bəladan qaçanı tutar.

Tale yollarında batıb çıxarıq
Hər çıxan batanı təkrar eyliyər.
O necə tarixdir, bu necə tarix
Elə tutduğunu təkrar eyliyər.

Mənzilə kim yetər, kim düşüb qalır,
Bu bezər sevincdən, o qəmdən qaçar.
Körpə cavan olur, cavan qocalır,
Cəm təkə çevrilir, tək cəmdən qaçar.

Nə sirr saxlayandı, nə könül açır,
Kilid özündəndi, açar özündən.
Toxum qönçə olur, qönçə gül açır,
Beləcə bu dünya qaçar özündən.

❖

SÜRGÜN YERİ

Nə zaman bahtımıza
Ay doğdu, gün yeridi.
Daş daşdı, ayaq açdı
O da bir gün yeridi.
O zamandan, o vaxtdan
Dünya sürgün yeridir.
Günah nədir, kim salıb
Bu ağır günə bizi?
Nə zaman, kim göndərib
Yerə sürgünə bizi?
Dünya sürgün yeridir;
Torpağını sürməyə,
Yükünü götürməyə,
Köksünü ötürməyə,
Ölməyə, öldürməyə.
Sənin, mənim, bizlərin
Bağrı daşın, savaşın
Üzü bərkin yeridir,
Dünya- sürgün yeridir.
Yenilik- köhnəlikdir,
Ənənə –qayıdışdır.
Sabah təzə gün deyil
Dünənə qayıdışdır.
Ölüm ölmək deyil ki,
Vətənə qayıdışdır..

❖

SIX MƏNİ

Uzun-uzun işləkləri
qışa qalan bu qarın.
Yaz açılsa, göz açılsa
sırr qalacaq sirri yox!
Qara qoçu, ağ qoçu var
gedər-gəlməz yolların
Nağılların əvvəlində
biri vardı, biri yox!

Bu gecənin qaranlığı
qaçırıbdı yuxumu.
Ürəyimdə bir nəğmənin
açılacaq səhəri.
Qara-qara barmağıyla
topraq sıxır tohumu,
Sıxır, sıxır, sıxıldıqca arpa,
buğda göyərir.

Ömrüm-günüm əllərimdən
çıxıb gedir keçmişə
O illərdən, o aylardan
başarırsın yığ məni.
Bir fürsətəm, girəvəyəm
əllərinə keçmişəm,
Sıxılmağın xeyri varmış
zaman, zaman, sıx məni.

❖

BU GECƏ

Bu gecəni yata bilsəm,
Arzum başa çatarmı?
Qulağına bir söz desəm,
Ürəyinə yatarmı?

Baxtın yetim balasıyam,
Bu gecə də yetimmi?
Desə qalaq, qalasıyam,
Desə gedək, gedimmi?

İşdi getsəm...udur gedən
Səhərə tər çıxacaq.
İşdi qalsam, bu gecədən
Ölü xəbər çıxacaq.

Ha fikrimdə bir şey sayam,
Sayam birdən üçəcən.
Yer üzündə mən tənhayam,
Ürək yalqız, gecə çən.

Möhlət bitib, vaxt qurtarıb,
O kimdir qıyya çəkir.
Bəlkə elə hal aparıb,
Ruhumu suya çəkir.

Neçin ərşə çıxıb yuxum,
Görən saat neçədir?
İlahi, bu doğulduğum,
Ya öldüyüm gecədir?

Nə "xeyirəm", nə "bəliyəm"
Bir ildir, bir saniyəm.
Ya min ilin əvvəliyəm,
Ya min ilin sonuyam.

"Öldü","qaldı" can həvəsi,
Çırpınır bir kəlimədə.
İynə kimi bir quş səsi,
Bu gecəni dəlmədə.

Varmı məni xəbər alan,
Xəbər verən sorguma?
Sabahacan oyaq qalan
Bir it kimi yorgunam.

❖

O HANSİ NURANİ GOCAYDI...

***O**hansı nurani qocaydı görən,*
Ya elə qeyibdən gələn səs idi,
Dedi:--
Tələsməyin ömrün yazında,
Sizə paxıllığım tutur cavanlar,
Hara qaçırsınız—yaya çıxmağa?!
Yaşayın qış ilə yaz arasında.

Sonra işləyəcək görünməz əllər,
Sonra ehtiraslar soğulacaqdır.
Sonra soluxacaq türfə gözəllər,
Təzə məhəbbətlər doğulacaqdır;
O hansı nurani qocaydı görən?!

❖

BİR GƏBİR YERİ

D *ünyaya gəlməyin bircə an ola,*
Gələsən, görəsən, gülüb gedəsən.
Taledən əlində bir imkan ola
Kefin istəyəndə gəlib gedəsən.
Sənsiz yer üstündə qalan yerini
Qohumnan, qardaşnan bölüb gedəsən.
Bu dünya deyilən yaxşımı, pismi,
Bir içim suyundan bilib gedəsən.
Bu yurtdan o yurda bir ayrı yol yox,
Tanrım, gərək elə ölüb gedəsən.

De görüm nəyindir bu dünya sənin,
Gələsən, barını dərib gedəsən.
Bir yol açmağıdır borcu qönçənin
Gələsən,borcunu verib gedəsən.
Yaşamaq olurmuş bunun harası
Elə qərib qəlib qərib gedəsən.
Bu dünya olumla ölüm arası
Çox elə vacibdir görüb gedəsən.

İlahi, sən mənə qəlbində yer ver
Bir ümid, bir güman, bir fikir yeri.
İlahi, sən mənə canında yer ver
Haçansa bildiyim gizli sir yeri.
İlahi, sən mənə qanında yer ver
Arzunun, istəyin, eşqin hür yeri.
İlahi, sən mənə yanında yer ver,
Bir otaq, bir yataq, bir qəbir yeri...

❖

DEYİLƏM

N*ə o ülfət, nə o təmas,*

Ürəyimdə qılmaz namaz.
Kimsə məni xatırlamaz,
Kimsəyə lazım deyiləm.

Elə düyüb düyün düyən,
Əllərimdən çıxıb yüyən.
Nə atam, anam istəyən,
Nə alın yazım deyiləm.

Bir də Qurandan don geyəm
Onsuz da gec dəyir göyəm.
Hər nəyəmsə bir özgəyəm,
Mən mənim arzum deyiləm.

❖

İLQ DƏFƏ GÖRDÜYÜM YUXU

Gecə mübarək üzünü
Gördüm qəzavü-qədərin.
Bu yuxu necə dərinmiş,
Mənası ondan da dərin.

Tutuldum istər-istəməz,
Ürəyimdən adı keçdi.
Bir ilahi, doğma nəfəs
Üzümü yaladı keçdi.

Ötən hər gecə bir qumu
Sözünü deyib qayıdır.
Yuxuumu, yağmur suyumu,
Torpağa dəyib qayıdır.

Qayıq olub yazı masam
Yüz axına qoşar məni.
Bu yuxunu danışmasam,
Bu yuxu danışar məni.

Eşqin ilki, sözün ilki
O, yoxluğun var üzüdür.
Bu yuxu yuxu deyil ki,
Taleyin astar üzüdür.

Hər qəlbdə bir ümid yatır,
Gələn gedər,gedən baxar.
Sabahı sudan boylanır,
Axşamı güzgüdən baxar.

Nədən yazım, necə yazım,
Bu yuxunu yazmaq olmaz.
Bu yuxunu hara yozum
Bu yuxunu yozmaq olmaz.

Bircə görümü möcüzə,
Bir də keçəl suya getməz.
Gündüz görünməz hər gözə,
Gecə hər yuxuya getməz.

Hardan mənə inam olub,
Yüz yuxudan bir bu yuxu.
Atam olub, anam olub
Üstümdə əsir bu yuxu.

Mən heç, bir kimsəyə indi
Yoxdur istisi, soyuğu.
Ölsəm, ölümdən şirindi,
Qalsam, ömürdən bu yuxu.

❖

TÜRKÜN SEVGİSİ

D*ünyaya iğitlik doğan anadır,*
Yolu gündoğandan günbatanadır,
Ünvanı Yer adlı bir vatanadır,-
Bir Ay sevgisidir,bir gün sevgisi,
Türkün sevgisi!

Tanrı dağlarından einib gelibdir,
Bozqırda
Boz qurda dönüb gelibdir.
O yurddan bu yurda dönüb gelibdir,-
Hicran sevgisidir, sürgün sevgisi,
Türkün sevgisi!

Göydən gəldiyindən göylərə zamin,
Könlündə Tanrı var, dilində amin.
Dünyaya birinci gələn adamın
İlkin sevgisidir-Türkün sevgisi!

Adəmlə Həvvanın gördüyü yaşda,
Başında dərd də var, dərdnən savaşda.
Namusu nəfsindən yuxarı başda,
Börkün sevgisidir-Türkün sevgisi!

Tarixə səpilən izi böyükdür,
Orda da, burda da Türk oğlu türkdür.
Elə türklüyü də dünyaya görkdür,-
Görkün sevgisidir-Türkün sevgisi.

Yaxşı bax, bu qala Türk qalasıdır,
Bütün qalaların ilk qalasıdır.
Yenilməz, basılmaz Ərk qalasıdır,-
Ərkin sevgisidir,Türkün sevgisi!

Hər körpə dodağın ilk kəlməsi var,
Dindirsən, dilinin yek kəlməsi var
Qanından süzülən türk kəlməsi var
İrqin sevgisidir, Türkün sevgisi.

Tanrı dağlarından einib gəlibdir,
Bozqırda, boz qurda dönüb gəlibdir,
O yurtdan bu yurda dönüb gəlibdir,
Bir yurd sevgisidir,Türkün sevgisi
Boz qurd sevgisidir,Türkün sevgisi,
Qorqud sevgisidir,Türkün sevgisi!

❖

SAKİ

Krım'da bu adda bir şeher var.Millet gedib,adı qalıb.

H*anı saklar,*
Bura Saki.
Sahibini yolda qoyar
Elden düşen bir esa ki.
Qara qarğa,ha qarılda ,
Quş dilini bilirem ki,
Gelib çata üçyüzillik
sözün mene .

Genden uçma,gel yaxına,
Baxım,baxım-
Bir tarixi güzgü olsun
gözün mene.
Saki,Saki.....
Batan güneş semasına,
Köçeri quş yuvasına.
köçeri el obasına
qayıdanatek,
Bu sözün de
Sirri,sehri qayıdacaq.
Saklar yazdı,
Gedib bir de neçe vaxtdan
sonra geri qayıdacaq.
Hanı saklar,-
O yaxınlar,
Bu uzaqlar?!
Oxşatdınmı adı ada?!
Saki...Saki...
Yad sözlerin arasında

Adı ada.
Hansı saklar?!
O sak menem,
Yaxın yaddı,
uzaq menem.
Yeri-günün xırman yeri,
Göyü-könlün güman yeri,
Bir tarixi liman yeri
Deme,görme,
Şeki dedin,Bakı dedin,-
Sakı dedin.
Bakı-Saki!
bir-birine
qonşu durun,qohum durun,
üreyimi ovundurun,
ovunudurub sakit edin.

❖

SƏN TÜRK DYİLSƏN?

Çağırdım, özünə xoş gəlmir adın,
Çağırdım, geriyə dönüb baxmadın.
Sibir sularından içib gəlmişəm,
Araz körpüsündən keçib gəlmişəm.
Yuxuda verilən bir buta üçün,
Haqdan göndərilən bir səda üçün,
Gəlmişəm, adını soruşam sənin,
Uzaq soyadını soruşam sənin.
O Qazax dediyim,Qırğız dediyim
O Özbək dədiğim, Oğuz dediyim,
O Teymur dediyim,Yavuz dediyim...
De görüm, de görüm sən Türk dyilsən?

Millət yerişindən, boyundan bəlli,
Bulaq axışından, suyundan bəlli.
Min ildi Baburun atı yoldadı,
Çingiz xan,Teymurləng, Batı yoldadı.
Üzünü tutmusan Batıya doğru
Kəndirə, örkənə, çatıya doğru.
Keçdiyin yolları nə tez unutdun?
Açılan qoları nə tez unutdun?
Bax, qoyub gəldiyin o dünən mənəm,
Başına göylərdən od enən mənəm.
Zamandan-zamana min illər boyu
Orhun sularına qarışıb axan

Əlini gözünün üstünə qoyub
Tanrı dağlarından tarixə baxan
Qarabağ,Qaradağ, Kərkük deyilsən?
Sən Türk deyilsən?

Gür sular qumsalda itib batarmı?
Monqol çöllərindən nə deyir Mətə?
Varisi olmağa gücün çatarmı
Dərisi soyulan bir həqiqətə?
Hələ sünni daşın,şiə daşın var,
Hələ bir ürəyin iki başın var.
Hələ aşağılar yuxarı baxır,
Hələ yuxarıdan Göy Tanrı baxır.
Düşmüsən tarixə ətəyində daş.
Bir gün, a qardaş,
İşdi ətəyindən o daşı töksən
Sən Türksən,Türksən.

Harda Göyçə göllər,Bəy göllər harda?
Gözləri yol çəkən Göy göllər harda?
Hanı Amu-Dərya, Sır-Dərya hanı,
Batan Aral kimi bir dərya hanı?
Çindən,İzmirəcən Arazlar,Kürlər
Arxanca göz dikib qan-yaş tökürlər.
Şahidəm,Xəzərin suları qalxır,
Yuxudan Türklüyün baharı qalxır.
Barmağım əlimdə yumruğa dönür,
Qəlbim başım üstə göy tuğa dönür.
Altay dağlarında qurdu ulaşan,
Gördüyü yuxunun dalınca qoşan,
Batı yollarında atı dolaşan,
Aldana-aldana aldanış olan,
Gəl tanış olaq,
Gəl,gəl,gəl de görüm,sən Türk deyilsən?

Dünyanın bir ayrı qəsdi yoxdusa,
Türkün Türkdən qeyri dostu yoxdusa
Başını qatdısa yaşamaq dərdi,
Yadından çıxdısa Qarabağ dərdi.
Torpağın həsrəti bir gün dərdisə,
Bütün dərdlərimiz Türkün dərdisə

Başdımı, daşdımı börkün içində,
Şeytan dolaşdımı irqin içində?
Biri sən, yaxanı kənara çəkmə
Bu qədər, bu qədər Türkün içində
De görüm sən Türksən, sən Türk deyilsən?

❖

BAYKAL

Eğilip su içen maraldı tayga,
Güzellik önünde qatlanıb dizi.
Çağırar çağırar beni de Baykal
Çağlayan qanımın kadim denizi.

Çoxdan gezirmişim men bu anları
Gözümde bir şehit şekil melermiş.
Orda yüreğimin heyecanları
Burda kabarmalar, çekilmelermiş.

Burda arzularım taş altındadır
Talihim bir özge saadet ummaz.
Ebedi volkanlar kucağındadır
Gece de, gündüz de gözünü yummaz.

Sen ona yakın gel,yakın gel,yakın
Kışını,yazını görmek istesen.
Güzellik önünde ana toprağın
Açılan ağzını görmek istesen.

Meşeler uzayar gözün göresi
Yeni göz güzarı-yeni merhale.
Göğün gözlerinde bu yer küresi
Yahşı ki, bütündür,bütündür hele.

Eli ne arana,ne dağa yetir,
Bir uzun,bir neheng balıkt,ı Baykal.
Bir vaht okeanlar çekilip gedip
Sibir çöllerinde kalıptı Baykal.

Her şeyin evveli ondan başlayıp,
Ömrün gel ha geli ondan başlayıp.

Gözümü açandan uzak vetendi
Turna katarına dönmüşdü zendim
Uzaktan, uzaktan,uzaktan ona
Can atan çayların biri de bendim.

Neler kısmet imiş insan ömrüne
Neyi xatırlayım bununla neyi?
Düşüp dedemizin gözleri güne,
Düşüp gözlerinden Baykal eyneyi.
Yanır gün altında Baykal gün gibi
Goy tahım gözüme men o eyneyi.
Baba kademinin hasretiydi mi
Gördüm ayağımın altı göyneyir.

❖

KIRIM TATARLARI QAYIDIR GERİ...

K*ırım Tatarları qayıdır geri*
"Ruh-tene-bedene qayıdan kimi."
Qarip qurbet elden,qurbet diyardan,
Tatlı arzulardan,hoş arzulardan
Vetene qayıdan kimi.

Sütünü gizleyen inek kimidir,
Suları soğulan Elma Çayı da.
Haçan ağzı güne yanan ümidi
Bir de geri döne, geri qayıda.
Ferahtan sel olup çağlaya qemi.
Yine sularında tövşüye gemi.

Haçandı denizle arası serin,
Orda donguldanır Ayı dagöğı da.
Hicranı ağırdı seven keslerin,
Getmeyi kimidir, qayıtmağı da.

Kavuşur,kavuşur iki sevgili,
Kim bilir,çok sevir hansını hansı?!
Şükür,Çürük çayın açılır dili,
Ferahtan uçtukca uçur Uçansu.

Gelir dağıtmağa kâr qulakları,
Kâr sözü Kırım'da geldi kârıma.
Qurbete tapşırıp qarip çağları,
Kırım Tatarları dönür Kırım'a.

Göksüne sıxıbtır Aypetri Ayı,
Qayıdır işığı sönük gözlerin.
Çetirdağ,Demirci söz puçurlayır,
Qayıdır sahibi yetim sözlerin.

Her ömre bir bele lezzet olaydu
Sana da, bana da qismet olaydı.
Gördüm görüşünü dodaqla sözün,
Kavuşan halini işıqla gözün.

Gözümde göyneyir Murğuz,Ağbaba,
Az qala dağın da ömrü gödelsin.
Bütün ayrılanlar birleşsin,baba,
Ne deyim,hamının gedeni gelsin.

Yollarda ayağı qabıqdan çıxan,
Ömrümü,günümü heç eyleyenler.
Kümemi uçuran,evimi yıxan,
Göyçe mahalından köç eyleyenler.

Sizden esirgesem canımı işdi,
Cavabı ölümdü-canla-başladı.
Yenemi araya ayrılıq düşdü,
Yenemi Türklerin köçü başladı?!

Ömre de,güne de var ümid yeri,
Eseb tellerimi çekme tarıma.
Krım tatarları qayıdır geri,
Krım tatarları dönür Krıma.

Baxma kim geride,kim qabaqdadı,
Menzilin yaxını,ya uzağı var.
Sen ki,inanırsan vede-vaxtadır,
Her köçün geriye qayıtmağı var.

Krım tatarları qayıdır geri,
Heqiqet neziler,üzülmez,haqdı.
Göyçede gözümün seyrıyen yerı
Geden köç geriye qayıdacaqdır.

Kimse ayrılmasın sıra sefinden
Axırda düşmen de baxar qırıma.
Bir xalqın yenilmez iradesinden,
Krım tatarları dönür Krıma.

❖

GETDİ

M*əndən çıxdı heyiflər,*
Saçım tökküldü getdi.
Başına kül deyiblər,
Başıma küldü getdi.

Bahar ömrün həsədi,
Nə əski, nə təzədi?
Gündü, aydı-kəsədi
Neçə fəsildi, getdi.

Gəlmədi kara ömrüm,
Çıxdı bekara ömrüm.
Bu üzü qara ömrüm
Ağa bükküldü getdi.

❖

ÜSTƏ

N*eçəki cavansan könlünün quşu*
Ötər şirin-şirin budağın üstə.
Hər ağac altında bir sürü yatar
Yüz şamama bitər bir tağın üstə.

Elə ki, qocaldın düşərsən dərdə,
Sazın qan ağlayar hey pərdə-pərdə.
Yarından yaralı pərvanələr də
Yanar şamın üstə, çırağın üstə.

Könül təbiətdən gör nəyi sordu,
Özünə düşmənmi öz doğma yurdu.
Hayatda dərdə bax barama qurdu
Özünə tor qurar yarpağın üstə.

Hani ilk məhəbbət—o şirin anlar,
Bir candan can alıb gör neçə canlar.
Axırda Məcnuna dönər cavanlar
Bir güzəl, bir lalə yanağın üstə.

Ay Məmməd, sabahdan gəlsin sorağın,
Vahtında qədrini bil yaşamağın.
Həyat vuruşmadır beş arşın ağın,
Birdə ki, bir qarış torpağın üstə.

❖

İKİ NƏFƏR

O *hansı gün idi yer işə düşdü,*
Taleyin kərəmi gəldi insafa.
Kim bilir, nə zaman, harda görüşdü,

Babamız Adəmlə, nənəmiz Həvva?!

Sonra yerdəyişi yağışın, qarın,
Keçib ömrümüzdən neçə qış, bahar.
Babadan nəvəyə gedən yolların
Nəvədən babaya qayıtmağı var.

İnsan ağacının kökü dərində
Yüz yol boşalsa da, dolsa da dünya.
İkicə adam var Yer üzərində,
İkicə adam var-Adəmlə Həvva!

❖

GÖRƏSƏN...

B*ağça uşaqları*
durna qatarı
Yapışmışlar bir-birindən-
Düzülüblər lələk-lələyə,
ətək-ətəyə.
Hələlik iradələri böyüklərin əlində
Qarışıb bir-birinə
dilləri, rəngləri,
bəlkə də ürəkləri...
Onların bu birliyi
yaşıl işıq yandırır,
maşınları dayandırır.
Bəlkə ordular da dayanar
bu birliyin önündə,
kim bilir.
Amma
Qəribə bir sual oyanır məndə:
Görəsin böyüyəndə necə?
Böyüyəndə, böyüyəndə...

❖

QONUN ƏLLƏRİMƏ YORULANDA SİZ

Q*uşlar, yorulanda qonun çiynimə.*
Qonun əllərimə yorulanda siz...
Uçun əllərimdən qızıl vaxt kimi,
Uçun ömrüm kimi səssiz-səmirsiz
Qonun əllərimə yorulanda siz...

Elə ağaclar da quşlara bənzər-
Cücərən yarpaqlar- quş qanadları,
Amma ayaqları torpağa bağlı
Mavi yuxusunda qara toprağın
Uçarlar gecələr qollu-budaqlı...

Qonun əllərimə yorulanda siz
Qorxmayın əllərim bənzəsə tora.
Qorxmayın əllərim dönsə qəfəsə
Qonun əllərimə yorulanda siz!

Mən yaxşı bilirəm azadlıq nədir
Torun ləzzəti də mənə tanışdır.
Qəfəsə salınan yorgun ürəyim
Hələ də uçmağı unutmamışdır.
Qonun əllərimə yorulanda siz!...

❖

QÖNÇƏ BƏLƏKLƏRDƏ GÜL SAXLANIRDI

Q*önçə bələklərdə gül saxlanırdı,*
Üstünə şəfəqlər saçılacaqdı.
İçində böyüyüb, pardaqlanırdı
Baharı görüncə açılacaqtı...

Gəldiği kimi də qayıdar bahar,
Ötən fəsillərə baxma acıgla.
Açılan güllərə neçə göz baxar,
Açar gözümüzü gözü açıqlar.

Dünyaya gəldimi, uçan ox olar,-
Ömrün son mənzili verilib nişan!
Böyüyüb-böyüyüb yaşıl zoğ olar,
Gül kimi içindən açılar insan.

❖

ÖMÜR SU KİMİDİR

Gəlir xəyalıma mürgülənən kənd,
Qızılgül zoğunda yanan arzular.
Bir də ki, cuvarın verdiyi möhlət,
Ayağım altında çağlayan sular...

Keçərik qoynundan qışın, baharın
Vaxt bizə dəsə də irəliyə bax;
Axırı torpağa hopan suların,
Əvvəli dəhnədən üzülüb ancaq.

Bizim ömrümüz də bənzər o suya
Dönüb neçə-neçə, hissə, duyğuya,
Sozala-sozala yol gəlir hələ,
Azala-azala yol gəlir hələ.

❖

SENİ BİLMİREM

Sen neden bilirsen hansı xeyirdi
Vaxtsız enmeyinmi,ucalmağınmı,
Cavan qalmağınmı,qocalmağınmı?
Bu hele taledi,bu hele sirdi....
Sen neden bilirsen hansı xeyirdi....
Çıx,ver üreyini çağlayan yaza,
Alqışla toprağın ilk müjdesini.
Bir qız sinesinde eşqe müntezir
Açılmaq isteyen gül qönçesini....

Üsyanı önünde yanan güllerin
Bu qalxan civeler,enen civeler,
Stollar,stullar,
bu vezifeler
Mene boş görünür,
gülünc görünür...
O kimdi paxıllıq qalıb canında,
Bilinmir varlığı bu güne kimi,
Kesilib senetin imtahanında,
Batır gözlerine korş iyne kimi
Menim xoş reftarım,
xoş qılığım da ,
Belesi yanında, taleyime bax,
Yaman çevrilib yaxşılığım da.
Belece menimle arası serin,
O qara batmışın qaradır günü.
Yalançı dostluğu qoyub yarıda
Adamlı,arxalı qulbeçelerin
Ele özleri de,arxaları da
Mene boş görünür,gülünc görünür...
Pisliye çıxacaq pisliyin adı,
Yaxşı deyilecek yaxşıya bilsem...
Düşüm Kerem kimi odunuza men,
Ay xeste qasımlar,aşıq qeribler.
Güclünün qolunu burub arxaya
Gücsüzü qabağa veren herifler.
Özge taleyine hesedle baxıb
Özge qismetine göz gezdirenler,
Ne bende tanıyır,ne de ki,Allah,
Belece sürüye düşüb sürünür.
İçinde özünü yandırıb-yaxıb
Arada-berede söz gezdirenler,
Görünmez qüvvenin önünde, vallah,
Mene boş gorünür,gülünc görünür ...
Öten fesillerin seferi pergar,
Tek birce günün de sehv düşmez yeri,
Ömrün de belece yazı,qışı var,
Bacara bilirsen oxu bu sirri.
Yerde qalanları yalan ,efsane
Axırda dünyadan ne qalar sene.
Yatanda fikir ver boş ellerine
Sür ömrün sonuna öz ömrünü ,sür.
Pozulmaz alnına yazılan yazı,
Daha bundan sonra ezilmek,ölmek,
Daha bundan sonra var ehtirası,
Daha bundan sonra dünya mirası,
Mene boş gorünür,gülünc görünür ...

❖

İLK ÜMİD, SON MƏKAN

A*yağımın altında*
Qar yatır xırıp-xırıp.
Yoxsa, qismətim məni
Qışa qonaq çağırıb.

Aman, çıxar yaxamdan,
Qəlbim necə döyünür.
Çay kənarı, dəyirman...
Xatirələr üyünür.

Bu da dalgın söyütlər-
Qırovlanıb saçları.
Baxar, gözü yol çəkər,
Tək ev,
qoz ağaçları...

Suyuna daş atılmaz,-
Don vuran çaylar şüşə.
Atam burdan gedibdir
Bir zamanlar döyüşə.

İlk ümitdir, son məkan
Kim yurduna xor baxar;
Anam burda bir zaman
Tapşırılıb torpağa.

Qarışıb kəpəyinə,
Ələnibdir ələyi.
Bu onun qar beşiyi,

Bu onun qar bəlayi.

Keçib qarlı düzəni,
Açım qarlı torpağı.
Qucağına düşəni
Torpaq göyərdər axı?!

Burda bir ürək yanır,
Üstündən çırpıb qarı.
Kənarda buxarlanır
Qaratikan kolları...

Xatirələr üstünə
Narin-narin qar yağar.
Necə ayaq basasan
Ana yatan torpağa?!

❖

MUQƏDDƏS KƏDƏR

Anam Gülzarın əziz xatirəsinə

***B**iz dört nəfər idik.*
Təpəl qoyun idi,
Gəzəl alma idi,
Anamdı, məndim.
Gələcək həyatın xatirəsinə
Bizi atmışdılar Yer kürəsinə.
Anam gözəlliyin gəlinliyiydi,
Alma meşələrin pöhrəliyiydi,
Mən isə bəşərin körpəliyiydim.
Vaxtınız olanda sıxın bir məni,
bir görün nəyəm?!
-Ana çörəyiyəm,
alma şirəsiyəm, qoyun südüyəm.

❖

ƏBƏDİYYƏT YOLÇUSU

B*u qəbristan yolu sənsiz inan ki,*
Qəmlı duyğularla doludur, ana.
Bu adi yol deyil,
ölümün sanki,
Həyata uzanan qoludur, ana.

Sənsiz təbiət də susub elə bil,
Donub qalmışımmı mən öz yerimdə?!
Ana, ağır olan cənazən deyil,
Analıq haqqındır çiyinlərimdə.

Nə deyim həyatın qanunlarına,
Gör niyə fəryadlar qoparıram mən.
Sən məni dünyaya gətirdin, ana,
Sənisə dünyadan aparıram mən.

❖

YAMAN DARIXMIŞAM
SƏNİNÇİN,ANA

Bəstəkar Oqtay Rəcəbov üçün

N*əfəsin üzümə dəymir nə vaxdır,*
Əllərin qapımı döymür nə vaxtdır.
İntizar qalmışıq gör bir nə vaxtdır,-
*Yaman darıxmışam sənin*çin, ana.

Düşmərəm bir özgə arzuya sənsiz.
Gəcələr getmərəm yuxuya sənsiz.
Yiyəsiz bir evdir bu dünya sənsiz
*Yaman darıxmışam sənin*çin, ana.

Səni bu həftələr, aylar istəyir.
Saçın tek ağaran çaylar istəyir.
Dünyanın özü də layla istəyir,
*Yaman darıxmışam sənin*çin, ana.

Ömrüm bir qayıqdır-limanı sənsən.
Həyatın beşiyi, ünvanı sənsən.
Gümansız könlümün gümanı sənsən
*Yaman darıxmışam sənin*çin,ana.

❖

ÜMİTDƏN ASILAN QILINCLAR

Ağlımız təzəcə kəsirdi onda,
Bir həsrət gəzirdi dərəni, düzü,
Bir ad dolaşırdı söz arasında.
Ümütdən asılan qılınç kimiydik-
Analar qınından sıyırıb bizi
Qoymuşdu nəfsiylə öz arasında.

...Elə ki, iş üstə şər garışardı,
Günəş dağ dalına oğrun düşərdi.
Ana gözlərinə enərdi axşam,
Gəlinlər yatağa yorğun düşərdi.
Kim isə qapını döyərdi onda,
Aç-
Mənəm, gəlmişəm- deyərdi onda.
Ürəyə düşərdi addım səsləri
Təzədən qayıdıb dönərdi geri...
Gəlin anaların yuxularında
Əsgər ataların boş qalan yeri...

Var idi səhərə qalan ağrılar,
Var idi...
eşitib bilən yoxuydu.
Qar idi evlərə gələn cığırlar,
Qar idi...evlərə gələn yoxuydu...

Cığırlar ölmüşdü neçə həyətdə
Yollar üzə durub dayanmışdılar...
Yuxuya bürünən o qarlı kənddə
Təzəcə pöhrələr oyanmışdılar.

Ümitdən asılan qılınç kimiydik,
İtiydik-
"sevirəm" sözündən iti!
İtiydik inənin gözündən keçən
Həris baxışların özündən iti.

Bir gəlin harayı etirazları
Bir ana qəlbini çətin isidər.
Ölmüşdü hisləri, ehtirasları,
Ölmüşdü məhəbbət vərdişləri də...

Hara çatasıydı ömrün axını
Alışa-alışa söndülər onlar.
Şenlədə-şenlədə ər ocağını

"Namus ocağına"döndülər onlar!

Verin balıncların tanış iyini
Boğulan, soğulan həyəcanları...
Verin anaların gəlinliyini
Bir qəlbdə yaşayıb ölən canları...
Bizim ömrümüzdə ömür payı var,
Bəlkə də analar səhv eləyiblər
Verin, gəlinlərin nə günahı var?

Ağlımız yenicə kəsirdi onda,
Bir həsrət didirdi ürəyimizi
Bir ad dolaşırdı söz arasında.
Ümitdən asılan qılınç kimiydik-
Analar qınından sıyırıb bizi
Qoymuşdu bəxtiylə öz arasında.
Bu yerlə,
bu göylə,
bu dünya ilə
Eşqiylə, əhdiylə öz arasında!..

❖

YETİM BİR HARAY VAR...

Gözlər də göl kimi yağışla dolmuş,
Bu necə ömürmüş, bu necə yolmuş?!
Qızlıq yanaqları saralmış, solmuş,
Gəlin əllərinin xınası ölmüş.

Ömrün qürubuna endi gözləri,
Söndü arzuları, söndü gözləri.
Bir cüt göl yerinə döndü gözləri,-
Suları soğulmuş, sonası ölmüş.

Onsuz arzularım boyatdır, boyad
Verməz əvəzini nə qohum, nə yad.
Onsuz bir qəpiyə dəyməz ki həyat,
Məndə yaşasa da mənası ölmüş.

Hanı axatardığım o həsrət, hanı?!
Demə andırarmış ömür-gün anı.
Yetim bir haray var gəzər dünyanı:
-Görən harda qaldı anası ölmüş!

❖

BU YOLLARIN BAŞINDA

B*ir qapı döyüləcək bu yolların başında*
Pəncərə işığından diksinəcək bu gecə.
Bir ürək döyünəcək bu yolların başında,
Buza dönmüş arzular isinəcək bu gecə.

Açacaq qollarını xoş gələn qonağına,
Güləcək bir ananın divarları, daşları.
Bir sevinç qışqıracaq gecənin qulağına;-
Bakıdan oğlum gəlib-başında yoldaşları.

Yağdıracaq ayların, illərin gileyini,
Açılacaq könlünün don vuran arzuları.
Qoca qarılar kimi öz özünə deyinib,
Nəfəsini dərəcək mürgüləyən buxarı.

Bir qapı döyülmədi bu yolların başında,
"-Ey, kimsən?" deyilmədi.
Pəncərələr kör kimi tutdu olub keçəni.
Yox, bir ana qəlbinin işıqları yanmadı.
Döyəclədim qapını,
qucaqladım gecəni,
Mənim ana hayıma "-Ey, kimsən?"oyanmadı.

Açmadı, açılmadı gecikmiş qonağına,
Gülmədi bir binanın divarları, daşları.
Bir sevinc qışqırmadı gecənin qulağına:-
Bakıdan oğlum gəlib başında yoldaşları.

Qonşuları yuxudan oyatmadı bu xəbər,
Bu xəbərdən bir qızın ürəyi döyünmədi.
Gəzmədi yurd yerini bir oğul səhər-səhər,
Baxıb oğul boyuna bir ana öyünmədi.

Mənə elə gəlir ki,
Ya bu gündən, sabahdan,

ya da xatirələrdən,
Qayıdanda səfərdən,
Bir qapı döyüləcək bu yolların başında,
Bir ürək döyünəcək bu yolların başında,
"-Ey, kimsən"-deyiləcək,
"-Ehey, kimsən" deyiləcək!...

❖

BƏNZƏYİB

***D**eyirlər ki qız bibiyə oxşuyar*
Mənim balam xalasına bənzəyib.
Anasının bacıları bir deyil,
Üzündəki xal hansına bənzəyib.

Dam dolusu toyu çəkib birinə,
Şirinlikdə suyu çəkib birinə,
Ucalıqda boyu çəkib birinə,-
Balaca Qız Qalasına bənzəyib.

Anasını çıxarmayıb yadından,
Od alıbdır gözlərimin odundan.
Ad alıbdır nənəsinin adından,-
Şirin-şəkər laylasına bənzəyib.

Kirpikləri yaranışdan hörgüdür,
Təbiətin təşbehidir, görküdür.
İkimizin arasında körpüdür,-
Bir az mənə, bir az ona bənzəyib....

Gəlişindən evimizə gün düşüb,
Qonşulara haray düşüb, ün düşüb,
Hansı alma budağından gen düşüb,-
Körpə ceyran balasına bənzəyib.

Nə az, nə çox on ay keçib ilindən,
Təzə-təzə sözlər bitir dilindən.
"Yanıxlıyam"anasının əlindən,-
Nə yaxşı ki, xalasına bənzəyib.
❖

QƏRİB AXŞAMLAR

***Q**ayalar uyuyur dumanda, sisdə.*
Dağlar düşüncəli, düşüb üzüstə.
Qartal qanadını kəndimiz üstə
Gərib axşamlar,
qərib axşamlar.

İliyə işləyər bu gecə hesrət,
Nə səs var, nə səmir, qəmlı sükunət.
Yoxsa, nəfəsini ana təbiat
Dərib axşamlar,
qərib axşamlar.

Ötən durnalarmı göyün ovsunu,
Xəyal ərşə çəkər göz yuxusunu.
Hicran pərdəsini, qəm duyğusunu
Sərib axşamlar,
qərib axşamlar.

Gör nələr söyləyir o səs, o səda,
Bir anda nələri gətirdi yada.
Mən hardan biləydim bu gen dünyada,-
Bir qərib axşamlar,
qərib axşamlar.

❖

PAYIZ LÖVHƏLƏRİ

D*ağların başına çökür duman, sis,*
Havadan payızın qoxusu gəlir.
Yel əsir, tərpənir sarı bir dəniz,
Yorğun təbiətin yuxusu gəlir.

Burulub havada ocaq tüstüsü,
Gələn soyuqlardan verdikcə xəbər,
Çəkilir torpaqdan yayın istisi,
Uzanır gecələr, gecikir səhər.

Soyunur əynini yenə nar bağı,
Onun yaxasını külək açıbdır.
Şirədən çatlayan narın dodağı
Elə bil təzəcə çiçək açıbdır.

Buludlar payızın şeriyətini
Libası saralan dağlara yazdı.
Dəyişdi təbiət təbiətini
Düzlər soyuq oldu, dağlar ayazlı.

Boldur bağçaların yetirdiyi bar,
Ağaçlar çiynindən atır yükünü.
Yerində demişdir ellər,obalar;
"Gəldi payız günü, toy-bayram günü".

Dərədə gurlayıb, dağa səs salan
Payızın əlvida naləsiydimi?!
Nəydi təbiətin hüsnündə qalan,
Günəşin saralan şölәsiydimi?!

Yarpaqlar düştükcə öz budağından,
Ömür günlərini bir-bir sayırdı.
Qışın gəlişini sanki, bu zaman
Yerin qulağına pıçıldayırdı...

❖

İLK EV-İLK UÇUŞ

Könlünü göynədər ilk ev, ilk uçuş
Qayıdıb gedərsən kəndə dalınca.
Orda bilərsən ki, arzuların quş,
Piyada getmisən sən də dalınca.

Getmisən, yollarda ötüb ömür-gün,
Axırda gözlərin düşüb eynəyə.
O burda gördüğün günlərin için
Baxarsan, burnunun ucu göynəyər.

Üz üzə durarsın həyət-baca, sən:-
Gecikib qoyunu vermisən qurda.
Cavab ver quruyan hər ağaca sən,
Varmı bir cavabın bu yerə-yurda?

Köhnə həyətlərdə söyüdlər çadır,
Tənək zoğlarında uzanıb bahar.
Sən əkən ağaçlar səndən ucadır,
Sənə yuxarıdan aşağı baxar...

❖

BAHAR

Göy meşələr, çəmənlər
Çuxasıdır baharın.
Ağ cığırlar açılan
Yaxasıdır baharın.

Çiçəklər yığın yığın
Göy otlar dizə çıxır.
Elə bilki toprağın
Arzusu üzə çıxır.

Günəş yön çeviribdir
Girova, qara doğru.
Cığırların axırı
Çıxır bahara doğru.

Aləm isinən zaman
Yerdən süt buğu çıxır
Təbiətin canından
Qışın soyuğu çıxır...

❖

BU YAZ İDİ....

Bu yaz idi...
Gəlişindən xəbər tutmamış,
Novruz gülü qar altında çiçək açırdı.
Gün vurduqca zirvələrə çəkilirdi qış,
Ətəyini dəstələyib kənddən qaçırdı.

Bu yaz idi...
Kövrəlmişti torpak qar kimi,
Qışla bahar bir-birinə qarışırdılar.
Dağdan enən, dağa qalxan çığırlar kimi
Bir çiçəyin dövrəsində barışırdılar.

Bu yaz idi...
Yol gedirdi günəşə sarı,
Ovxarlanmış bulaqların üzüyolaydı.
Gündüzləri-- vadilərin buz daşqınları,
Gecələri—durnaların hava yoluydu.

Bu yaz idi...
Buğlanırdı ətirli tüstü,
Şəfəqləri üsküklərə süzürdü arı.
Büllur günəş çələngiydi dünyanın üstü,
Bürümüşdü yer üzünü fərəh yolları.

Bu yaz idi...
Arzuların göy quşağıydı,
Mavilikdə çırpınırdı ürək qu kimi.
Dünya özü xəyalpərvər bir uşağıydı,
Şiriniydi ilk məhəbbət məktubu kimi.

Bu yaz idi...
Gül bitirdi ayaq səsindən,
Xoşbəhtliyə qərq edirdi keçdiyi yeri.
Ömrü kövrək qocaların hafizəsindən
Ömrün neçə ilk baharı dönürdü geri.

Mart gecəsi...
Təbiətin ovçu bərəsi...
Çiçəklədi çağalalar—çöl əriklәri.
Dünən qışdı...Bu gün bahar çıxdı səhərə,
Bir gecədə yarpaq basdı pöhrəlikləri...

Bu yaz idi...
Gözəllikdən gözü qamaşdı.
Sevincindən dodağında qan qalmamışdı.
Elə bil ki, yer üzünün sevən günüydü,
Dünya özü baştan-başa ehtizaz idi—
Bu yaz idi...

❖

AXŞAMLAR, SƏHƏRLƏR

B*u necə yağışdı bürüyər yolu,*
Uzanar söhbəti şəhərə kimi.
Bulud sıxılmamış yaş paltar olub,
Damcılar axşamdan səhərə gibi.

Neçə məhəbbətə anadır gecə,
Gecə sirr yığını, soraq yığını.
Sevənlər könlünü açar gizlicə—
Kim görüp qönçənin açıldığını!

Yelin qanadında duman, çən gələr,
Dolar qayaların kaha beyninə.
Oğlanlar hardansa görüşdən gələr,
Qızlar gecələri giyər əyninə.

Hardasa bir bayquş ölər acından
Qalar qaranlığın alt qatlarında.
Bir quş havalanar qoz ağacından
Oyadar səhəri qanadlarında.

Zəhmətdən tarlalar batar-barınar,
Cığırlar-evlərə çatan xatirə.
Axşamlar-kişilər qadınlarına
Bir uzun, sevdalı gecə gətirər.

Yuxuda çiçəklər şirəli, nurlu,
Çiçək düzdə yatar, arı pətəkdə.
Hardasa bir əsgər yarıyuxulu—
Qəlbi dünyamızda, əli tətikdə.

Coşar buludların inadkarlığı,
Bulaqlar-dərədə-bahar çayları.
Günəş yoxsulluğu, işıq darlığı
Sağar buludları, sıxar çayları!

Yorğun balıqçılar yol salar Kürə,
Uyumış suları qayıqlıyarlar.
Ağaçlar qorxulu bir yuxu görər,
Yarpaqlar sübhəcən sayıqlıyarlar.

Bu uzun nəşədən kainat susur,
Susur ki, dağılar bu xoş xatirə.
Gəcə dəstələyər ayı, ulduzu,
Günəş qızıl gözlü səhər gətirər.

❖

CEVİZ AXTARARDIQ
PAYIZ GƏLƏNDƏ

Ceviz ahtarardıq payız gələndə
Xəzələ dönərdi gün yavaş-yavaş.
Bir həsrət nəğməsi enərdi kəndə:-
"Ağ daş, qara daş,
mənə bir yoldaş."
Tapmadım,
tapmadım,
tapaydım ey kaş...

Bəs niyə ruhumda qəm dolaşırdı
Nə idi könlümdə gülüb-ağlayan?!
Dilim topuq çalıb,
fikrim çaşırdı
Əlimi-qolumu nəydi bağlayan?
Qorxuram baxtımı qozda sınayam
Vurub çürük çıxa o ümit,-Allah.
Ayağım altında qəm xəzəlləri
Başımın üstündə tərəddüt, Allah.
Bu tale qisməti-ceviz falıdı,-
Cüt gəlsə, istəyim çin olmalıdı,
Tək gəlsə,
tək gəlsə...
ağ daş, qara daş
Saydım düz gəlmədi,
gəleydi ey kaş...

Xəzəllər cığırın qızıl başmağı,
Köhnə şalvarımın balaqları yaş...
Ümid közərərdi sinəmdə tək-tək,
Ağ daş, qara daş:-
Tapsam döyüşlərdən atam dönəcək,
Tapmasam,
tapmasam,
tapaydım ey kaş...

Yarpaqlar payızın həsrət əlləri,
Yarpaqlar-göylərin yerə minnəti.
Beləcə çevirib mis xəzəlləri

Beləcə gəzərdim o ilk qisməti,
Beləcə, qardaş!-
Tapmadım,
tapmadım,
tapaydım ey kaş!

❖

TƏSƏLLİ

B*axtıma təşəkkür eləyirəm mən*
Əhdinə solaxay dostlarım üçün.
Sevinçlərim üçün, yaslarım üçün.
Verdim ürəyimi yaz çəmənina,
Qəfləti dolunu yaddan çıxardım,
Əyrilik yolunu
yaddan çıxardım.
Meşədə aslana, şirə güvəndim,
Hələ açılmamış sirə güvəndim,
Çaqqalı, tülkünü yaddan çıxardım,
Yerüstü bölgünü yaddan çıxardım.

Deyirlər pərvanə yığışar şama,
Bircə anlığına o şamı söndür.
Söndür, o alışan inamı, söndür,
Gör kimdi arayıb axdaran səni:
Milçəklər şirəyə qonur deyirlər,
Bacara bilirsən sil o şirəni...

Bir gün taleyini yuyub sərərlər,
Batarsan,
hardansa dalğıçlar kimi
"Dostların" yalandan boy göstərərlər.

Sonra, o şam kimi,
o şirə kimi,
Bir uzaq, bir həzin
xatirə kimi

Sönməyin qalar.
Su içən toyuğa dönməyin qalar.

Yenə təbiətın səbri tükənməz,
Günü var, ayı var,
o da təsəlli.

Düzü, dolayı var,
o da təsəlli,
Qışın çiləsindən salamət çıxan
Yazı var, yayı var,
o da təsəlli...

❖

BU MƏNƏM

Bu mənəm, a kəndim,
tanımadınmı?!
Bu həmin Məmməddi
bir az sınıxıb, *bir az sıxıb*
onu şəhər havası,
Dərmanı dağların səhər havası.
Məni tanımayır təzə cavanlar,
Özümmü çıxmışım yaddan,
adım mı?!
Sənin qucağında arzuladığım,
Günlərdən qayıdıb gəlmişəm sənə,
Bu mənəm, ay kəndim, tanımadınmı?!

❖

GİZLİ MƏHƏBBƏT

***D**ağların başına düşən qardımı,*
Dumandan xəbərsiz, çəndən xəbərsiz?!
Sinəmi göynədən intizardımı
Qəlbimdən xəbərsiz, məndən xəbərsiz.

Qırdım öz əhdimi mən bilə-bilə,
Haqqın var yanımdan keç gülə-gülə
Əriyim oduna qoy gilə-gilə
Mən səni sevmişəm, səndən xəbərsiz..

Gör mənim qismətim nələr-nələrmiş,
Sən uzaq sandığın yaxın gələrmiş.
Sən demə dağlara qar ələnərmiş
Dumandan xəbərsiz, çəndən xəbərsiz,
Mən səni sevmişəm səndən xəbərsiz…

❖

SOYUQDU

Soyuqdur taleyin baxışı mene,
Hava da bır azca deyen soyuqdur.
Nakam sevgilerin qarğışı mene
Yayın yay gününde deyen soyuqdur.

Ağ saçı başımda qarlı düşünce ,
Hayanda tuş olub ayaza qönçe,
Yoxsa bilmemişem davadan önce
Gelib qapımızı döyen soyuqdur.

Ay hekim ,görmürsen tengiyir nefes,

İçimden başlayan bu küleyi kes.
Yayda köksüm altda göze görünmez ,
Qışda buz patları geyen soyuqdur.

Üz-üze dayanıb evvelim sonum.
Qoy donum,gözelik önünde donum.
Qardımı,qışdımı,neden qorunum,-
Yayın yay gününde deyen soyuqdur.
❖

DÜŞÜNCE

Bele gecelerin olmaz evezi,
Toprağı düşünce,daşı düşünce.
Derede çayların boğulur sesi
Eriyib gözümün yaşı düşünce.

Ezizim,qürbetden esen yelem men
Hesrete qovuşan ayam,ilem men.
Axşamdan sabah anadilem men,
Ölerem sen meni başa düşünce.

Arzu dünyasında daş ötüşeydi,
İller bir-birinden xoş ötüşeydi.
Başıma göylerin daşı düşeydi
Qarşıma taleyin qışı düşünce.
❖

BAXMAZ

B*uydumu ömrümün qarlı zirvesi-*
Öter kavran-karvan köç mene baxmaz.
Deyibler her seyin vaxtı-vedesi,
Gelen soyuq,sazaq,qış mene baxmaz.7

Vaxtın boz üzünden qelbim üşüdü,
Yaxşılıq,yamanlıq tale işidi.
Bext bulud dalında qış güneşidi,
Gözünün ucuyla heç mene baxmaz.

Memmed,iller açdı cismini candan,
Çıxarmaq olarmı qorxunu qandan .
Vedesi çatanda tutar yaxandan,
Ölüm dosta,düşmene baxmaz.
❖

GÖZƏLDİR

Gözlərin çağlayan sevgi dənizi
Görənin açılar bəti-bənizi.
Qalxız kipriyini gülsün dan üzü
Ağ qara üstündən halə gözəldir.

Səhərin şehində gəz ayaqyalın,
Meh əssin çiyninə sürüşsün şalın.
Ayrı ləzəti var yaşılla alın,-
Zəmilər içində lalə gözəldir.

Çəkməzsən qəhrini varın, yoxun sən.
Şirin bir nəğməsən əgər oxunsan.
Dönüb qızıl olar daşa toxunsan,-
Səni sayə salan tale gözəldir.

Həsrət dənizinin adası mənəm.
Sən eşqin özüsən, sədası mənəm.
Qara gözlərinin qadası mənə,-
Gözəldən gələcək bəla gözəldir.

Yar ol dərd bilənə, yar olanda da,
Yoluna göz diksin yorulanda da.
Eləsinə vurul vurulanda da,-
Desinlər, ay Məmməd əla gözəldir.

❖

SEVİRƏM SƏNİ

Eşit harayımı, ay mehribanım
Sevmişim, bir daha sevirəm səni.
Gəlmişim qapına bir qərib kimi
Ümidə, pənaha sevirəm səni.

Bir dili qurumuış ilan danışıb,
Yarın filankəslə filan danışıb.
Bəlkə çoxu mənə yalan danışıb,-
Batmaram günaha, sevirəm səni.

Keçdimi növrağı qələm qaşlının,
Qəlbi yuxalının, gözü yaşlının.
Ahı yerdə qalmaz uzun saçlının,
Dözmərəm o aha, sevirim səni.

Ay Məmməd, qəlbində demə aram var,
Halal sevdamızda axı haram var.
Haraya and içim, mənim haram var,-
İnan bir Allaha, sevirim səni.

❖

QIZLARIN

H*ansı gözdən köz götürdü bu ocaq,*
Yaz mövsümü gəldi haçan, qızların?!
İnnən belə güzgülənmək olacaq
İşi-gücü axşamacan qızların.

Sehirkarlıq o gözlərdə bəli, var.
Sübut gəzmə Məcnun kimi dəli var.
Ya taledə, ya ilhamda əli var
Öz-özünə işıq saçan qızların.

Möcizəmi qoşa narın dəyməsi?
Qoy Vaqifin xətirinə dəyməsin.
Mən olaydım yaxasının düyməsi,
Sinəsini külək açan qızların.

Gəlişinə gül-çiçəklər dərilsin,
Görüşünə qoşa qollar gərilsin,
Xalı olub ayağına sərilsin,--
Ev-eşiyim,həyət-bacam qızların.

Elçi gəlsin, üstünə gün saçılsın.
Verməsələr götürülüb qaçılsın.
Görüm elə baxtı, günü açılsın
Öz baxtına könül açan qızların.

Gözəllikdə hərəsi bir sonadı,
Bu sonalar eşqimizi sınadı.
Nə yaxşı ki, indi çoxu anadı,
Dünən bizi qoyub qaçan qızların...
❖

BİR İLDİR

A*y şair Ələddin şair dostunun*
Açılmır qabağı-qaşı bir ildir.
Olub məhəbbətdən illər xəstəsi,
Ayılmır sevdadan başı bir ildir.

Yarın soyuqluğu yara dağ olar.
Ürək istəməsə unutmaq olar.

Bilmirəm nə qədər yas tutmaq olar,
Qurumur gözümün yaşı bir ildir.

O atdı özünü varın qoynuna,
Bahar günlərindən qarın qoynuna.
Mən həsrət çəkirim yarın qoynuna,
Orda ləzət çəkir naşı bir ildir.

Yenə dost əlinə qalıbdır çara,
Loğman ol, dərdimə bir dərman ara.
Dönüb könül mülküm xarabazara
Göyərmir torpağı, daşı bir ildir.

Ay Məmməd, haqlıyar səni subaylıq,
Islanar, quruyar verdiyi yaylıq.
Onun körpəsinin yaşı üç aylıq,
Mənim həsrətimin yaşı bir ildir.

❖

BİR NEFESE

***B**aht özü de bahmayaydı sözüme*
Günüm gece, gecem gündüz olaydı.
Senin aşkın qayıdaydı özüme
Ev-eşiksiz,işsiz-gücsüz olaydım.

Qayıdaydı gözel günü yaşın da
Bulaqlara garışaydım, axaydım.
Yüce yüce kayaların başından
Uzak-uzak yıldızlara baxaydım.

Hoşbahtlığım yollarında biteydi,
Düzde gülü,dağda karı seveydim.
Senden gayrı qayğılarım yiteydi,
Tekce seni,tekce seni seveydim.

Kalbim seni çok istemiş,çok ummuş,
Hiç olmasa bir uzaktan bak bana.
Bu arzular bir nefese oxunmuş,-
Çok görmesin bu arzumu baht bana.

❖

BU DÜNYA
DEYİLEN NE GÜZEL İMİŞ

Dumandan açılır üstü talanın,
Yuvanı gizleme- çıxar yalanın.
Eşit cik-cikini etcebalanın,-
Bu dünya deyilen ne güzel imiş...

Bağlı qonçlara bulunup açar.
Açar, yaz yeline gönlünü açar.
Leçeyi uçunup, dodağı kaçar,-
Bu dünya deyilen ne güzel imiş...

Çayın o tayında sular sunası,
Çayın bu tayında kanın donası.
Yüreğin atlanıp, kuşun konası,-
Bu dünya deyilen ne güzel imiş...

Toyun ilk sabahı gözler mürğüde...
Qaymaq dodaqları yüz verip süde.
Bir güzel kendine bakır güzgüde,-
Bu dünya deyilen ne güzel imiş...

Kış yaza çevrilip,çin olup uykum.
Güneşin nuruna uyanıp tohum-
Qoy çıkıp bir ona yakından bakım,-
Bu dünya deyilen ne güzel imiş...

Dünya harmanının fırlanır veli,
Gerye qayıdır ömrün evveli.
Bir nesil yol gedir nene-neveli,-
Bu dünya deyilen ne güzel imiş...

❖

APAR MƏNİ

A*par məni baharlara*
Neyləyirəm mən qışı
Sənə qalsın bu dünyanın
Yağan qarı, yağışı.

Apar məni baharlara-
Sevildiyim günlərə.
Arzu olub yer üzünə
Səpildiyim günlərə.

Durnaların qanadıyla
Apar məni yazlara.
Bulaqlardan sevgi axır
Xəbər göndər qızlara.

Qoş günəşə göndər mənə
Bir parça yaz səması.
Yoxsa sevən ürəyimin
Donar sevgi dünyası.

Bahar oldu, bahar soldu
Apar məni yaylara.
İtirdiyim illərə yox,
Yaşadığım aylara.

Apar məni payızlara,
Nəyləyirəm mən yazı?
Ömrüm-günüm, axı sənsiz
Nədir ömrün mənası.?!

Yazı qaytar yalqızlara
Apar məni qışlara.
At bu dəcəl ürəyimi
Qarlara, yağışlara.

❖

NƏYİNƏ GƏRƏK

D*aha mən sənin*çin keçilmiş yolam,
Oxunmuş kitabam, dərilmiş çiçək.
Dönüb innən belə lap qızıl olam,
Ya ki, daş parçası nəyinə gərək.

Axı, hər çiçəyin ömrü bir dərim,
Köksündə nar kimi yetişib yürək.
Nəyinə gərkdir yorğun əllərim,
Dalgın xəyallarım nəyinə gərək.

Çatar qulağına uzaq sorağım,
Yaxın ülfətimin dərdini az çək.
Nəyinə gərəkdir solan yanağım
Soluxan dodağım nəyinə gərək?

Qyma məhabbətin cavan çağına,
Payız həsrət çəkər yaz yarpağına.
Ölmüşəm, qalmışam nəyinə gərək,
Harada qocalmışam nəyinə gərək!

❖

DEYİL Kİ

P*ərişan ömrümə baxma qıyqacı*
Həyatım cənnətin bağı deyil ki?!
Kimin ucbatından ağartdım saçı
Baxtımdı, saçımın ağı deyil ki?!

Bax mənim ömrümə, qəlbimə baxma.
Sınıb o evciyəz, uçub o daxma.
Vüsal günlərini başıma qaxma—
Yaşımın sevilən çağı deyil ki?!

Vüsalla hicranın yolu bir qarış,
Kimin xeyrinədir görən bu yarış?!
Sənə deyəmmərəm barışma, barış,-
İç bu məhəbbəti ağı deyil ki?!

Özün günahkarsan, özün üzürsən.
Bir eşqin sədaqət ömrünü sür sən.
Gözümün işığı kimdən küsürsən,
Gördüğün Məmmətdir, yağı deyil ki?!

❖

O KİM İDİ...

Ə.Kərimə

***H**ardasa,*
gələcəkdə bir gözəl yaşıyırdı.
Mən ona göndərərdim fikir teleqramları.
Hardasa,
gələcəkdə bir gözəl yaşıyırdı
Sorağında ilk eşqin çağlayan ilhamları.

Sevgi dalgalarında ruhumun siqnalları:-
--Gəlirəm,
gözlə məni—bu boyda, bu nişanda.
Ya piyada, ya atlı aşıb qarlı yolları,
Sabahına gecikdim, gözlə şər qarışanda.

Gecələrdən baş alan yollar—yaz yuxuluydu,
Nəydi ömrə təsəlli, ömrün naşı çağında?!
Mən idim...
gələcəkdi...
yaşamaq arzusuydu...
Məhəbbət dövr edirdi ömrün üçbucağında.

Sevgi dalğalarında ruhumun siqnalları;
Gəlirəm—gözlə məni bu boyda, bu nişanda.
Düştüm yolun ağına, aşdım qarlı yolları,
Sabahına gecikdim,
gözlə şər qarışanda.

Ya məndə oyanmadı, ya səni oyatmadı,
Tuş gəlmədi yada ki, hislər biri birinə.
Yağış oldu, qar oldu, fikrim sənə çatmadı,
Mən gecikdim, ya da sən eşqin vədə yerinə.

Yuxularda arzumun arxasınca qaçanda
Bir qızın dizi üstə yatdığım neçə ilmiş.
Ömrün oyanış çağı gözlərimi açanda
Başım üstə dayanan qız, yox, o qız deyilmiş.

Yox, gəldi bir özgəsi, baxmadı ömrə, yaşa
Dondurdu damarımda çağlayan al qanları.
Çağrılmamış bir gonaq çıxdı yuxarı başa,
Söndürüldü qəlbimin inadkar vulkanları.

Hanı o xəyalı qız-illərin əlvanlığı
Yoxsa, dünya əzəldən qəmli sükunətiymiş?!
Bəs nə imiş o ömrün ilkin dəliqanlığı,--
Ya atadan, anadan hazır məhəbbətiymiş?!

Hani o xəyalı qız,
Yoxsa, əlvan hisləri sükut donu geyindi?!
Nə idi varlığımı çulğalayan nə idi?!
O bu təmizliyiylə yer adamı deyildi,
Ya ilhamın özüydü, yada ki, mələk idi.

Gecikdi, ya tələsdi
şığıyan qatarlara.
Çıxmadı məndən gələn siqnalların səsinə.
Gecikdi, ya tələsdi
açılan baharlara,
Düşdü arzularımdan sevgi xatirəsinə.

Haçan yollara çıxdım yazıydı, payızıydı,
Hansı şirin arzunun qaldım künc-bucağında?!
Mən idim...
gələcəkdi...
o xəyalı qızıydı,
Yolumuz qovuşmadı eşqin üçbucağında.

Deyirəm nə olaydı
Ömrün astanasında-13-14 yaşında,
Əvvəlki tək aç-susuz,
lap yuxusuz olaydım.
Nabələd keçəcəyim bu yolların başında
O inam, ümid yeri-
xəyali qız olaydı!
Mən ona göndərəydim fikir teleqramları,
Deyəydim:--
gözlə məni bu boyda, bu nişanda.
Ya piyada, ya atlı aşıb qarlı yolları
Sabahına gecikdim, gözlə şər garışanda!..

❖

TƏZƏDƏN
MƏN SƏNƏ GAYIDACAĞAM

Düşüb aralığa həftələr, aylar
Qalmısan ömrümün ötən ilində.
Bir həsrət sinəmdən səni haraylar
Muhəbbət, sadaqət, sevgi dilində.
Bir eşqin uğursuz qədəmi kimi
Demə aramızı soyudacağam.
Limana qayıdan bir gəmi kimi
Təzədən mən sənə qayıdacağam.

Şöhrətdən gözümə gur ışıq düşüb
Elə bilmişəm ki, yenilməz dağam.
Bircə xəyalına gətir sən məni
Fikrim də, yolum da dolaşıq düşüb,-
Həmişə narahat edirsən məni.
Kimi oyatmamış de həsrət, kimi-
Anadan olduğum doğma kənd kimi,
Təzədən mən sənə qayıdacağam.

Yolundan, qəlbindən, yadından çıxıb
Haçansa mən səndən buxarlanmışam.
Eşqin alovundan, odundan çıxıb
Dolan bulud kimi quharlanmışam.
Bir çılğın şimşəyə bəndəm ki, yağam,-
Quraqlığa yağan yağışlar kimi,
Nifrəti soyumuş baxışlar kimi,
Təzədən mən sənə qayıdacağam.

Demə ki, ay-aydan, il ildən keçib;
Hicranın görüşlə bağrını yarıb,
Döyüb könülləri, ünvan axtarıb,
Neçə gözdən keçib, könüldən keçib
Hələ xoş duyğular oyadacağam.
Duyub gileyini, duyub ərkini,
Ünvanı səhv düşən bir məktub kimi
Təzədən mən sənə qayıdacağam.

Surətin—gözümdən çəkilən yuxu,
Bulud kipriklərin yağışla dolu.
Mənim bu gecikmiş peşimanlığım
Həyat yollarında bələtçim olub.

Bu yeni fərəhlə,
fikirlə,
hislə
Elə bilirəm ki, körpə uşağam.
Ayların, illərin uzaqlığından
Sinəmə saldığın çığırla, izlə
Təzədən mən sənə qayıdacağam,
Təzədən mən sənə qayıdacağam!!

❖